RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 234 (9979) 1 noyabr 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Aqrar sektora Prezident dəstəyi

## Bu dəstək hesabına Azərbaycan özünün ərzaq təhlükəsizliyini təmin edib

Bu gün Azərbaycanın kənd təsərrüfatı işçisi öz torpağının, öz taleyinin sahibidir və dövlətin prioritet kimi qarşıya qoyduğu mühüm vəzifələri yerinə yetirir. Vurğulayaq ki, MDB məkanında ilk torpaq islahatı ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Kənd təsərrüfatının inkişafına yönəldilən tədbirlər Prezident İlham Əliyev tərəfindən davam etdirilərək geniş vüsət almışdır. Belə ki, unudulmuş, tənəzzülə uğramış bir çox kənd təsərrüfatı sahələri artıq dirçəldilib, onlara keçmiş şöhrəti qaytarılıb. Dövlətimizin başçısı son illər pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın, fındıqçılığın, çəltikçiliyin, meyvəçiliyin və s. inkişaf etdirilməsi məqsədilə mühüm sənədlər imzalayıb. Prezidentin bu istiqamətdə bölgələrdə keçirdiyi müşavirələr, kəndli və fermerlərlə, aqrar sahənin mütəxəssisləri ilə görüşlər, verdiyi tapşırıq və tövsiyələr öz müsbət nəticəsini göstərməkdədir.

Uzun müddət işğal altında qalmış və 5 il əvvəl azad edilmiş torpaqlarımız da artıq dirçəlir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatı "Böyük Qayıdışa Dair I Dövlət Proqramı" çərçivəsində bərpa olunur və inkişaf etdirilir. Burada infrastrukturun yenidən qurulması, "ağıllı kənd" layihələrinin həyata keçirilməsi və regionun iqtisadi dinamikasının artırılması əsas prioritetlər sırasındadır.

Məlumdur ki, bu ərazilər yalnız strateji-coğrafi mövqeyi ilə deyil, həm də zəngin təbii sərvətləri ilə seçilir. Bura əsrlər boyu kənd təsərrüfatı mərkəzi olub - məhsuldar torpaqları, bol su ehtiyatları və müxtəlif iqlim şəraiti ilə Azərbaycanın əsas aqrar bölgələrindən birinə çevrilib. İndi bu torpaqlar yenidən dirçəlir və aqrar investisiya üçün böyük fürsətlər təqdim edir.

Bölgənin kənd təsərrüfatı ənənələri də çox qədimdir. Münbit Qarabağ çölləri və Kəlbəcər-Laçın dağlıq zonası kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əlverişli şərait yaradır. Tərtər çayı, Bazarçay, Həkəri və digər çaylar əkin sahələrinin suvarılmasını təmin edir. Dağlıq zonalarda heyvandarlığın və arıçılığın, düzənliklərdə isə taxılçılığın, üzümçülüyün, pambıqçılığın və digər sahələrin inkişafına imkan var. Dövlət bu ərazilərdə kənd təsərrüfatının inkişafı üçün investorlara ciddi güzəştlər təqdim edir.

Ölkəmizdə, ümumiyyətlə, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsi təmin edilir. Subsidiyaların ayrılması, güzəştli şərtlərlə gübrələrin verilməsi ilə yanaşı fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb. Onlar həmçinin kənd təsərrüfatı texnikasını güzəştlə əldə edə bilirlər. Bütün bunlar sahənin inkişafına, əməkçilərin rifah halının yüksəldilməsinə və qeyd olunduğu kimi, çox vacib bir məsələnin həllinə - ərzaq təhlükəsizliyinin yaranmasına xidmət edir.

7

## Azərbaycanın təşəbbüsləri sülh gündəliyini irəli aparır



Vətən müharibəsindən dərhal sonra rəsmi Bakı barış üçün lazım olan əməli addımları atmağa başladı, iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması üçün İrəvana beynəlxalq hüququn normalarına cavab verən 5 prinsip təqdim etdi. Ancaq həmin vaxt Ermənistan sülh sazişinin mətninə "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi deyə, 2024-cü ilə qədər tərəflər arasında müsbət istiqamətdə irəliləyişlərə nail olunmadı. Prosesə qərəzli Qərb dairələrinin müdaxiləsi isə normallaşmadan daha çox münaqişənin yenidən qızışdırılmasına xidmət edirdi. Bu, destruktivlik nümayiş etdirən Fransanın nümunəsində də aydın müşahidə olunurdu.

Parisin siyasi təxribatı ucbatından Azərbaycanın 5 oktyabr 2023-cü ildə keçirilən Qranada görüşündə iştirakdan imtina etməsini hər kəs yaxşı xatırlayır.

6

## 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI



Azərbaycan Respublikasının Milli Məclisi Vətən naminə canını fəda etmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirir, döyüş meydanlarında həyatını ölümcül təhlükələrə ataraq böyük qələbəmizə töhfə vermiş əsgər və zabitlərimizə minnətdarlığını ifadə edir.

Bu gün azad Qarabağ və Şərqi Zəngəzur innovativ və dayanıqlı inkişaf məkanına çevrilmişdir. İşğalçılar tərəfindən yerlə yeksan edilmiş şəhər və kəndlər bərpa olunur. Hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa edilir, elektrik, su xətləri çəkilir. Bölgədə Azərbaycanın gələcək inkişafının yeni modellərindən biri formalaşır. Məcburi köçkünlər ata-baba yurdlarına qaytarılır.

Təəssüflə qeyd edilməlidir ki, Ermənistan tərəfinin işğal dövründə və müharibədən sonra Azərbaycan ərazilərində basdırdığı yüz minlərcə tank və piyada əleyhinə minalar bərpa və quruculuq işlərinin sürətlə aparılmasına maneçilik törədir.

4

## Böyük qayıdış: torpaqla qürurun qovuşması



Böyük Qayıdışa dair I Dövlət Proqramı artıq yüzlərlə ailənin həyatına sabitlik, ümid və gələcək gətirib. Bu proqram çərçivəsində tikilən evlər, məktəblər, çəkilən yollar yurd həsrətinə son qoyulmuş insanların həyatının bərpası, yaddaşının dirçəlişi deməkdir. İnsanlar illərlə xəyal etdikləri yurd yerlərinə dönərək, o torpaqlarda yenidən həyat qururlar. Artıq Cəbrayılda, Zəngilanda, Füzulidə uşaqlar məktəb yollarına çıxır, ocaqlar tüstülənir, həyətlərdə gül əkilir. Bu mənzərə təkcə sevinc deyil, həm də dözümün, inamın və xalqın birliyinin simvoludur.

Hər bir kəndin və ailənin yenidən nəfəs alması, ümidlə dolması Prezident İlham Əliyevin 28 oktyabr səfərində daha da aydın görünürdü. Dövlət başçısının Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində sakinlərlə görüşü, evlərin açarlarını təqdim etməsi rəsmi mərasimdən çox, insanların xatirələrinə, arzularına qayıdışı və gələcəyə inamı əks etdirirdi. Prezident ilk olaraq Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edərək, mənzillərin açarlarını sakinlərə təqdim edib. Qeyd edək ki, ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev tikilib. Mənzillər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi olan su, işıq, qaz, günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib.

Məlumdur ki, Zəngilanın Ağalı kəndi Şərqi Zəngəzurda ilk dəfə "ağıllı kənd" konsepsiyası ilə inşa olunub. Burada həyat yalnız müasir texnologiyalarla asanlaşdırılmır, eyni zamanda kənd sakinlərinin rifahı, təhsil və sağlamlıq imkanları da müasir dövrün tələblərinə uyğunlaşdırılır.

9



# Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 oktyabr tarixli 1862 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 10, maddə 1139 (Cild I); 2025, № 3, maddə 227, № 8, maddə 758) ilə təsdiq edilmiş "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin Nizamnaməsi"nin 5.1-ci bəndində "6783392 (altı milyon yeddi yüz səksən üç min üç yüz doxsan iki)" sözləri "26783392 (iyirmi altı milyon yeddi yüz səksən üç min üç yüz doxsan iki)" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 oktyabr 2025-ci il*

# Nazir Fərid Əhmədov Gəncə şəhərində vətəndaşların müraciətini dinləyib



**Ədliyyə naziri Fərid Əhmədov oktyabrın 30-31-də Gəncə şəhərində vətəndaşları müraciətlərini dinləyib.**

Bu barədə AZƏRTAC-a Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, qəbuldan əvvəl nazir Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib və önünə gül dəstəsi qoyub.

Qəbulda Gəncə şəhər və Samux, Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Kəlbəcər rayonlarından ümumilikdə 118 vətəndaşın ədliyyə fəaliyyəti ilə, eləcə də ədliyyə orqanlarında işə qəbulla bağlı müraciəti dinlənilib. Vətəndaşların müraciətlərində qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb. Əlavə araşdırma tələb edən digər müraciətlərə isə mövcud qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılması ilə bağlı nazirliyin aidiyyəti struktur bölmələrinin rəhbər şəxslərinə müvafiq tapşırıqlar verilib.

Qeyd edək ki, qəbul mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən həyata keçirilib.

# Əmək və əhalinin sosial müdafiəsi naziri Naxçıvanda vətəndaşları qəbul edib



**Əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının sakinlərinin müraciətlərini dinləyib.**

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib.

Həmin gün vətəndaşlar məşğulluq, əlillik, mənzil təminatı, ünvanlı sosial yardım və digər məsələlərlə bağlı müraciət ediblər. Onların sırasında şəhid ailələrinin üzvləri və müharibə iştirakçıları da olub.

Hər bir müraciət fərdi qaydada araşdırılıb və nəticəsinə uyğun tədbirlər görülüb.

Sorğu xarakterli müraciətlərlə bağlı qanunvericiliyə uyğun izahatlar verilib. Vətəndaşlar müraciətləri əsasında aktiv məşğulluq proqramlarına, habelə özünüməşğulluq proqramına cəlb edilmələri üçün qeydiyyata alınıblar.

# Şeyxülislam Allahşükür Paşazadə ölkəmizin Vatikandakı və İtaliyadakı səfirliklərinə baş çəkib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Azərbaycanın Müqəddəs Taxt-Tacdakı və İtaliyadakı səfirliklərinə baş çəkib.**



AZƏRTAC xəbər verir ki, şeyxülislam Allahşükür Paşazadə hər iki binada yaradılan şəraitlə tanış olub, xeyir-dua verib.

Məlumat verilib ki, Müqəddəs Pyotr Bazilikasına aparan əsas küçədə yerləşən Vatikandakı səfirliyimiz Apostol Sarayına və rəsmi qurumlara yaxın ərazidədir.

Bildirilib ki, İtaliyadakı səfirliyimizin binasında, həmçinin Azərbaycan Mədəniyyət Mərkəzi də fəaliyyət göstərir. Mərkəzin daxili tərtibatında Azərbaycanın dövlət rəmzlərindən, milli sənətkarlıq elementlərindən, o cümlədən şəbəkədən istifadə edilib. Azərbaycan xalçaları mərkəzdəki ekspozisiyanın ən qiymətli inciləri sırasındadır. Mədəniyyət Mərkəzində Heydər Əliyev Fondu tərəfindən italyan dilində nəşr olunmuş Azərbaycanla bağlı kitablar nümayiş etdirilir.

# Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri Cəbrayılın Horovlu kəndində olublar

**Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxsləri oktyabrın 31-də Cəbrayıl rayonunun Horovlu kəndində olublar.**





AZƏRTAC xəbər verir ki, burada onlara işğaldan azad ediləndən sonra kənddə aparılmış bərpa-quruculuq işləri və yaradılmış şərait barədə məlumat verilib.

Qeyd edək ki, səfərdə 51 ölkə və 12 beynəlxalq təşkilatdan ümumilikdə 100-dən artıq nümayəndə iştirak edir.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə baş tutan bu səfər işğaldan azad olunmuş ərazilərə diplomatik korpus nümayəndələrinin sayca 20-ci səfəridir.

# Azərbaycanda akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün Zəngilanda brifinq keçirilib

**Azərbaycan Respublikasında akkreditə olunmuş diplomatik korpusun nümayəndələri üçün Zəngilan şəhərindəki Konqres Mərkəzində "Zəngəzur dəhlizi - regional nəqliyyat şəbəkəsi" mövzusunda brifinq keçirilib.**

AZƏRTAC xəbər verir ki, brifinqdə güclü beynəlxalq tərəfdaşlığın, eləcə də infrastruktur və dəmir yolu nəqliyyatının modernləşdirilməsinin ölkənin inkişafının əsas amilləri olduğu bildirilib. Qeyd edilib ki, bu nailiyyətlər Azərbaycanın əsas nəqliyyat mərkəzinə necə çevrildiyini göstərir.

Təqdimat zamanı nəqliyyat və dəniz infrastrukturuna xüsusi diqqət yetirilib. Vurğulanıb ki, bu gün ölkənin dəmir yolu ilə yükdaşımalarının həcmi artıb və Azərbaycan Xəzər dənizində ən böyük dəniz donanmasına malikdir.

Səfər çərçivəsində iştirakçılar, həmçinin Zəngilan məscidi ilə tanış olublar.

Qeyd edək ki, Azərbaycanda akkreditə olunmuş səfirliklərin, beynəlxalq təşkilatların rəhbər şəxslərinin Cəbrayıl və Zəngilan rayonlarına səfərində 51 ölkə və 12 beynəlxalq təşkilatdan ümumilikdə 100-dən artıq nümayəndə iştirak edir.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin müşayiəti ilə baş tutan bu səfər işğaldan azad olunmuş ərazilərə diplomatik korpus nümayəndələrinin sayca 20-ci səfəridir.

# "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar"

**Oktyabrın 31-də "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərindəki Qarabağ Universitetində "Məhkəmə sisteminin inkişafının konstitusiya təminatı: müasir çağırışlar" mövzusunda konfrans keçirilib.**



AZƏRTAC xəbər verir ki, Ali Məhkəmə, Məhkəmə-Hüquq Şurası və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə keçirilən konfransda dövlət rəsmiləri, hakimlər, məhkəmə ictimaiyyətinin nümayəndələri, eləcə də universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov açılış nitqi ilə çıxış edərək 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunmasının dövlətçiliyin möhkəmlənməsi və hüquqi dövlətin inkişafı baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edilib ki, aparılan məqsədyönlü islahatlar məhkəmə-hüquq sisteminin inkişafına, onun müstəqilliyinin və şəffaflığının təmininə xidmət edir. Vurğulanıb ki, elektron məhkəmə sistemlərinin tətbiqi, hakimlərin seçimi mexanizmlərinin təkmilləşdirilməsi və gənclərin hüquq sahəsinə marağının artması bu sahədə mühüm nailiyyətlərdəndir.

Diqqətə çatdırılıb ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqil dövlət quruculuğunun hüquqi bünövrəsini formalaşdırıb. Hazırda ölkəmizdə Konstitusiyanın ideyaları Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilir. Çıxışda həmçinin məhkəmə sisteminin müasir tələblərə uyğun qurulması, innovativ texnologiyaların tətbiqi və ədalətə inamın möhkəmləndirilməsinin əsas hədəflərdən olduğu vurğulanıb.

Sonra çıxış edən Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov bildirib ki, Azərbaycan xalqı bu il təkcə Konstitusiyanın qəbulunun ildönümünü deyil, həm də onun prinsiplərinin həyatda bərpası mərhələsini yaşayır. 1995-ci ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş Konstitusiya müstəqil dövlət quruculuğunun, insan hüquq və azadlıqlarının təminatçısına çevrilib. Konstitusiyada təsbit olunmuş ərazi bütövlüyü prinsipi Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə aparılan Vətən müharibəsi və antiterror əməliyyatı nəticəsində tam bərpa edilib. Bu qələbə təkcə hərbi deyil, həm də hüquqi və konstitusion ədalətin bərpasıdır. Azad olunmuş ərazilərdə aparılan bərpa və məskunlaşma prosesi, o cümlədən Xankəndidə yaradılan müasir infrastruktur, Konstitusiyanın insan rifahı və ədalət prinsiplərinin təzahürüdür.

Qeyd olunub ki, məhkəmə sistemi Konstitusiyanın həyata keçirilməsinin əsas təminat mexanizmidir və islahatlar ədalətə inamı möhkəmləndirir. Elektron məhkəmə sistemi və infrastruktur islahatları ədalətə çıxış imkanlarını genişləndirib, işğaldan azad olunmuş ərazilərdə yeni məhkəmə strukturlarının yaradılması isə ədalətin bərpasında mühüm rol oynayır. Vurğulanıb ki, "Konstitusiya və Suverenlik İli" dövlətin gücünün ədalətli qanun tətbiqində təcəssüm etdiyini xatırladır və hər bir hüquqşünas bu prinsiplərin qoruyucusu olmalıdır.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov bildirib ki, suverenlik mövzusuna həsr olunmuş tədbirin məhz Xankəndidə keçirilməsinin xüsusi mənası var. Çünki məhz Xankəndinin azad edilməsi ilə Azərbaycanın dövlət suverenliyi tam bərpa olunub. Qeyd edilib ki, Qarabağ Universiteti bölgədə məskunlaşma prosesinin önündə gedən ali təhsil müəssisəsi kimi təkcə tədris deyil, həm də elmi-tədqiqat və innovativ həllərin hazırlanması istiqamətində fəaliyyətini genişləndirir. "Hüquqşünaslıq ixtisasında yeni dövrün tələblərinə uyğun tədris planı hazırlanır və universitet savadlı, peşəkar hüquqşünasların yetişdirilməsində maraqlıdır", - deyə Şahin Bayramov əlavə edib. Həmçinin Qarabağ Universiteti ilə Ali Məhkəmə arasında əməkdaşlığın vacibliyi bildirilib və qeyd edilib ki, universitetin müəllimləri arasında artıq hakimlər də fəaliyyət göstərirlər.

Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi Elşad Nəsirov qeyd edib ki, Azərbaycan Respublikası Konstitusiyasının qəbulu müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşdiyimiz mürəkkəb dövrə təsadüf edib. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müstəqilliyimizin qorunub saxlanılması xalqımızın xoşbəxtliyidir. Konstitusiyamız dünyanın ən məzmunlu və təkmil konstitusiyalarından biridir və o, Azərbaycan xalqının iradəsini əks etdirir. Azərbaycan müstəqil dövlət olsa da, suverenliyi yalnız 2020-ci və 2023-cü illərdə - şəhidlərimizin qanı, xalqımızın birliyi və Ali Baş Komandanın qətiyyəti sayəsində tam bərpa olunub. Çıxışda Konstitusiyamızda təsbit olunan digər müddəalar, qanunun aliliyi, məhkəmə hakimiyyətinin rolundan bəhs olunub.

Bakı Dövlət Universitetinin kafedra müdiri, Məhkəmə-Hüquq Şurasının üzvü Əlizadə Məmmədov Azərbaycan Respublikasının 1995-ci il 12 noyabr Konstitusiyasının əhəmiyyəti və onun beynəlxalq hüquqla əlaqəsindən danışıb. Konstitusiyanın Azərbaycan dövlətinin suverenliyini hüquqi olaraq təsdiqlədiyi və müstəqil dövlətin hüquqi əsaslarını formalaşdırdığı vurğulanıb. Bildirilib ki, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" olaraq qeyd edilməsi, Azərbaycanın suverenliyinin daha da möhkəmləndiyini və ərazi bütövlüyünün bərpasını simvollaşdırır. Qeyd olunub ki, Konstitusiya, həmçinin dövlətin daxili hüququ ilə beynəlxalq hüququn qarşılıqlı əlaqəsini tənzimləyən sənəd kimi, məhkəmələrə beynəlxalq hüquq normalarını tətbiq etmək imkanı verir. Bu proses beynəlxalq hüququn üstünlüyünü və onun Azərbaycan hüququ ilə harmonizasiyasını təmin edir. Konstitusiyanın bəzi maddələri, xüsusən insan hüquqlarına aid olanlar, beynəlxalq hüquq normalarının tətbiqi üçün hüquqi çərçivə yaradır.

Xankəndi Şəhər Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü İlkin Abdullayev çıxışında bildirib ki, müstəqilliyin əldə edilməsindən sonra müasir dövrün reallıqlarına cavab verən Konstitusiyanın qəbul olunması zərurət idi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası dövlət tariximizdə ən əlamətdar hadisələrdən biridir. Məhkəmə hakimiyyəti cəmiyyətin sabitliyini və davamlı inkişafını təmin edən, eyni zamanda, iqtisadi inkişafa stimul verən mühüm institutdur. Cəmiyyətin dinamik inkişafı Konstitusiyanın daim təkmilləşdirilməsini və dövrün çağırışlarına uyğunlaşdırılmasını tələb edir. Məhkəmə sisteminin müasirləşdirilməsi bu baxımdan böyük əhəmiyyət daşıyır.

Sonda Ali Məhkəmənin İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov, Kommersiya Kollegiyasının sədri Kəmalə Abiyeva və Mülki Kollegiyanın sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev tələbələr qarşısında çıxış edərək Ali Məhkəmənin fəaliyyəti və rəhbərlik etdikləri kollegiyaların iş istiqamətləri barədə ətraflı məlumat veriblər. Həmçinin tələbələri maraqlandıran suallar cavablandırılıb.

Milli Məclisin iclasında

# Zəfər Günü tariximizə müdrik siyasi rəhbərliyin və qəhrəmanlığın rəmzi kimi daxil olub

**Oktyabrın 31-də Milli Məclisin payız sessiyasının növbəti plenar iclası keçirilib.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə həsr edilən beynəlxalq parlament konfransı keçirilib. Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, o cümlədən 8 ölkənin parlament sədrləri və sədr müavinləri, eləcə də 7 beynəlxalq təşkilatın təmsilçiləri, ümumən isə 100-dən çox adam iştirak edib. Konfransda "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda çıxışlar edilib.

Spiker qeyd edib ki, bu konfrans "Konstitusiya və Suverenlik İli" çərçivəsində Milli Məclisin təşkilatçılığı ilə keçirilən 13-cü tədbir idi.

Sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Komitə sədrləri Zahid Oruc, Hicran Hüseynova, Fazil Mustafa, deputatlar Vüqar Bayramov, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, Azər Badamov, Elnarə Akimova, Kamran Bayramov çıxış ediblər.

Deputatlar 8 noyabr - Zəfər Günü ilə əlaqədar fikirlərini bölüşərək, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı qələbəmizin tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Zəfərə aparan yolun ölkə iqtisadiyyatının dinamik inkişafı, ordunun maddi-texniki bazasının gücləndirilməsi ilə bağlı olduğunu söyləyiblər. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanda həyata keçirilən islahatlar ölkənin davamlı inkişafına imkan yaratdı. Ulu Öndər tərəfindən iqtisadi, siyasi, hərbi sahədə başlanan islahatlar bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Çıxışlarda ölkənin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihələrin rolundan da danışılıb.

Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son 22 ildə ölkədə bütün sahələrdə sürətli yüksəliş müşahidə olunur. Bu müddət ərzində İlham Əliyev Azərbaycan dövlətini ləyaqətlə təmsil edib, xalqın vahidliyini, dövlətçiliyin varisliyini təmin etməyə nail olub. Onun bütün maneələrə baxmayaraq, əzmlə həyata keçirdiyi strategiya nəticəsində siyasi müstəqilliyin möhkəmləndirilməsi, iqtisadi tərəqqi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilib.

Çıxışlarda Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfərindən, bir sıra yeni infrastruktur obyektlərin açılışında və təməlqoyma mərasimlərində iştirakından söhbət açılıb. Millət vəkilləri dövlət başçımızın diqqət və qayğısı sayəsində Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərinin bu bölgənin sosial-iqtisadi dirçəlişini təmin etdiyini bildiriblər.

Deputatlar, həmçinin bir sıra digər aktual mövzular, o cümlədən təhsil, mədəniyyət, beynəlxalq münasibətlərə dair, habelə seçiciləri maraqlandıran bəzi məsələlər barədə öz fikir və qeydlərini açıqlayıblar.

Sonra spiker Sahibə Qafarova iclasın gündəliyinə 11 məsələnin daxil edildiyini deyib. O, birinci məsələnin 8 noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı olduğunu söyləyib.



Milli Məclisin Sədri bildirib ki, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində Zəfərinin beşinci ildönümü tamam olur. 8 noyabr Azərbaycanın tarixinə müdrik siyasi rəhbərliyin və uzaqgörən hərbi strategiyanın təntənəsi, xalqımızın yenilməz gücünün və qəhrəmanlığının rəmzi kimi daxil olub.

Spiker diqqətə çatdırıb ki, möhtərəm Prezidentin sözləri beş il öncə baş vermiş hadisənin tarixi mahiyyətini ifadə edir. Cənab Prezident demişdir: "Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir.

...Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Milli Məclisin Sədri qeyd edib ki, Vətən müharibəsində qazanılmış Zəfərin hərbi və siyasi ölçüsü ilə yanaşı, mənəvi ölçüsü də var və o, milli ruhumuzun dirçəlişini ifadə edir. Bu gün bizə onu da xatırladır ki, dövlətin gücü təkcə iqtisadiyyatda və orduda deyil, həm də bütün ölkə vətəndaşlarının həmrəyliyində və birliyində, Vətənin taleyi üçün məsuliyyət hissindədir.

Son illərin hadisələri də göstərir ki, liderinin ətrafında sıx birləşən, öz torpağında azad yaşamağın nə demək olduğunu bilən xalq haqlarını qorumağa və pozulmuş haqlarını bərpa etməyə qadirdir.

Spiker bildirib ki, ölkəmizin işğaldan azad edilmiş bölgələri bu gün öz həyatının yeni quruculuq dövrünü yaşayır. Yaşayış məskənləri tikilib bərpa olunduqca keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar. İndiyədək 50 mindən çox insan tarixi torpaqlarında dinc həyata başlayıb.

O qeyd edib ki, bir neçə gün öncə Prezident İlham Əliyevin Cəbrayıl və Zəngilana səfərini hamımız qürurla izlədik. Dövlət başçısının iştirakı ilə bu rayonlarda bir neçə müasir yaşayış kompleksinin təməli qoyuldu, ən yüksək standartlara uyğun gələn yeni kəndlərin açılışı oldu. Prezident İlham Əliyev kəndlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim etdi.

Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərdə aparılan işlərə gündəlik diqqət və qayğısı Qarabağı və Şərqi Zəngəzuru dirçəlişin və yeni həyatın rəmzinə çevirib.

Spiker deyib ki, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulduqdan sonra iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün sülh danışıqları başlanıb. Həm də bu danışıqlar Azərbaycan Respublikasının irəli sürdüyü prinsiplər əsasında aparılıb.

Avqust ayında Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində əldə olunmuş razılaşmalar, sülh sazişinin paraflanması sülh danışıqlarının yekun mərhələsini təşkil etdi. Cənubi Qafqaz regionunda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradıldı. İnamla söyləmək olar ki, ölkəmiz qarşıdakı illərdə sülh və sabitlik şəraitində inkişafını davam etdirərək yeni böyük nailiyyətlər qazanacaqdır.

Milli Məclisin Sədri deputatlara müraciətlə bildirib ki, icazə verin, Azərbaycana tarixi Zəfəri bəxş etmiş müzəffər Ali Baş Komandana, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımızı bildirək, onları ürəkdən təbrik edək. Spikerin sözləri alqışlarla qarşılanıb.

Sonra spiker təklif edib ki, Zəfər Günü münasibətilə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlansın, Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. Spikerin təklifi alqışlarla qarşılanıb.

Çıxışına yekun vuran Milli Məclisin Sədri bildirib ki, təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə şəhidlər vermişik. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə isə möhkəm can sağlığı diləyirik.

Sonra iclasda deputat Vüqar Rəhimzadə Milli Məclisin Bəyanatının mətnini oxuyub.

8 noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı səsə qoyularaq qəbul edilib.

*(Bəyanatın mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Milli Məclisin Sədri növbəti 5 məsələnin üçüncü oxunuşda qanun layihələri olduğunu söyləyib.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov "Dövlət xidmətləri haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Millət vəkili qanun layihəsi ilə bağlı birinci və ikinci oxunuşlar zamanı geniş müzakirələrin aparıldığını və layihədə bir sıra dəyişikliklərin edildiyini söyləyib. O, 13.9-cu və 16.4-cü maddələrdə edilən dəyişiklikləri nəzərə çatdırıb, habelə əvvəlki müzakirələrdə səsləndirilən bəzi qeydlərin qanunvericilik təşəbbüsü subyekti tərəfindən məqbul hesab edilmədiyini deyib.

Qanun layihəsi dövlət xidmətləri sahəsində fəaliyyətin təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində münasibətləri tənzimləyir.

Məsələ ilə bağlı müzakirələrdə deputatlar Razi Nurullayev və Hikmət Məmmədov fikirlərini açıqladıqdan sonra, qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Deputat layihənin birinci və ikinci oxunuşlarda müzakirəsi zamanı əlavə dəyişikliklərin təklif edilmədiyini deyib və onun dəstəklənməsini xahiş edib.

Qanun layihəsində müntəzəm sərnişindaşıma xidmətlərini yerinə yetirən avtomobil nəqliyyatı üçün dayanacaq məntəqələrinin yerlərinin müəyyənləşdirilməsi, onların quraşdırılması və idarə olunması sahəsində qanunvericiliyin təkmilləşirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulur. Bununla yanaşı, sənəddə beynəlxalq avtomobil yük daşımaları yerinə yetirilərkən elektron əmtəə-nəqliyyat qaiməsinin tərtib olunması təklif olunur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmov Mülki Prosessual Məcəllədə, Cinayət-Prosessual Məcəlləsində, Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsinə dair məlumat verib. O, sənədlə bağlı əvvəlki oxunuşlarda geniş məlumat verildiyini, məsələnin mahiyyəti üzrə əlavə təkliflərin olmadığını deyib.

Sənəddə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının fəaliyyətinin əsaslarını təkmilləşdirmək məqsədilə bir sıra dəyişikliklər nəzərdə tutulur.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, layihə ilə bağlı əvvəlki iki oxunuşda geniş məlumat verildiyini, hər hansı qeyd və təklifin daxil olmadığını deyib və sənədin üçüncü oxunuşda qəbul edilməsinin məqsədəmüvafiq olduğunu bildirib.

Layihədə ipotekaya dair tələblərin ödənilməsində üstünlük hüququnun dəyişdirilməsi barədə müqavilənin notariat qaydasında təsdiq edilməsi və üstünlük hüququnun dövlət reyestrində qeydiyyata alınması təklif olunur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş) qanun layihəsinin mahiyyəti barədə söhbət açıb. O, layihə barədə əvvəlki oxunuşlarda ətraflı məlumat verildiyini deyib və sənəddə Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə əlaqədar cinayət məsuliyyətinin dəqiqləşdirilməsi, sanksiyaların sərtləşdirilməsi ilə bağlı dəyişikliklərin nəzərdə tutulduğunu qeyd edib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri növbəti 4 məsələnin ikinci oxunuşda qanun layihələri olduğunu bildirib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Azərbaycan Respublikasının daxili qoşunları haqqında" qanun layihəsini (ikinci oxunuş) təqdim edib. O, layihənin birinci oxunuşda ətraflı müzakirə edildiyini və barəsində deputatlar tərəfindən müsbət rəylərin verildiyini söyləyib, sənədin komitədə ikinci oxunuşda baxılaraq plenar iclasa tövsiyə edildiyini bildirib.

Qanun layihəsi Azərbaycan Respublikasının konstitusiya quruluşunun, suverenliyinin, habelə ictimai qaydanın və ictimai təhlükəsizliyin qorunması sahəsində Azərbaycan Respublikası daxili qoşunlarının fəaliyyətini, hüquq və vəzifələrini, həmçinin daxili qoşunların idarə olunmasının hüquqi əsaslarını müəyyən edir. Layihədə əsas anlayışlar, daxili qoşunlar haqqında Azərbaycan Respublikasının qanunvericiliyi, daxili qoşunların əsas prinsipləri, fəaliyyət istiqamətləri və daxili qoşunların tərkibi haqqında normalar öz əksini tapıb. Bununla yanaşı, sənəddə daxili qoşunların səlahiyyətləri və daxili qoşunların fəaliyyətinin təmin edilməsi tədbirləri ilə bağlı, daxili qoşunların komandanının səlahiyyətləri, maliyyə və maddi-texniki təminatı, hərbi qulluqçularının, onların ailə üzvlərinin təhlükəsizliyinin təminatlarına dair və digər bir sıra məsələlər ehtiva olunur.

Deputat Qüdrət Həsənquliyev məsələ barədə bəzi fikirlərini açıqladıqdan sonra, qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsinin mahiyyətini diqqətə çatdırıb. O, layihəyə dair birinci oxunuşda ətraflı məlumat verildiyini, deputatlar tərəfindən əlavə təkliflərin daxil olmadığını deyib və sənədin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsinə əsasən, dünya, ölkə və yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısına daxil edilmiş binalar, yardımçı və müvəqqəti tikililər, istixanalar və anbar binaları, istehsalat binaları, fərdi yaşayış evləri, Şəhərsalma və Tikinti Məcəlləsinin 81.1-ci maddəsində göstərilən reklam qurğuları və həmin məcəllənin 89.1-ci maddəsində göstərilən ekspertizadan keçirilməsi tələb olunmayan tikinti obyektləri istisna olmaqla, digər yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi xarakter daşıyacaq.

Müzakirələr zamanı çıxış edən komitə sədri Zahid Oruc, deputat Vüqar Bayramov məsələ ilə əlaqədar öz fikir və qeydlərini səsləndiriblər. Komitə sədri Sadiq Qurbanov qaldırılan məsələlərə aydınlıq gətirib.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Komitə sədri qeyd edib ki, qanun layihəsi ixtisaslaşmış hərbi qulluqçuların bilik və bacarıqlarından ölkəmizin müdafiəsində daha səmərəli və uzunmüddətli istifadəsinin təmin edilməsi, gizirlərin və miçmanların həqiqi hərbi xidmətkeçməsi qaydalarının və bir sıra normaların təkmilləşdirilməsi məqsədilə hazırlanıb.

Arzu Nağıyev layihənin birinci oxunuşu barədə məlumat verərək dəyişikliklərlə bağlı komitəyə heç bir təklifin daxil olmadığını deyib və məsələnin səsə qoyulmasını xahiş edib.

Qanun layihəsi ikinci oxunuşda qəbul olunub.

Növbəti məsələ olan "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov təqdim edib. O bildirib ki, layihənin birinci oxunuşu zamanı dəyişikliklər haqqında ətraflı məlumat verilib. Layihə ilə bağlı deputatlardan komitəyə heç bir rəy və təklifin daxil olmadığını deyən Nurlan Həsənov qanunvericilik təşəbbüsü subyekti tərəfindən sənədə texniki xarakterli düzəliş edildiyini diqqətə çatdırıb.

Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin Sədri Sahibə Qafarova gündəliyin sonuncu məsələsinin birinci oxunuşda olan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi olduğunu bildirib və məsələyə dair məlumat vermək üçün Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanova söz verib.

Sadiq Qurbanov diqqətə çatdırıb ki, təklif olunan dəyişikliklər Enerji Effektivliyi İnformasiya Sisteminin yaradılması və məlumatların bu sistemə daxil edilməsi ilə bağlıdır. Bu məqsədlə qanuna "Enerji effektivliyi informasiya sistemi" adlı 4-1-ci maddə əlavə olunur, "Enerji auditi" adlanan 6-cı maddənin 6.3-cü bəndi genişləndirilir, eyni zamanda 17-ci maddəyə 17.1.5-ci bənd artırılır.

Bildirilib ki, yaradılması nəzərdə tutulan Enerji Effektivliyi İnformasiya Sistemi enerji səmərəliliyi sahəsində dövlət siyasətinin icrasına nəzarəti həyata keçirməyə, müvafiq sahədə elektron xidmətləri göstərməyə və icra göstəricilərini operativ almağa kömək edəcək. Belə ki, sistem üzərindən enerji auditorunun ixtisas attestatının alınması məqsədilə müraciətlər qəbul ediləcək, sistemdə enerji auditorları və enerji auditi təşkilatlarının reyestri əks olunacaq, enerji istehsalı, təchizatı və istehlakına nəzarət subyektlərinin hesabatları yerləşdiriləcək. Komitə sədri qeyd edib ki, informasiya sisteminin ictimaiyyətə açıq hissəsində əhali üçün enerji səmərəliliyinə dair maarifləndirici məlumatların, enerjiyə qənaət kalkulyatorunun, enerji istehlakına dair statistikanın və sair yerləşdirilməsi nəzərdə tutulub. Vurğulanıb ki, yeni sistemin yaradılması bu sahədə şəffaflığının artırılmasına, dövlət xidmətlərinin səmərəliliyinin yüksəlməsinə xidmət edəcək.

Dəyişikliklərlə bağlı deputat Asif Əsgərovun fikirləri dinlənildikdən sonra layihə birinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# 8 Noyabr - Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin BƏYANATI

2025-ci il noyabrın 8-də Azərbaycan xalqı ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası uğrunda uzun illər apardığı mübarizənin həlledici mərhələsinə yekun vurmuş Zəfər gününü böyük milli qürur duyğusu ilə qeyd edəcəkdir. 2020-ci ilin sentyabr - noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə edilən Zəfər milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biridir.

Azərbaycan beynəlxalq miqyasda tanınmış ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu 30 ilə yaxın dövrdə beynəlxalq hüquqa sadiq qalaraq torpaqlarını sülh yolu ilə azad etməyə çalışmışdır. Dövlətimizin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların qərar və qətnamələri münaqişənin nizama salınması üçün hüquqi zəmin yaratmışdı. Təəssüf ki, beynəlxalq qurumlar qəbul etdikləri qərarları həyata keçirməkdə qətiyyətsizlik göstərmiş və təcavüzkarı öz adı ilə çağırmaqdan boyun qaçırmış, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarından işğalın nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistanın rəhbər vəzifəli şəxslərinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatları və hərəkətləri işğalçı dövlətin əsl niyyətlərini üzə çıxarmışdır.

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. 44 günlük Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatmışdır. Döyüş meydanında qazanılan Zəfərin siyasi-diplomatik müstəvidə də təsdiq edilməsi Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılmasını təmin etmişdir.

Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin uğurla yerinə yetirilərək Azərbaycan torpaqlarının işğalına son qoyulması, tarixi ədalətin bərpa olunması xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Bütün dünyaya nümayiş etdirilmişdir ki, Azərbaycan haqsızlıqla barışmayan qüdrətli dövlətdir və bundan sonra heç kəs onunla güc və təzyiq dili ilə danışa bilməz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti 44 günlük Vətən müharibəsində tarixi Zəfərin həlledici amili olmuşdur. Həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, iqtisadi müstəqilliyin əldə edilməsinə yönələn düşünülmüş tədbirlər sayəsində Azərbaycan maliyyə dayanıqlığı və xarici yardım olmadan müharibə aparmaq qabiliyyəti qazanmışdır.

Hərbi quruculuq sahəsində zəruri addımlar atılmışdır. Müdafiə sistemində geniş miqyaslı islahatlar aparılmış, müasir peşəkar ordu yaradılmış, hərbi sənaye gücləndirilmişdir.

Suverenlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan xarici siyasətin həyata keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Bütün vasitələrdən istifadə edilərək Azərbaycan torpaqlarının işğalı haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır.

Xalq, iqtidar və ordu arasında möhkəm birlik yaradılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan gənc nəsil yetişdirilmişdir. Bütün siyasi qüvvələr ərazi bütövlüyünün bərpa edilməsi ideyası ətrafında birləşmişlər.

Ölkədə yaradılmış idarəçilik modeli Azərbaycana lazımi məqamda dəqiq və qətiyyətlə hərəkət etmək imkanı vermişdir. Azərbaycançılıq ideallarından güc alan xalqımızın milli birliyi döyüş meydanında düşmənə endirilən "dəmir yumruğ"a çevrilərək qələbənin mühüm amillərindən biri olmuşdur.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Bu dövlət terrorizmi aktları müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Qarşı tərəfin qanlı hücumlarına və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl etmiş, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf almış, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməmişdir.

2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində isə Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son qoyulmuş, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olmuşdur.

Beləliklə, son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi Vətən naminə canını fəda etmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirir, döyüş meydanlarında həyatını ölümcül təhlükələrə ataraq böyük qələbəmizə töhfə vermiş əsgər və zabitlərimizə minnətdarlığını ifadə edir.

Bu gün azad Qarabağ və Şərqi Zəngəzur innovativ və dayanıqlı inkişaf məkanına çevrilmişdir. İşğalçılar tərəfindən yerlə yeksan edilmiş şəhər və kəndlər bərpa olunur. Hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa edilir, elektrik, su xətləri çəkilir. Bölgədə Azərbaycanın gələcək inkişafının yeni modellərindən biri formalaşır. Məcburi köçkünlər ata-baba yurdlarına qaytarılır.

Təəssüflə qeyd edilməlidir ki, Ermənistan tərəfinin işğal dövründə və müharibədən sonra Azərbaycan ərazilərində basdırdığı yüz minlərcə tank və piyada əleyhinə minalar bərpa və quruculuq işlərinin sürətlə aparılmasına maneçilik törədir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 400-dən çox mülki şəxs və hərbçi minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Bütün bu itkilərə baxmayaraq, məhz Azərbaycan bölgədə sabitlik yaradılması və Ermənistanla münasibətlərin normallaşması üçün 5 baza prinsipini təqdim etmiş, sülh gündəliyinin irəliyə aparılması üçün siyasi iradə və konstruktiv yanaşma nümayiş etdirmişdir. Sülh sazişinin layihəsi də məhz Azərbaycan tərəfindən tərtib olunmuşdur. Bu ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açmışdır.

Əldə edilmiş razılaşmalara uyğun olaraq reallaşacaq Zəngəzur dəhlizi qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevriləcəkdir. Vaşinqton razılaşmalarının daha bir önəmli yekunu isə ATƏT-in Minsk qrupunun ləğv edilməsi olmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi İkinci Qarabağ müharibəsində qələbənin tarixi əhəmiyyətini qeyd edərək dövlətimizin müstəqilliyinin, ərazi bütövlüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə edir. Milli Məclis Azərbaycan Respublikası Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəklədiyini bildirərək xalqımızı öz liderinin ətrafında daha sıx birləşməyə səsləyir.

*(Bəyanat Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il 31 oktyabr tarixli iclasında qəbul edilmişdir).*

# YAP və BBP nümayəndələri Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər





**Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti Yeni Azərbaycan Partiyasının (YAP) dəvəti ilə ölkəmizə səfərə gəlib.**

Səfər çərçivəsində oktyabrın 31-də YAP-ın nümayəndələri və BBP nümayəndə heyəti Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.



Daha sonra "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçən, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

# YAP Mərkəzi Aparatında görüş keçirilib

**Oktyabrın 31-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türkiyənin Böyük Birlik Partiyasının (BBP) sədri Mustafa Desticinin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.**



Görüşdə Ümummilli Lider Heydər Əliyevin ifadə etdiyi "bir millət, iki dövlət" fəlsəfəsinə, tarixi köklərə, ortaq milli-mənəvi dəyərlərə, dostluq, qardaşlıq və strateji müttəfiqliyə əsaslanan Azərbaycan-Türkiyə münasibətlərinin iki ölkənin liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğanın məqsədyönlü siyasəti nəticəsində uğurla inkişaf edərək ən yüksək səviyyəyə çatdığı bildirilib.

Azərbaycanın şanlı Zəfər qazanaraq öz ərazi bütövlüyünü bərpa etməsindən sonra 2021-ci il 15 iyun tarixində imzalanmış Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin yerinə yetirilməsinin həm ölkələrarası münasibətlərin inkişafı, həm də regionda təhlükəsizliyin təmini və çoxtərəfli işbirliyinin dərinləşdirilməsi baxımından önəmi diqqətə çatdırılıb. Hər iki dövlətin beynəlxalq platformalarda bir-birini fəal şəkildə dəstəkləməsinin milli maraqların təmini və qarşıda duran strateji hədəflərin gerçəkləşdirilməsi kontekstində əhəmiyyəti vurğulanıb.

Azərbaycan-Türkiyə birliyinin türk dünyasında da əməkdaşlığın genişləndirilməsi, xüsusilə Türk Dövlətləri Təşkilatının beynəlxalq münasibətlər sistemində nüfuzlu güc mərkəzi kimi mövqelərinin möhkəmlənməsi və rolunun artması üçün yeni imkanlar yaratdığı qeyd olunub. Bu kontekstdə türk dövlətlərinin siyasi partiyaları arasında əlaqələrin genişləndirilməsinin önəmi də xüsusi vurğulanıb.

Görüş zamanı 2021-ci il iyunun 2-də Əməkdaşlıq Protokolu imzalayan və ötən müddət ərzində ortaq maraqlara əsaslanan mühüm tədbirlər reallaşdıran Yeni Azərbaycan Partiyası ilə Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının münasibətlərinin nümunəvi xarakter daşıdığı vurğulanıb, həmçinin YAP ilə Böyük Birlik Partiyası arasında gələcək əməkdaşlıq perspektivləri müzakirə olunub.

# Azərbaycanın xarici işlər naziri Özbəkistanda səfərdədir

Oktyabr 31-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Özbəkistan Respublikasının Səmərqənd şəhərinə işgüzar səfəri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının Təhsil, Elm və Mədəniyyət üzrə Təşkilatının (UNESCO) Baş Konfransının 43-cü sessiyasında çıxış edib.

Nazir Ceyhun Bayramov çıxışında qardaş Özbəkistana səmimi qonaqpərvərlik və yüksək səviyyədə təşkilatçılığa görə, təşəkkürünü bildirib, BMT Nizamnaməsi və UNESCO-nun Konstitusiyasının 80 illik yubileyinin çoxtərəflilik və sülh prinsiplərinə öhdəliyin vacibliyi və birgə dəyərlərə əsaslanan qlobal həmrəyliyin möhkəmləndirilməsi baxımından mühüm tarixi mərhələ olduğunu vurğulayıb.

Azərbaycanın UNESCO ilə tərəfdaşlığın mədəni irs və müxtəliflik, inklüziv təhsil, elmi tərəqqi və beynəlxalq həmrəyliyə dair ortaq öhdəliklərə əsaslandığı və donor ölkə olaraq mədəniyyət, elm, gənclərin imkanlarının genişləndirilməsi və mədəniyyətlərarası dialoq kimi sahələrdə irəli sürülən təşəbbüsləri dəstəklədiyi qeyd olunub.

Ölkəmizin mədəniyyətlərarası və dinlərarası dialoqun təşviqinə xüsusi önəm verdiyi, 2008-ci ildə Bakıda irəli sürülən və UNESCO tərəfindən dəstəklənən "Bakı Prosesi"nin bu istiqamətdə uğurlu nümunə kimi beynəlxalq səviyyədə tanındığı diqqətə çatdırılıb.

Azərbaycanın UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında 24 elementlə dünyada ön sıralarda yer aldığı bildirilib.

Nazir Ceyhun Bayramov çıxışında Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağıdılmış mədəni irsinin bərpasının hökumətin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb, bu prosesdə minalanmış ərazilərin böyük maneə yaratdığını qeyd edib.

Nazir, həmçinin təhsil sahəsində dayanıqlı inkişaf baxımından Azərbaycan tərəfindən görülən işlərin əhəmiyyətini vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin 8 iyul 2023-cü il tarixli Fərmanı ilə təsis olunmuş Heydər Əliyev Beynəlxalq Təhsil Qrantı proqramı çərçivəsində İslam Əməkdaşlıq Təş-




kilatı və Qoşulmama Hərəkatının üzv ölkələrindən hər il 100 tələbəyə, ümumilikdə 5 il ərzində 500 tələbəyə Azərbaycanda təhsil almaq imkanı yaradıldığını bildirib.

Nazir çıxışında bundan əlavə, Azərbaycanda həyata keçirilən təhsil islahatlarına, rəqəmsal savadlılığa, gənclərimiz üçün Elm, Texnologiya, Mühəndislik və Riyaziyyat imkanlarına qoyulan sərmayələrə toxunaraq, 2030-cu ilin gündəliyinə, xüsusilə də təhsil üzrə 4-cü dayanıqlı inkişaf məqsədinə böyük əhəmiyyət verildiyini və Azərbaycan-UNESCO Etimad Fondu vasitəsilə də bir sıra layihələrin dəstəkləndiyini qeyd edib.

Çıxışının sonunda nazir UNESCO-nun tərəfdaşlıq və anlaşmanın mühüm təşkilatı olmasını vurğulayaraq, heç bir regionun və ölkənin geridə qalmaması üçün birgə səylərin gücləndirilməsinə çağırış edib.

* * *

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, görüş zamanı Azərbaycan ilə Macarıstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin inkişaf perspektivləri, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri, gələcək plan və layihələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov iki ölkə arasında mövcud siyasi və strateji dialoqun, qarşılıqlı səfər və təmasların tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

İkitərəfli əsasda Azərbaycan ilə Macarıstan arasında iqtisadiyyat, ticarət, investisiyalar, enerji təhlükəsizliyi, bərpaolunan enerji ehtiyatları, humanitar, təhsil, mədəniyyət və s. istiqamətlər üzrə əməkdaşlıq gündəliyində duran çoxşaxəli məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Xüsusilə iqtisadi əlaqələrin daha da gücləndirilməsi baxımından potensialın mövcudluğu, bu istiqamətdə perspektivlərin müzakirəsi istiqamətində Azərbaycan və Macarıstan hökumətləri arasında İqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın rolu diqqətə çatdırılıb.

Bərpaolunan enerji sahəsinin inkişafı və ötürülməsi istiqamətinin strateji tərəfdaşlıq münasibətlərimizin vacib komponentlərindən biri olduğu, bu istiqamətdə Qara dəniz sualtı kabel/Yaşıl Orta Dəhliz təşəbbüsünün irəlilədilməsi fəaliyyətinin davam etdirilməsinin zəruriliyi vurğulanıb.

İşğaldan azad edilmiş ərazilərdəki quruculuq işlərinə Macarıstanın töhfəsi minnətdarlıqla qeyd olunub.

* * *

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Gürcüstanın xarici işlər naziri Maka Botçorişvili ilə görüşüb.

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Gürcüstan arasında strateji tərəfdaşlığın siyasi, təhlükəsizlik, iqtisadi və nəqliyyat, humanitar istiqamətləri üzrə inkişaf perspektivləri, eləcə də regional gündəmdə yer alan aktual məsələlər ətrafında ətraflı fikir mübadiləsi aparılıb.

Azərbaycan və Gürcüstan arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin yüksək səviyyəsindən məmnunluq ifadə olunub, iki ölkə arasında formalaşmış fəal siyasi dialoqun, regional platformaların əlaqələrin möhkəm əsasını təşkil etdiyi vurğulanıb.

Nazirlər regionda dayanıqlı sülhün və sabitliyin təmin olunması üçün birgə səylərin önəmini qeyd ediblər.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" 1992-ci il 23 noyabr tarixli 631 nömrəli və "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 27 avqust tarixli 135 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 322** **Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adı aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə ödənilən işdənçıxarma müavinətinin miqdarı və ödənilməsi şərtləri haqqında";

1.2. preambula aşağıdakı redaksiyada verilsin:

"Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:";

1.3. 1-ci, 1-1-ci, 2-ci və 10-cu hissələr ləğv edilsin;

1.4. 3-cü hissə üzrə:

1.4.1. birinci abzas aşağıdakı redaksiyada verilsin:

"Hərbi qulluqçulara (hərbi rütbələrdən məhrum edilmiş hərbi qulluqçular, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə hərbi xidmətdən buraxıldıqda, qulluq keçməyə xitam verildikdə aşağıdakı miqdarda işdənçıxarma müavinəti ödənilir:";

1.4.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"a) həqiqi hərbi xidmətdə (qulluqda) olmanın son yaş həddinə çatmasına, xəstəliyinə və ya ştatların ixtisarına görə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41.0.2 - 41.0.4-cü, 42.0.1-ci və 42.0.2-ci maddələrinə əsasən hərbi xidmətdən buraxılanlara - beş aylıq vəzifə və rütbə maaşı həcmində;";

1.4.3. üçüncü abzasda "tərxis edilənlər" sözləri "xidmətdən buraxılanlar" sözləri ilə, "tərxis olunmuşlara" sözləri "buraxılmışlara" sözü ilə əvəz edilsin;

1.4.4. dördüncü abzas aşağıdakı redaksiyada verilsin:

"hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə - iki aylıq vəzifə və rütbə maaşı həcmində;";

1.4.5. beşinci abzas ləğv edilsin;

1.4.6. altıncı abzas aşağıdakı redaksiyada verilsin:

"pensiya hüququ olmadan xidmətdən buraxılan, təqvimi xidmət müddəti dörd ildən az olan gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına və ədliyyə orqanlarının kiçik rəis və sıravi heyətinə mənsub şəxslərə - bir aylıq vəzifə və rütbə maaşının 50 faizi həcmində, təqvimi dörd il və daha artıq xidmət edənlərə - dörd il xidmətə görə bir aylıq vəzifə və rütbə maaşı və dörd ildən artıq xidmətin hər tam təqvim ili üçün əlavə olaraq bir aylıq vəzifə və rütbə maaşının 20 faizi həcmində, lakin ümumi məbləği iki aylıq vəzifə və rütbə maaşından çox olmamaqla.";

1.4.7. yeddinci abzas 3-1-ci hissə hesab edilsin və həmin hissədə "İşdən çıxarma pulu" sözləri "İşdənçıxarma müavinəti" sözləri ilə, "kimi" sözü "ödənişlərdən" sözü ilə əvəz edilsin;

1.4.8. səkkizinci abzas aşağıdakı redaksiyada verilsin:

"hərbi qulluqçulara və ədliyyə orqanlarının orta, böyük və ali rəis heyətinə mənsub şəxslərə - axırıncı vəzifəsi, hərbi və ya xüsusi rütbə üzrə maaşlardan;";

1.4.9. doqquzuncu abzasdan "daxili işlər və" və "ştat" sözləri çıxarılsın və həmin abzasda "rəis" sözü "kiçik rəis" sözləri ilə əvəz edilsin;

1.4.10. onuncu abzas 3-2-ci hissə hesab edilsin və həmin hissə aşağıdakı redaksiyada verilsin:

"3-2. Gizirlərin, miçmanların, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının, ədliyyə orqanlarının kiçik rəis və sıravi heyətinə mənsub şəxslərin xidmət müddətində fasilələr olduğu halda, onlara işdənçıxarma müavinəti yalnız sonuncu xidmət müddəti nəzərə alınmaqla verilir.";

1.5. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Pensiya hüququ olmadan "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 41-ci və 42-ci maddələrinə əsasən, həqiqi hərbi xidmətdə və ya ehtiyatda olmanın son yaş həddinə çatmasına, xəstəliyinə və ya ştat ixtisarına görə həqiqi hərbi xidmətdən buraxılan hərbi qulluqçulara işdənçıxarma müavinətinin hərbi rütbə üzrə verilməsi hərbi xidmətdən buraxıldığı gündən etibarən bir il ərzində davam edir.

Hərbi və xüsusi rütbə nəzərdə tutulmayan digər dövlət orqanlarında (qurumlarında), müəssisə və təşkilatlarda işləyən, iş yeri və orta aylıq əməkhaqqı saxlanılan "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən səfərbərlik üzrə hərbi xidmətə (toplanışa) çağırılmış hərbi qulluqçulara və ədliyyə orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə, habelə müddətli həqiqi hərbi xidmətdən birbaşa zabit hərbi rütbəsi verilməklə buraxılmış şəxslərə işdənçıxarma müavinəti verilmir.";

1.6. 11-ci hissədə "qərar" sözü "Qərar" sözü ilə, "qüvvəyə mindirilsin" sözləri "tətbiq edilir" sözləri ilə əvəz edilsin.

2. "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, № 8, maddə 860 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. adında və birinci hissədə "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilsin;

2.2. həmin Qərarla təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları" üzrə:

2.2.1. adında "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "Hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilsin;

2.2.2. 1-ci hissədə "Vergi Xidmətində" sözləri "Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində" sözləri ilə, "təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi" sözləri "hərbi xidmət müddətinin və təminat xərcliyinin hesablanması və bu" sözləri ilə əvəz edilsin;

2.2.3. aşağıdakı məzmunda 2-1-ci, 2-2-ci və 2-3-cü hissələr əlavə edilsin:

"2-1. Hərbi və xüsusi rütbəli şəxslərin təqvimi xidmət müddətinə aşağıdakı dövrlər aid edilir:

2-1.1. Azərbaycan Respublikasının Silahlı Qüvvələrində və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 37-ci maddəsinə əsasən həqiqi hərbi xidmətə başladıqları gündən həqiqi hərbi xidmətin son gününədək olan dövr;

2-1.2. Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası katibinin xidmətində hərbi xidmətə (xüsusi növ dövlət qulluğu vəzifəsinə) təyin olunma günündən hərbi xidmətin (xüsusi növ dövlət qulluğu vəzifəsində xidmətin) son gününədək olan dövr;

2-1.3. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətində, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətində, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, Azərbaycan Respublikasının Dövlət Mühafizə Xidmətində, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətində və Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyində həqiqi hərbi xidmətə başladıqları gündən həqiqi hərbi xidmətin son gününədək olan dövr;

2-1.4. Azərbaycan Respublikası Hərbi Prokurorluğunun hərbi qulluqçularının müvafiq vəzifəyə təyin olunduqları gündən həqiqi hərbi xidmətdə olmanın son gününədək olan dövr;

2-1.5. daxili işlər, fövqəladə hallar, ədliyyə, gömrük orqanlarının və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi Cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsinin rəis və sıravi heyətinə mənsub şəxslər və miqrasiya orqanlarında xüsusi rütbələr nəzərdə tutulan vəzifələrdə qulluq keçən şəxslər həmin vəzifələrə təyin edildikləri gündən qulluq (xidmət) keçmələrinə xitam verilən günədək olan dövr;

2-1.6. həqiqi hərbi xidmətdə, daxili işlər, fövqəladə hallar və ədliyyə orqanlarının kadrları tərkibində qalmaqla hərbi və xüsusi rütbə nəzərdə tutulmayan digər dövlət orqanlarında, müəssisə və təşkilatlarda işə başladıqları gündən son günədək olan dövr;

2-1.7. hərbi və xüsusi rütbəli şəxslərin qanunsuz tutulma, həbsdə olma və cəzaçəkmə müddətləri, eləcə də qeyri-qanuni olaraq xidmətdən (qulluqdan) buraxılması (kənarlaşdırılması) ilə əlaqədar işləmədiyi (xidmət etmədiyi) müddət;

2-1.8. döyüş şəraitində döyüş əməliyyatlarında iştirak dövründə, habelə Əfqanıstanda əsgəri borcunu yerinə yetirərkən əsirlikdə, mühasirədə olma müddəti və "Hərbi qulluqçuların statusu haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə uyğun olaraq, hərbi qulluqçu əsirlikdə olarkən, habelə bitərəf ölkələrdə tərk-silah edilib nəzarət altında saxlandıqları dövrdə hərbi andı pozmamış və Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan cinayətləri törətməmişdirsə, həmin dövrlər;

2-1.9. hərbi və xüsusi rütbəli şəxslərə pensiya təyin olunduqdan sonra bu Qaydaların 1-ci hissəsində nəzərdə tutulan orqanlara yenidən hərbi xidmətə qəbul edilmiş və xidmətdən buraxılmış əmək pensiyaçılarının həmin orqanlarda Qanunun 9.6-cı maddəsinin tələbləri nəzərə alınmaqla xidmət müddəti;

2-1.10. ədliyyə orqanlarının penitensiar və tibb xidmətlərinin əməkdaşlarına pensiya təyin edildikdə, penitensiar müəssisələrdə və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində mülki işçi qismində işlədikləri müddət;

2-1.11. ədliyyə və miqrasiya orqanlarına qulluğa qəbul edilmiş şəxslərin hüquq-mühafizə orqanlarının fəaliyyətinin əlaqələndirilməsi, qanunvericilik və ya təşkilati təminat ilə bağlı vəzifələrdə işlədikləri müddət;

2-1.12. yüksəkixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 1 iyul tarixli 124 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yüksəkixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası"na uyğun olaraq hesablanmaqla müəyyən edilən dövr;

2-1.13. Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyinə verilənədək onun əməkdaşlarının malik olduqları xidmət dövrü;

2-1.14. zabit heyətinə və xüsusi rütbəli şəxslərə (daxili işlər, fövqəladə hallar və ədliyyə orqanlarında kiçik rəis heyəti və gömrük orqanlarında kiçik heyət istisna olmaqla) Qanunun 9.5.1-ci maddəsinə əsasən əmək pensiyası təyin edilərkən beş ilədək müddət daxilində təhsilin bir ili altı ay sayılmaqla (ən çoxu iki il altı ay hesablanmaqla) hərbi və xüsusi rütbə nəzərdə tutulan vəzifələrə qəbul edilməzdən əvvəl mülki ali (qiyabi və axşam təhsilalma formalarında təhsil dövrü daxil olmaqla), habelə hərbi hazırlıq silsilə və bölmələri olan orta ixtisas təhsil müəssisələrində təhsil dövrü.

**Qeyd.** Həmin şəxslər bilavasitə mülki ali təhsil və xüsusi hərbi ixtisaslar üzrə vətəndaşların hazırlığını keçirən təhsil müəssisələrində təhsilini başa vurmadan xüsusi təyinatlı ali təhsil müəssisələrinə təhsilin davamı üçün qəbul edilmişlərsə, qeyd olunan təhsil müəssisələrindəki təhsil müddəti eyni şərtlərlə xidmət müddətinə daxil edilir.

2-1.15. Ali kateqoriya dövlət orqanlarından işdən çıxan və sonradan daxili işlər orqanlarında xidmətlərini davam etdirən əməkdaşlar üçün həmin orqanlarda işlədiyi dövr.

2-2. Hərbi və xüsusi rütbəli şəxslərə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası təyin olunması üçün aşağıdakı dövrlər xidmət müddətinə güzəştli şərtlərlə aid edilir:

2-2.1. xidmətin bir ayı iki ay sayılmaqla:

2-2.1.1. döyüş şəraitində döyüş əməliyyatlarında alınan xəsarət (yaralanma, travma, kontuziya) və ya xəstəlik nəticəsində müalicə müəssisələrində fasiləsiz olma müddəti;

2-2.1.2. respublikanın yüksək dağ yerlərində dəniz səviyyəsindən 2500 metr və daha çox hündürlükdə xidmət müddəti;

2-2.1.3. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyən etdiyi şərtlərlə reaktiv, turbovintli və turbovallı aviasiyada uçuş işində xidmət müddəti;

2-2.1.4. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, habelə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyənləşdirdiyi şərtlərlə su altında və barokameralarda yüksək təzyiq şəraitində qalmaqla iş aparan dalğıc vəzifələrində xidmət müddəti.

2-2.2. xidmətin bir ayı ayyarım sayılmaqla:

2-2.2.1. müvafiq dövlət orqanlarının və qurumlarının rəhbərlərinin təqdimatı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi vəzifə siyahısı üzrə hərbi qulluqçuların ayrı-ayrı kateqoriyalarının, daxili işlər və ədliyyə orqanlarının xüsusi və ya hərbi rütbəli şəxslərinin xidmət dövrü;

2-2.2.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi siyahı üzrə iqlim şəraiti xüsusilə ağır olan yerlərdə xidmət dövrü;

2-2.2.3. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin və Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin müəyyən etdiyi vəzifə siyahısı və şərtlər üzrə həmin orqanların (qurumların) xüsusi təyinatlı dəstələrində və digər hərbi birləşmələrində (struktur bölmələrində) xidmət müddəti;

2-2.2.4. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin müəyyən etdiyi şərtlərlə:

2-2.2.4.1. paraşütlə tullanma ilə bağlı bütün növ vəzifələrdə xidmət müddəti;

2-2.2.4.2. sualtı qayıqlarda (qurğularda, aparatlarda) onların sırada olduğu dövrdə, minatutan gəmilərdə döyüş minalarını tutma dövründə xidmət müddəti;

2-2.2.4.3. porşen mühərrikli təyyarələrdə və helikopterlərdə uçuş işində xidmət müddəti;

2-2.2.5. sırada olan, bilavasitə Azərbaycan Respublikasının dövlət sərhədlərinin mühafizəsini, müdafiəsini və toxunulmazlığını həyata keçirən sərhəd gəmilərində və katerlərində xidmət müddəti;

2-2.2.6. sərhəd mühafizə orqanlarının Azərbaycan Respublikasının dövlət sərhədinin bilavasitə mühafizəsini və müdafiəsini həyata keçirən əsas bölmələrində (sərhəd zastavası, sərhəd komendantlığı, sərhəd nəzarəti bölməsi (məntəqəsi), sərhəd gəmisi (kateri), radiotexniki post, sahil nəzarəti bölməsi (məntəqəsi), sərhəd hava gəmisi) və dövlət sərhədində onlara bərabər tutulan bölmələrdə (sərhəd döyüş məntəqələrində, texniki nəzarət postlarında, nəzarət radiostansiyalarında) xidmət müddəti;

2-2.2.7. bütün ad və ixtisaslardan olan dalğıc vəzifələrində xidmət müddəti (bu Qaydanın 2-2.1.4-cü yarımbəndində göstərilən dalğıclar istisna olmaqla);

2-2.2.8. respublikanın yüksək dağ yerlərində dəniz səviyyəsindən 1000 metrdən 2500 metrədək hündürlükdə xidmət müddəti;

2-2.2.9. cəmiyyətə zidd kütləvi təzahürlərlə bağlı tətbiq edilən fövqəladə vəziyyət zamanı ictimai asayişi və dövlət təhlükəsizliyini qoruma vəzifələrinin yerinə yetirildiyi müddət.

2-2.3. Döyüş şəraitində döyüş əməliyyatlarında iştirak edənlərin bir xidmət günü iki xidmət günü (1992-ci il yanvarın 1-dən 2004-cü il sentyabrın 13-dək olan dövrlər, habelə həmin dövrlərdə alınan yaralar, kontuziyalar və ya xəstəliklər nəticəsində müalicə müəssisələrində olma müddəti bir xidmət günü üç xidmət günü) kimi hesablanır. Döyüş şəraitində döyüş əməliyyatlarında iştirak edənlərin bir xidmət gününün iki xidmət günü kimi hesablanması Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin qərarı əsasında həyata keçirilir və qəbul olunmuş qərar barədə aidiyyəti orqanlar məlumatlandırılırlar. Bu halda həmin qərarda döyüş şəraitinin davam etdiyi müddət göstərilməlidir.

2-2.4. Bilavasitə cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində xidmət edən (işləyən) əməkdaşların xidmət müddəti 3 iş günü 4 iş günü kimi, yoluxucu xəstəliyi olan məhkumların saxlanması və müalicəsi üçün nəzərdə tutulmuş müalicə müəssisələrində və cəzaçəkmə müəssisələrində (cəzaçəkmə müəssisələrinin şöbələrində) xidmət edən (işləyən) əməkdaşların xidmət müddəti isə 2 iş günü 3 iş günü kimi hesablanır.

2-2.5. Terrorçuluğa qarşı mübarizəni bilavasitə həyata keçirən bölmələrdə xidmət müddəti 1 xidmət günü 2 xidmət günü kimi, terror əleyhinə aparılan əməliyyatlarda iştirak müddəti isə 1 xidmət günü 3 xidmət günü kimi hesablanır.

2-2.6. Bu Qaydalarda nəzərdə tutulmayan hallarda xidmət dövrləri ayrı-ayrı hüquqi aktlar əsasında güzəştli şərtlərlə müəyyənləşdirilir.

**Qeyd.** Güzəştli şərtlər müəyyən edilmiş vəzifələrdə (ərazilərdə) xidmət müddətinin güzəştli qaydada sayılması müvafiq əmrlərə əsasən həyata keçirilir. Güzəşt müəyyən edilmiş vəzifələrin müvəqqəti icrasına buraxılmış hərbi qulluqçulara və xüsusi rütbəli şəxslərə bu vəzifələrin icrası ilə bağlı güzəştlər icra etdikləri vəzifədə xidmət şərtlərinə uyğun hesablanır.

2-3. Hərbi və xüsusi rütbəli şəxslərin 1992-ci il yanvarın 1-dək olan xidmət müddətinin (qulluq illərinin) hesablanması "Hərbi qulluqçuların pensiya təminatı haqqında" SSRİ Qanununa, "Uzun müddət xidmətin hesablanması və zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya, müavinət təyin edilməsi və verilməsi qaydası haqqında" SSRİ Nazirlər Sovetinin 1990-cı il 24 iyul tarixli 725 nömrəli və "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə pensiya təyin edilməsi üçün uzun müddət xidmət və bu hərbi qulluqçulara, rəis və sıravi heyətə mənsub şəxslərə və onların ailələrinə müavinətlər haqqında" SSRİ Nazirlər Sovetinin 1990-cı il 15 dekabr tarixli 1290 nömrəli qərarlarına, 2026-cı il 1 yanvar tarixinədək xidmət müddətinin (qulluq illərinin) hesablanması isə "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar və vergi orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1992-ci il 23 noyabr tarixli 631 nömrəli Qərarına uyğun olaraq həyata keçirilir.".

3. Bu Qərar 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasının ərazisində müvəqqəti olma müddətinin uzadılması, müvəqqəti və ya daimi yaşamaq üçün icazənin, o cümlədən iş icazəsinin verilməsi (və ya müddətinin uzadılması) üçün ərizə-anket nümunələrinin təsdiq edilməsi barədə" 2014-cü il 7 fevral tarixli 40 nömrəli və "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nın təsdiq edilməsi barədə" 2016-cı il 14 mart tarixli 124 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 325** **Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 dekabr tarixli 124-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2013-cü il 2 iyul tarixli 713-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 8 iyul tarixli 938 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 29 dekabr tarixli 275 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 7 fevral tarixli 40 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 2, maddə 195 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında müvəqqəti olma müddətinin uzadılması üçün ƏRİZƏ-ANKET"ə aşağıdakı məzmunda 11.6-cı bənd əlavə edilsin:

| |
|---|
| 11.6. Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın mütəxəssis hesab olunduğu sahə üzrə fəaliyyətə başlaması öz iradəsindən asılı olmayan səbəblərdən mümkün olmadıqda<br>(If it is impossible for a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan, to start working in the sphere in which he/she is considered a specialist due to reasons beyond his/her will) |

1.2. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ƏRİZƏ-ANKET"də aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. 10-1-ci hissə aşağıdakı redaksiyada verilsin:

<table>
<tr><td rowspan="3">10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)<br><br>(Period selected for consideration of your current application (failure to obtain the outcome of the application in time does not affect the amount of the state fee to be paid for the selected period)</td><td>15 (on beş) iş günü<br>(15 (fifteen) working days)<br>□</td><td>20 (iyirmi) iş günü<br>(20 (twenty) working days)<br>□</td></tr>
<tr><td colspan="2">Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə<br>(In relation to issuance and extension of temporary residence permits in the territory of the Republic of Azerbaijan to highly skilled migrants, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan, their children under the age of 23 and other family members)</td></tr>
<tr><td>10 (on) iş günü<br>(10 (ten) working days)<br>□□</td><td>15 (on beş) iş günü<br>(15 (fifteen) working days)<br>□</td></tr>
</table>

1.2.2. 11.4-1-ci bəndə "mütəxəssis" sözündən sonra "və ya Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrant" sözləri, dördüncü halda "Azerbaijan Republic" sözlərindən sonra "or a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan" sözləri əlavə edilsin və həmin bənddə "A specialist" sözləri "If he/she is a specialist" sözləri ilə əvəz edilsin;

1.3. həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq icazəsinin verilməsi (müddətinin uzadılması) üçün ƏRİZƏ-ANKET"in 10-1-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

<table>
<tr><td>10-1. Hazırkı müraciətinizə baxılması üçün seçdiyiniz müddət (müraciətin nəticəsinin vaxtında əldə olunmaması seçilmiş müddətə görə ödənilməsi nəzərdə tutulan dövlət rüsumunun məbləğinə təsir göstərmir)</td><td>35 (otuz beş) gün<br>□</td><td>40 (qırx) gün<br>□</td><td>50 (əlli) gün<br>□</td><td>60 (altmış) gün<br>□</td></tr>
<tr><td rowspan="2"></td><td colspan="4">Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantlara, onların 23 yaşına çatmamış övladlarına və digər ailə üzvlərinə Azərbaycan Respublikasının ərazisində daimi yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə</td></tr>
<tr><td>25 (iyirmi beş) gün<br>□</td><td>30 (otuz) gün<br>□</td><td>40 (qırx) gün<br>□</td><td>50 (əlli) gün<br>□</td></tr>
</table>

1.4. həmin Qərarla təsdiq edilmiş 4 nömrəli əlavə - "Azərbaycan Respublikasının ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə iş icazəsinin verilməsi (müddətin uzadılması) üçün ƏRİZƏ-ANKET"in 3-1-ci hissəsində "iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə 2023-cü il yanvarın 1-dən 5 (beş) il müddətinə" sözləri "2023-cü il yanvarın 1-dən 5 (beş) il müddətinə, habelə Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın ərinə (arvadına) və 23 yaşına çatmamış övladlarına iş icazəsinin verilməsinə və müddətinin uzadılmasına münasibətdə" sözləri ilə əvəz edilsin və həmin hissəyə "January 1, 2023" sözlərindən sonra ", as well as for a husband (wife) and children under the age of 23 of a highly skilled migrant, as provided for in Article 3.0.10-1 of the Migration Code of the Republic of Azerbaijan" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 124 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 790 (Cild I); 2024, № 11, maddə 1265) ilə təsdiq edilmiş "Əmək miqrasiyası kvotasının müəyyən edilməsi Qaydası"nın 1.2-ci bəndinə və 1.6-cı bəndinin birinci cümləsinə "cəlb edilənlər" sözlərindən sonra ", habelə Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin 3.0.10-1-ci maddəsində nəzərdə tutulan yüksəkixtisaslı miqrantın əri (arvadı) və 23 yaşına çatmamış övladları" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

## "Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin işçilərinin xidməti geyim formaları nümunələrinin, fərqləndirmə nişanlarının təsviri və onların daşınması Qaydası"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 326** **Bakı şəhəri, 30 oktyabr 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 fevral tarixli 341 nömrəli Fərmanının 5.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxsin işçilərinin xidməti geyim formaları nümunələrinin, fərqləndirmə nişanlarının təsviri və onların daşınması Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycanın xarici siyasətinin uğurları



## Azərbaycanın təşəbbüsləri sülh gündəliyini irəli aparır

**Geostrateji mövqedə yerləşən Cənubi Qafqaz hər zaman xarici güc dairələrinin marağında olub. Bu bölgədə daim münaqişə, müharibə olmasında maraqlı tərəflərin olduğu danılmazdır. Çünki sülh və sabitlik olmayan yeri təsir dairəsində saxlamaq, orada mövqelərini möhkəmləndirmək bəzi qüvvələr üçün daha asan olur.**

Düz üç onillik boyu Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinin dalana dirənməsi də belə məkrli niyyətlərin region üçün ağır nəticəsi idi. Buna görə idi ki, nə bu münaqişənin həll edilməsi üçün missiyalandırılan ATƏT-in keçmiş Minsk qrupu, nə də digər qərəzli Qərb dairələri iki ölkə arasında konstruktiv dialoqa töhfə vermir, işğalçını beynəlxalq hüququn tələb və normalarına uyğun məsuliyyətə cəlb etməyi düşünmürdülər. Digər yandan münaqişənin hərb yolu ilə həllini mümkünsüz variant kimi təlqin etməyə çalışırdılar. Bu qeyri-müəyyən vəziyyət Azərbaycan ərazilərinin düz 30 il ərzində işğal altında qalmasına gətirib çıxardı.

Həmin dövr ərzində bölgədə gərginlik bitmədi, sülh istiqamətində bir arpa boyu belə yol alınmadı. Ta ki 44 günlük savaş nəticəsində Azərbaycan illərdir Qordi düyününə çevrilmiş Qarabağ münaqişəsinə birdəfəlik son qoyana qədər. Ölkəmiz Vətən müharibəsindəki parlaq zəfərlə həlli imkansız görünən işləri həyata keçirdi. Cənubi Qafqazda yeni reallıqlar formalaşdırdı, sülh üçün parlaq səhifələr açdı.

### Qətiyyətli siyasətin nəticəsi

Vətən müharibəsindən dərhal sonra rəsmi Bakı barış üçün lazım olan əməli addımları atmağa başladı, iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması üçün İrəvana beynəlxalq hüququn normalarına cavab verən 5 prinsip təqdim etdi. Ancaq həmin vaxt Ermənistan sülh sazişinin mətninə "Dağlıq Qarabağ" məsələsini daxil etmək istəyirdi deyə, 2024-cü ilə qədər tərəflər arasında müsbət istiqamətdə irəliləyişlərə nail olunmadı. Prosesə qərəzli Qərb dairələrinin müdaxiləsi isə normallaşmadan daha çox münaqişənin yenidən qızışdırılmasına xidmət edirdi. Bu, destruktivlik nümayiş etdirən Fransanın nümunəsində də aydın müşahidə olunurdu.

Parisin siyasi təxribatı ucbatından Azərbaycanın 5 oktyabr 2023-cü ildə keçirilən Qranada görüşündə iştirakdan imtina etməsini hər kəs yaxşı xatırlayır.

2023-cü ildə Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri sayəsində suverenliyini təmin edən ölkəmiz erməni separatizminin kökünü kəsdi və Qərb dairələrinin regiona təsir gücünü yox elədi. Bununla iki ölkə arasında sülh üçün tarixi şans yarandı. Düzdür, bundan sonra da Ermənistan davamlı olaraq xarici himayədarlarından silah, siyasi dəstək alaraq revanşa həvəsləndirilirdi. Ancaq Azərbaycanın milli maraqlarının təmini istiqamətində yürütdüyü qətiyyətli siyasət Ermənistan üzərindən bölgəyə yerləşərək buranı müharibə ocağına çevirmək istəyən xarici təsir güclərinin planlarını pozdu, İrəvana sülhdən başqa çıxış yolu qoymadı.

Bakının dönməz və qətiyyətli siyasəti sayəsində Azərbaycan-Ermənistan normallaşma prosesi 2024-cü ilin əvvəlindən etibarən müsbət yönə istiqamət aldı. Əldə edilən uğurlardan biri Ermənistan və Azərbaycanın vasitəçilərə lüzum görmədən dialoqlara başlaması oldu və bunun sayəsində müəyyən razılaşmalar əldə edildi. Sərhədlərin delimitasiyası və demarkasiyası prosesinə start verilməsi, sərhəd dirəklərinin quraşdırılmasına başlanılması, Qazax rayonunun kəndlərinin qaytarılması kimi əməli addımlar atıldı. Ardınca iki ölkə arasında sülh sazişi layihəsinin mətni ətrafında danışıqlar prosesi yekunlaşdı.

Bu ilin 10 iyul tarixində Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşü siyasi əhəmiyyəti, sülhə verdiyi töhfəsi ilə yadda qaldı. Adıçəkilən görüşdə iki ölkə arasında sülh və normallaşma istiqamətində reallaşdırılacaq məsələlərlə bağlı müzakirələr aparıldı, razılaşmalar əldə edildi.

Mühüm nəticələri ilə diqqət çəkən Əbu-Dabi görüşü 8 avqust tarixli Vaşinqton zirvəsi üçün vacib təməl yaratdı.

### Tələblər ləngidilmədən yerinə yetirilməlidir

Həmin tarixdə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın iştirakı ilə Ermənistan-Azərbaycan arasında Birgə Bəyannamənin imzalanması, vacib razılaşmaların əldə edilməsi bölgədə de-fakto sülhün təmin olunması anlamına gəlir. Dövlət rəhbərlərinin iştirakı ilə Azərbaycan və Ermənistan XİN rəhbərləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb. Vurğulayaq ki, sülh mətni hesab olunan bu sənəd Bakının irəli sürdüyü şərtlər əsasında hazırlanıb. Ağ Evdə Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılığın əldə olunması Cənubi Qafqaza inkişaf və əməkdaşlıq üçün parlaq gələcək vəd edir.

Avqustun 8-də Prezident İlham Əliyev Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsi zamanı bildirdi ki, bu nəqliyyat marşrutu - qısaltması TRIPP kimi səslənən "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" daha bir tarixi nailiyyət olacaq: "Amma yenə də daha əvvəl qeyd etdiyim kimi, vaxt itirməməliyik. Biz bu işlərlə mümkün qədər tez məşğul olmalıyıq. Birləşmiş Ştatlar bu marşrutu idarə edəcək və ümidvaram ki, regiondakı bütün xalqların xeyrinə bu əlaqə xətlərini qurmaq üçün həmin mühüm vəzifələri öz üzərinə götürəcək investorlar tapılacaq".

Məhz Azərbaycanın liderliyi ilə yürüdülən normallaşma prosesinin, sülh gündəliyinə sadiqliyinin nəticəsidir ki, Cənubi Qafqazda uzunmüddətli barış, inkişaf, qarşılıqlı əlaqələr və tərəqqi üçün şərait yaranıb. Onilliklər boyu adı münaqişə ocağı kimi hallanan, silah səsləri səngiməyən bölgə indi barış, əməkdaşlıq ünvanı kimi adından söz etdirir. İki ölkə arasında heç bir vasitəçiyə ehtiyac görülmədən dialoqların aparılması, razılaşmalar əldə edilməsi, etimad quruculuğu tədbirlərinin görülməsi vacib məqamlardır.

Normallaşmaya aparan yolda İrəvanın sülh gündəliyinin tələblərini necə və nə zaman yerinə yetirməsi də vacib əhəmiyyət daşıyır. Çünki Prezident İlham Əliyevin təbirincə desək, Ermənistanın yerinə yetirəcəyi ev tapşırıqları var.

Bunlardan birincisi Ermənistan konstitusiyasında ediləcək dəyişiklikdir. Məlumdur ki, 8 avqust tarixində Vaşinqtonda sülh müqaviləsinin imzalanmamasının yeganə səbəbi Ermənistan konstitusiyasının preambula hissəsində Azərbaycana qarşı ərazi iddialarının yer almasıdır. Konstitusiyada dəyişiklik ediləndən sonra sülh sazişinin imzalanması üçün heç bir maneə qalmayacaq. Buna görə də Ermənistan qəbul etdiyi sülh gündəliyinin tələblərini sözdə ifadə etdiyi kimi, əməldə də yerinə yetirməkdə yubanmamalıdır. Əks təqdirdə bu, Cənubi Qafqazda sülh prosesinin ləngiməsinə səbəb olar. Bu isə qətiyyən arzuolunan ssenari deyil və nəticəsi elə İrəvanın özü üçün pis olar. Çünki hərtərəfli böhran yaşayan Ermənistanın qurtuluş yolunun sülhdən keçməsi gerçəkliyi göz önündədir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Cənubi Qafqazda de-fakto sülh hökm sürməkdədir

## Yekun barış müqaviləsi ilə bağlı texniki mərhələlər bitib

**Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 28-də Zəngilan rayonunun Məmmədbəyli və Ağalı kəndlərinin sakinləri ilə görüşü zamanı verdiyi mesajlar, xüsusən bu bölgənin çox önəmli nəqliyyat mərkəzlərindən birinə çevriləcəyini bəyan etməsi, əslində, mütləq hərbi-siyasi zəfərimizin ardınca həyata keçirilən məqsədyönlü siyasətin uğurunun göstəricisidir. Belə ki, çoxsaylı maneələrlə qarşılaşdığımız ikili standartlara baxmayaraq, Azərbaycan Prezident İlham Əliyevin qətiyyəti ilə özünün geosiyasi mövqelərindən nəinki geri çəkilmədi, üstəlik, zəfərlərin nəticələrini diplomatik qələbələrlə daha da möhkəmləndirdi, yaranan yeni reallığın qlobal miqyasda qəbullanmasına nail oldu.**



Milli Məclisin deputatı Bəhruz Məhərrəmov qəzetimizə açıqlamasında bildirib ki, dünya birliyi Azərbaycanın işğal və təcavüzə hərbi-siyasi yolla son qoyduğu status-kvonun alternativsiz olduğunu bu bölgəni Orta dəhlizin vacib seqmenti kimi qəbul etməklə göstərmiş oldu: "Məhz bu reallıq fonunda dövlət başçımızın Zəngilandan da ifadə etdiyi kimi: "Zəngəzur dəhlizi həm Araz dəhlizi buradan keçəcək. Ona görə bu rayonun, bu bölgənin çox gözəl gələcəyi olacaq. Necə ki bütün Qarabağın, Şərqi Zəngəzurun gələcəyi çox parlaq olacaq". Əlbəttə, bu, bölgə üçün yeni mərhələ hesab olunmalıdır.

Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında paraflanmış sazişin 10-cu maddəsi ilə tərəflər müxtəlif sahələrdə, o cümlədən tranzit, nəqliyyat istiqamətləri üzrə razılaşmaları mümkün hesab edir. Sənədin preambulasında da ifadə olunduğu kimi, Azərbaycan və Ermənistan bu məsələdə, o cümlədən digər strateji istiqamətlərdə bölgədə ədalətli, hərtərəfli və davamlı sülhün təsis edilməsinin təcili zərurətini anlayaraq razılığa gəliblər. Həm Bakı, həm də İrəvanda hesab olunur ki, Azərbaycanın hərbi-siyasi zəfərləri ilə yaranan və bölgəyə ədalətli, hərtərəfli, davamlı sülh vəd edən və buna de-fakto nail olan geosiyasi situasiyada ümumi işə və xalqların rifahına dövlətlərarası münasibətlərin təsis edilməsi yolu ilə töhfə vermək, o cümlədən iki dövlət arasında mehriban qonşuluq münasibətlərini bərqərar etməklə nail olmaq mümkündür".

Deputat vurğulayıb ki, Azərbaycan hər zaman ümumbəşəri dəyərlərə sadiq qalaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi özünün ali niyyətlərindən biri kimi bəyan edib. Dövlətimiz özünün Konstitusiyasında başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd etdiyini, başqa dövlətlərlə münasibətlərini hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurmağı arzu etdiyini təsbit edir.

B.Məhərrəmov qeyd edib ki, Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğal dövründən bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırması və ilk belə tranzit yük kimi Qazaxıstan taxılının Ermənistana daşınması Prezident İlham Əliyevin qazaxıstanlı həmkarı ilə Astanada mətbuata birgə bəyanatında da ifadə etdiyi kimi, Azərbaycanla Ermənistan arasında sülh artıq kağız üzərində deyil, həm də praktikada olduğunun yaxşı göstəricisi kimi qiymətləndirilməlidir: "Azərbaycanın müvafiq iradə nümayişinə qədər Ermənistan birmənalı şəkildə İran və Gürcüstan üzərindən heç bir ciddi perspektiv vəd etməyən və normal standartlarda ehtiva olunmayan çıxışlar istisna olmaqla, dalan dövlət statusunda idi. Bunun kökündə Ermənistanda dövlət səviyyəsində həyata keçirilən işğal və təcavüz siyasəti, həmçinin beynəlxalq hüququn ümumtanınmış normalarında əksini tapan prinsiplərin kobud pozuntusu ilə Azərbaycanın beynəlxalq hüquqla tanınan ərazilərində Ermənistanın bilavasitə dəstəyi və iştirakı ilə separatizmin mövcudluğu dayanırdı. Azərbaycan ötən 30 illik dövrdə Ermənistana daim bu reallıqları başa salmağa çalışır, sülh yolu ilə işğal və təcavüzə son qoyaraq ölkəmizin iştirakçısı və hərəkətverici qüvvəsi kimi çıxış etdiyi qlobal miqyaslı layihələrdən faydalanmağa çağırırdı. Lakin uydurma ideyaların və mifik siyasi ideologiyanın əsirinə çevrilmiş Ermənistan dövləti və erməni cəmiyyəti heç bir real siyasi, hüquqi və hərbi əsas olmadan işğalı əbədi davam etdirəcəklərinə inanır, işğal altında saxladıqları torpaqların onlara regional əməkdaşlıqdan daha çox fayda gətirəcəyini düşünürdülər. Amma Azərbaycan dövlətinin və şəxsən cənab İlham Əliyevin həyata keçirdiyi strateji addımlar zamanla çoxsaylı dəstəkçilərinə baxmayaraq, Ermənistanın Cənubi Qafqaz siyasətinin iflasa məhkum olduğunu ortaya qoydu".

Deputat bildirib ki, Azərbaycanın xarici siyasəti dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu surətdə faydalı əlaqələr qurmağa, inkişaf etdirməyə, bu əlaqələrdən həm Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirmək üçün səmərəli istifadə etmək məqsədini daşıyır. Lakin qeyd etdiyimiz kimi, ötən dövr ərzində işğal və təcavüz faktoru Cənubi Qafqazda əməkdaşlıq mühitinin tam bərqərar olunmasına imkan vermirdi. Düzdür, Azərbaycan regionda sülh və sabitliyə olan ümidini heç zaman itirmirdi, hələ 2000-ci il dekabrın 29-da Ulu Öndər Heydər Əliyevin Yeni Əsr və III minillik münasibətilə Azərbaycan xalqına müraciətində açıq formada ifadə olunurdu ki, Azərbaycan Respublikası münaqişənin sülh yolu ilə həll olunmasını mümkün hesab edir və bundan sonra da bu istiqamətdə səylərini davam etdirmək əzmindədir. Azərbaycan dövlətinin xarici siyasətinin başlıca prinsipləri beynəlxalq hüquq normaları ilə tənzimlənən dövlətlərarası münasibətlərə hörmət etməkdən, dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmaqdan, bütün mübahisəli məsələləri sülh və danışıqlar yolu ilə həll etməkdən, qarşılıqlı surətdə faydalı iqtisadi, elmi, mədəni əməkdaşlıq yaratmaqdan, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətləri aradan qaldırmaqdan ibarət olmalıdır. Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində böyük hərbi-siyasi zəfərlərinin ardınca tutduğu mövqe, yəni qalib olmasına baxmayaraq, hər hansı eskalasiyaya yol verməməsi, bütün güc və imkanlarını sülh uğrunda səfərbər etməsi ölkəmizin 25 il sonra da öz mövqeyini qəti formada qoruduğunu göstərdi.

Deputatın sözlərinə görə, Azərbaycan hərbi-siyasi zəfərlərinin ardınca yaranan yeni geosiyasi reallıqda sülh və etimad quruculuğu prosesinə xüsusi diqqət ayıraraq dayanıqlı sülhə və əməkdaşlığa regionda təhlükəsizliyin təməl prinsipi kimi baxdığını bəyan edib. Rəsmi Bakı haqlı olaraq hesab edir ki, sülh prosesinin təməlində birmənalı şəkildə uzlaşdırılmış maraqlar dayanmalıdır, xüsusən iqtisadi maraqların qarşılıqlı uyğunlaşdırıldığı bir şəraitdə əldə edilə biləcək sülh gözləndiyindən daha uğurlu nəticələrə gətirib çıxara bilər. Azərbaycanın ərazisindən Ermənistana yüklərin tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırmaq qərarı bu mənada Bakının mövqeyində nə qədər səmimi olduğunu bir daha nümayiş etdirdi. Beləliklə, Ermənistan özünün işğal və təcavüz siyasəti nəticəsində dirəndiyi dalan və öz günahı ucbatından məruz qaldığı iqtisadi blokadadan çıxmaq istiqamətində tarixi şans əldə etdi. Ermənistanın Baş naziri Nikol Paşinyanın müvafiq mövzuda hökumətin iclasındakı çıxışından da göründüyü kimi, İrəvan cənab İlham Əliyevin onlara verdiyi şansın əhəmiyyətini dərk etməyə başlayıb və başa düşür ki, bu ölkə işğal, təcavüzlə yox, ikitərəfli münasibətlərdə beynəlxalq hüquq və Azərbaycanla Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında saziş rəhbər tutulmaqla qurulacaq əlaqələrdən fayda götürə bilər. "Nikol Paşinyanın Tbilisidə "İpək yolu" beynəlxalq konfransında Prezident İlham Əliyevə bu qərarına görə minnətdarlığını ifadə etməsi, o cümlədən öz minnətdarlığını İrəvanda hökumətin iclasında da səsləndirməsi onu deməyə əsas verir ki, Azərbaycan Prezidentinin memarı olduğu yeni konfiqurasiyada tərəflər artıq əməkdaşlıq yoluna qədəm qoya bilib. Aydındır ki, özünün beynəlxalq məsuliyyətini dərk edən, sülhə və sabitliyə sədaqətinə şübhə edilməyən Azərbaycan bu prosesdə maraq və mənafeləri tam təmin olunmuş subyekt qismində çıxış edir. İlk növbədə siyasi faydalardan başlasaq, birmənalı şəkildə beynəlxalq ekspertlərin də ifadə etdiyi kimi, Prezident İlham Əliyevin Ermənistana tranzit məhdudiyyətlərinin aradan qaldırılması üzrə atdığı addım epizodik deyil, bir strategiyadır və bu strategiya regionun gələcəyinin yalnız etimad və qarşılıqlı əməkdaşlıqla mümkün olduğunu praktik şəkildə ortaya qoyur. Ermənistana münasibətdə məhdudiyyətləri aradan qaldırmaqla cənab İlham Əliyev həm də onu göstərdi ki, sülh yalnız nəzəri hissədə sənədlər, protokollar və müqavilələr üzərində bərqərar ola bilər. Regiona və insanlara faydalı olan tərəf isə sülhə praktik səviyyədə nail olmaqdır ki, Azərbaycan da bu istiqamətdə kifayət qədər aydın iradə ortaya qoya bildi", - deyə deputat əlavə edib.

B.Məhərrəmov deyib ki, Prezident İlham Əliyev bu qərarı ilə bir zamanlar ölkəmizin ərazisini işğal və təcavüzə məruz qoyan Ermənistanı Cənubi Qafqaz kimi mürəkkəb bir bölgədə regional tərəfdaşa çevirmək istiqamətində qətiyyətli gedişləri ilə beynəlxalq hüquqa zidd niyyətlərdən arındırmaqla və mürəkkəb bir bölgədə həmin dövlətlə əməkdaşlıq mühiti qurulması istiqamətində real fəaliyyətlə, sözün əsl mənasında, Azərbaycan nümunəsi ortaya qoydu. Tərəflər Vaşinqtonda analoji istiqamətdə niyyətlərini nümayiş etdirdi və bu istiqamətdə iradənin ifadə olunduğu iki ölkə arasında sülhün və dövlətlərarası münasiblərin bərqərar edilməsi sahəsində Sazişin paraflanmasını həyata keçirdilər. Lakin sirr deyil ki, bu gün qlobal təcrübədə bir çox sənəd imzasının mürəkkəbi qurumadan lazımsız kağız parçasına çevrilir. Prezident İlham Əliyev Vaşinqton Sazişinin praktik müstəvidə realizəsi istiqamətində qətiyyət göstərməklə həm də onsuz da ciddi nüfuz itkisinə məruz qalan beynəlxalq hüquqa olan münasibətin müsbət istiqamətdə dəyişməsinə təkan verdi.

Deputat qeyd edib ki, beləliklə, Azərbaycan və Ermənistan arasındakı ritorika, o cümlədən sərhədlərin delimitasiya və demarkasiyası istiqamətində həyata keçirilən danışıqlar, aidiyyəti komissiyaların birgə fəaliyyəti regionda yekun sülh istiqamətində vahid iradənin mövcudluğu barədə düşünməyə əsas verir. Lakin Ermənistanın hələ də konstitusion islahatlara getməməsi, yəni Konstitusiyada Azərbaycanın ərazi bütövlüyünə təhdid yaradan müddəaların qüvvəsini qoruması narahatlıq doğurmaqdadır: "Amma dəyişməyən bir reallıq var ki, Azərbaycanın hərbi-siyasi yolla yaratdığı yeni reallıq və müharibədən dərhal sonra məhz cənab İlham Əliyevin təşəbbüsü ilə başlanan sülh prosesi nəticəsində bu gün faktiki olaraq Cənubi Qafqazda de-fakto sülh hökm sürməkdədir. Ermənistanın Baş naziri Nikol Paşinyanın özünün də dəfələrlə ifadə etdiyi kimi, Azərbaycan-Ermənistan şərti sərhədlərində və birbaşa təmas xəttində artıq hərbçilər ölmür, silah səsi gəlmir. Bu il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin iştirakı ilə imzaladığı sənədlər, o cümlədən sülhün və dövlətlərarası münasibətlərin bərqərar edilməsinə dair sazişin paraflanması bu reallıqların rəsmiləşdirilməsi istiqamətində son nöqtə rolunu oynaması ilə start verilən vətəndaş cəmiyyəti səviyyəsində qarşılıqlı səfərlər, sülh və etimad mühitinə yönəlik çağırışlar məhz bu reallıqların üzərində dayanıb. Bu isə o deməkdir ki, Azərbaycan və Ermənistan yekun sülh müqaviləsinin imzalanması istiqamətində bütün texniki və digər köməkçi mərhələləri arxada qoyub. Sülhün rəsmən bərqərar olunması üçün isə Azərbaycan tərəfi haqlı olaraq Ermənistanın konstitusion səviyyədə Azərbaycana münasibətdə ərazi iddialarından imtina etməsini gözləyir, bunun yolu isə qərb qonşumuzun islahatlara getməsindən keçir. Biz sülhün ən qısa zamanda bərqərar olunmasını arzu edirik, lakin prosesdən asılı da deyilik. Cənab İlham Əliyevin Zəngilandan da ifadə etdiyi kimi - "Biz düşməni torpaqlarımızdan qovmuşuq. İndi də doğma torpağımızda qurub-yaradırıq, şərait yaradırıq, binalar, məscidlər tikirik, tarixi abidələri bərpa edirik. Yəni biz - bu torpaqların sahibləri qayıtmışıq və burada əbədi yaşayacağıq".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## 1 Noyabr Kənd Təsərrüfatı İşçiləri Günüdür



# Aqrar sektora Prezident dəstəyi

## Bu dəstək hesabına Azərbaycan özünün ərzaq təhlükəsizliyini təmin edib

**Noyabrın 1-i ölkəmizdə Kənd təsərrüfatı işçiləri günü kimi qeyd edilir. Prezident İlham Əliyev bu barədə sərəncamı 2008-ci il oktyabrın 9-da imzalayıb və bu, Azərbaycan kəndinə, Azərbaycan kəndlisinə dövlət qayğısının, diqqətinin çoxsaylı təzahürlərindən yalnız biridir.**

"Torpağı qorumursansa əkib becərməyə, əkib-becərmirsənsə qorumağa dəyməz". Ulularımızın bu qənaəti - torpağı əkib becərməyin onu qorumaq qədər vacib və müqəddəs olduğu barədə söylədikləri əsrlərin sınağından keçərək günümüzədək gəlib çatmışdır. Bu gün torpağı əkib-becərənlərin, ləziz nemətlər yetişdirərək çörək təknəmizə bərəkət, süfrəmizə bolluq bəxş edənlərin bayramıdır. Dünyanı düşündürən qlobal problemlərdən birinin məhz əhalinin ərzaq məhsulları ilə təminatı olduğu bir dövrdə bu məsələ daha böyük əhəmiyyət kəsb edir.

Bu mövzuda danışarkən respublikanın regionlarının inkişafına yönəldilən dörd sosial-iqtisadi inkişaf proqramını (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci və 2019-2023-cü illər) xatırlatmaq kifayətdir. Bu proqramlar, eləcə də görülən digər ardıcıl tədbirlər nəticəsində kənd təsərrüfatı sahəsində mühüm irəliləyişlər əldə edilib. Bununla yanaşı, kənd adamının sosial vəziyyəti də yaxşı mənada dəyişib, onun məşğulluq problemi həll olunub.

Bu gün Azərbaycanın kənd təsərrüfatı işçisi öz torpağının, öz taleyinin sahibidir və dövlətin prioritet kimi qarşıya qoyduğu mühüm vəzifələri yerinə yetirir. Vurğulayaq ki, MDB məkanında ilk torpaq islahatı ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Kənd təsərrüfatının inkişafına yönəldilən tədbirlər Prezident İlham Əliyev tərəfindən davam etdirilərək geniş vüsət almışdır. Belə ki, unudulmuş, tənəzzülə uğramış bir çox kənd təsərrüfatı sahələri artıq dirçəldilib, onlara keçmiş şöhrəti qaytarılıb. Dövlətimizin başçısı son illər pambıqçılığın, üzümçülüyün, tütünçülüyün, baramaçılığın, fındıqçılığın, çəltikçiliyin, meyvəçiliyin və s. inkişaf etdirilməsi məqsədilə mühüm sənədlər imzalayıb. Prezidentin bu istiqamətdə bölgələrdə keçirdiyi müşavirələr, kəndli və fermerlərlə, aqrar sahənin mütəxəssisləri ilə görüşlər, verdiyi tapşırıq və tövsiyələr öz müsbət nəticəsini göstərməkdədir.

Uzun müddət işğal altında qalmış və 5 il əvvəl azad edilmiş torpaqlarımız da artıq dirçəlir. Hazırda Qarabağda və Şərqi Zəngəzurda kənd təsərrüfatı "Böyük Qayıdışa Dair I Dövlət Proqramı" çərçivəsində bərpa olunur və inkişaf etdirilir. Burada infrastrukturun yenidən qurulması, "ağıllı kənd" layihələrinin həyata keçirilməsi və regionun iqtisadi dinamikasının artırılması əsas prioritetlər sırasındadır.

Məlumdur ki, bu ərazilər yalnız strateji-coğrafi mövqeyi ilə deyil, həm də zəngin təbii sərvətləri ilə seçilir. Bura əsrlər boyu kənd təsərrüfatı mərkəzi olub - məhsuldar torpaqları, bol su ehtiyatları və müxtəlif iqlim şəraiti ilə Azərbaycanın əsas aqrar bölgələrindən birinə çevrilib. İndi bu torpaqlar yenidən dirçəlir və aqrar investisiya üçün böyük fürsətlər təqdim edir.

Bölgənin kənd təsərrüfatı ənənələri də çox qədimdir. Münbit Qarabağ çölləri və Kəlbəcər-Laçın dağlıq zonası kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafı üçün əlverişli şərait yaradır. Tərtər çayı, Bazarçay, Həkəri və digər çaylar əkin sahələrinin suvarılmasını təmin edir. Dağlıq zonalarda heyvandarlığın və arıçılığın, düzənliklərdə isə taxılçılığın, üzümçülüyün, pambıqçılığın və digər sahələrin inkişafına imkan var. Dövlət bu ərazilərdə kənd təsərrüfatının inkişafı üçün investorlara ciddi güzəştlər təqdim edir.

Ölkəmizdə, ümumiyyətlə, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən maliyyə yardımının göstərilməsi təmin edilir. Subsidiyaların ayrılması, güzəştli şərtlərlə gübrələrin verilməsi ilə yanaşı fermerlər üçün güzəştli kredit imkanları da yaradılıb. Onlar həmçinin kənd təsərrüfatı texnikasını güzəştlə əldə edə bilirlər. Bütün bunlar sahənin inkişafına, əməkçilərin rifah halının yüksəldilməsinə və qeyd olunduğu kimi, çox vacib bir məsələnin həllinə - ərzaq təhlükəsizliyinin yaranmasına xidmət edir.

Bu ilin ötən dövründə ölkənin kənd təsərrüfatındakı vəziyyətə nəzər salmaq da yerinə düşər. Belə ki, Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-sentyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 11 milyard 359,8 milyon manat təşkil edib. Bunun da 5 milyard 408 milyon manatı heyvandarlıq, 5 milyard 951,8 milyon manatı bitkiçilik məhsullarının payına düşür.

Kənd təsərrüfatı məhsullarının yığımı davam edir və oktyabr ayının 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 3 milyon 162,3 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,9 faiz çox dənli və dənli-paxlalı bitkilər yığılıb. Eləcə də bağ və bostanlardan 1 milyon 670,5 min ton tərəvəz, 874,8 min ton kartof, 802,3 min ton meyvə və giləmeyvə, 458,9 min ton bostan məhsulları, 164,9 min ton üzüm, 146,6 min ton şəkər çuğunduru, 28,8 min ton dən üçün günəbaxan, 21,1 min ton pambıq, 6,1 min ton tütün, 1119,9 ton yaşıl çay yarpağı toplanıb. Meyvə və giləmeyvə, şəkər çuğunduru, pambıq, tütün və yaşıl çay yarpağı istehsalı keçən ilin eyni dövrü ilə müqayisədə çox olub.

Sözügedən dövrdə ölkədə ümumi sahəsi 1,6 min hektar olan 2994 vahid istixana fəaliyyət göstərib. Yanvar-sentyabr aylarında yetişdirilən əsas məhsullardan olan pomidor istehsalı 141,7 min ton, xiyar istehsalı 7,1 min ton olub.

Heyvandarlıqda isə vəziyyət belədir: 2025-ci ilin yanvar-sentyabr aylarında quş əti də daxil olmaqla diri çəkidə 434,3 min ton ət, 1 milyon 699,1 min ton süd, 1 milyard 789,4 milyon yumurta, 14,6 min ton yun, 186,6 ton barama istehsal olub, 2024-cü ilin müvafiq dövrünə nisbətən yumurta istehsalı 1,9 faiz, ət istehsalı 1,2 faiz, süd istehsalı 0,3 faiz artıb.

Cari ilin yanvar-sentyabr aylarında quşçuluq müəssisələrində diri çəkidə 56,4 min ton quş əti və 880,3 milyon yumurta istehsal olunub. Ümumilikdə bu müəssisələr üzrə cəmi quşların sayı 10 milyon 541,9 min baş təşkil edib, hər yumurtlayan toyuqdan orta hesabla 180 yumurta alınıb.

Diqqət mərkəzində olan məsələlərdən biri də idxaldan asılılığı azaltmaq, ixrac potensialını yüksəltməkdir. Bu sahədə də irəliləyiş var. Hazırda Azərbaycan onlarla ölkəyə müxtəlif kənd təsərrüfatı məhsulları ixrac edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Leyla Əliyeva xeyriyyəçilik fəaliyyəti ilə böyük sevgi qazanıb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın xeyirxahlıq missiyası milli-mənəvi dəyərlərə hörmət və humanizm prinsiplərinə əsaslanır. O, bu missiyanı ailəsindən miras aldığı zəngin mənəvi dəyərlər əsasında davam etdirir və cəmiyyətin bir çox sahələrinə əvəzsiz töhfələr verir. Leyla xanımın tez-tez üz tutduğu əsas ünvanlar psixonevroloji sosial xidmət müəssisəsi, sağlamlıq imkanları məhdud və valideyn himayəsindən məhrum uşaqlar üçün xüsusi internat məktəbi, uşaq evləri, Milli Onkologiya Mərkəzinin Uşaq Klinikası, Talassemiya, Daun mərkəzləri və digər müəssisələrdir. Leyla Əliyeva hər ziyarəti, hər gedişi ilə həmin ünvanlardakı uşaqlara bir dünya sevinc bəxş edir. Onların tezliklə sağalmaları üçün əlindən gələni əsirgəmir.**



Üz tutduğu, ziyarət etdiyi ünvanlardan da göründüyü kimi, Leyla Əliyevanın ən başlıca və əsas fəaliyyəti cəmiyyət həyatının köməyə ehtiyacı olan istiqamətlərini əhatə edir. Ən ümdəsi isə, ali və müqəddəs ideallara, məqsədlərə söykənir. "İşimizlə, ümidlə, inamla, nəzakətlə və sevgi ilə biz bütün problemləri həll edə və daha parlaq gələcək qura bilərik" - Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya aid olan bu dəyərli fikirlər həm də onun fəaliyyətinin əsasını, həyatının mənasını və bir növ görəcəyi işlərin proqramını ifadə edir. Leyla xanımın böyük ictimai məzmun daşıyan fəaliyyətinin miqyası, əhatə dairəsi bütün bunlarla məhdudlaşmır, kifayət qədər genişdir və zəngindir.

Xüsusi olaraq qeyd edilməlidir ki, Leyla Əliyevanın hərtərəfli fəaliyyəti, gördüyü işlər, reallaşdırdığı irimiqyaslı layihələr cəmiyyətin sosial sifarişini əhatə edir, necə deyərlər, insanların istəyindən, arzusundan xəbər verir. Elə buna görə də görülən bütün xeyriyyə işləri insanların ürəyinə, qəlbinə yaxın və doğmadır. Hər işində, hər addımında milli-mənəvi dəyərlərimizə hörmət duyulur. Həm yaşlı, həm də gənc nəslə qayğı göstərir, onların diqqətdə saxlanmasını təmin edir.

O, Heydər Əliyev Fondunun vitse-prezidenti kimi insanpərvərlik və humanizm missiyasını uğurla həyata keçirir. Bu keyfiyyətlər onun şəxsi fəaliyyətində də öz əksini tapır. Daim gənc nəsli dəstəkləyir və onların inkişafına töhfə verir, fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradır.

Azərbaycanda xeyriyyəçilik, təhsil, səhiyyə və digər məsələlərlə bağlı böyük layihələrin həyata keçirilməsi, ilk növbədə, birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın və fondun vitse-prezidenti Leyla Əliyevanın adı ilə sıx bağlıdır. Leyla xanım tez-tez sərgilərə də, muzeylərə də gedir, mədəniyyət layihələrinin təqdimat mərasimlərində və başqa mühüm tədbirlərdə iştirak edir. Bu günlərdə İçərişəhərdəki "Q Gallery"də "Əcdadlar" sərgisi açılıb. Sərgi Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə ölkəmizin paytaxtında keçirilən "Art Weekend"ə daxil edilən ekspozisiyalardan ibarətdir. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva sərgi ilə tanış olublar. Sərgidə Azərbaycan sənətinin müasir nümayəndələri - Faiq Əhməd, Rəşad Ələkbərov, Orxan Hüseynov və Fərid Rəsulov öz yaradıcılıqları vasitəsilə keçmişin izlərini bu günə gətirərək, ziyarətçilərə milli ruhun dərin qatlarını yenidən hiss etdirməyə, çatdırmağa çalışır.

Heydər Əliyev Fondunun xeyirxahlıq missiyası sərhəd tanımır. Həyatımızın, cəmiyyətimizin bütün sahələrini əhatə edir. Başqa sahələrlə yanaşı, təhsil ocaqlarının daha səmərəli fəaliyyəti üçün də müvafiq yardımlar göstərilir. Xalqımız bu günlərdə fondun daha bir xeyriyyəçilik missiyasına şahidlik etdi. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Mədəniyyət Nazirliyinin tabeliyində olan musiqi məktəbləri üçün yeni musiqi alətləri alınıb. Layihənin həyata keçirilməsində əsas məqsəd musiqi məktəblərinin inkişafına, gənc istedadların keyfiyyətli təhsil almalarına və musiqi mədəniyyətinin gələcək nəsillərə ötürülməsinə təkan vermək, əlverişli şərait yaratmaqdır.

Heydər Əliyev Mərkəzində keçirilən təqdimat mərasimində layihə çərçivəsində alınan musiqi alətləri ziyarətçilər üçün nümayiş etdirilib. Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva tədbirdə iştirak ediblər. Məlumat üçün qeyd edək ki, layihə çərçivəsində Bakı ilə yanaşı, regionlardakı bir sıra musiqi məktəbləri üçün 11 adda 70-dən çox musiqi aləti alınıb. Bunların sırasında tar, kamança, nağara kimi milli alətlərlə yanaşı, skripka, violonçel, royal, pianino və digərləri də var.

Heydər Əliyev Fondunun uğurla həyata keçirdiyi bu missiyanı insanlar ürəkdən alqışlayırlar. Çünki bu tədbirlər həm də mədəniyyət və incəsənət xadimlərinə böyük diqqət və qayğı göstərmək deməkdir. Belə xeyirxah addımlar gənc istedadların inkişafına, ortaya çıxmasına da böyük imkanlar yaradır. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan bu layihənin yalnız paytaxtda deyil, regionlardakı musiqi məktəblərində də təhsilin inkişafına dəstək baxımından çox əhəmiyyətli olduğu xüsusilə qeyd edilməlidir.

Oktyabrın 30-da uşaq evlərində tərbiyə alan 10-13 yaş arası oğlan və qızlardan ibarət komandalar arasında növbəti "Dostluq Kuboku" minifutbol turniri keçirilib. Böyük marağa səbəb olan turnir uşaqların fiziki və psixoloji inkişafına dəstək vermək, onlarda komanda ruhunu, özünəinamı və sosial bacarıqları gücləndirmək məqsədi daşıyıb. Maraqlı anlarla yadda qalan turniri Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və Alena Əliyeva da izləyiblər.

Turnirin unudulmaz anlarından biri oyunları izləyən Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyevanın bütün komandaları dəstəkləmələri, uşaqlarla səmimi söhbət etmələri və onlarla şəkillər çəkdirmələri olub. Onlar iştirakçılara uğurlar arzulayaraq, belə tədbirlərin gələcəkdə daha geniş miqyasda və mütəmadi şəkildə keçirilməsinin vacibliyini bir daha vurğulayıblar. İki yaş qrupu üzrə qalib komandalar diplom, medal və kubokla mükafatlandırılıblar.

Bu günlərdə Leyla Əliyeva Qəbələ rayonunda "Gənc arıçı" layihəsinin iştirakçılarından biri olan, Mıxlıqovaq kəndində yaşayan Qafarovlar ailəsinin də qonağı olub. Görüş zamanı Leyla xanım ailə üzvləri ilə mehribancasına söhbət edib, onların layihə çərçivəsində qazandıqları təcrübə və gələcək planları ilə yaxından maraqlanıb. Ailə üzvləri bu layihənin həyata keçirilməsi təşəbbüsünə, eləcə də Leyla Əliyevanın şəxsən ziyarətinə görə səmimi minnətdarlıqlarını xoş sözlərlə ifadə ediblər.

Bütün bunlar onu göstərir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva cəmiyyət həyatının bütün sahələrinə diqqət və qayğı ilə yanaşır.

Leyla Əliyeva Qəbələ şəhərində yerləşən Heydər Əliyev Konqres Mərkəzində "Hirkan" sənədli filminin təqdimat mərasimində də iştirak edib. Film IDEA İctimai Birliyinin "Azərbaycanın 12 möcüzəsi" adlı xüsusi layihəsi çərçivəsində hazırlanan növbəti ekran işidir. Böyük tamaşaçı sevgisi qazanan film Azərbaycanın təbiət incilərindən biri olan Hirkan Milli Parkına həsr olunub. "Hirkan" sənədli filmi ölkəmizin nadir flora və faunasına malik bu təbiət guşəsinin unikal ekosistemini və onun qorunması istiqamətində həyata keçirilən fəaliyyətləri özündə əks etdirir.

Layihənin təşəbbüskarı olan Leyla Əliyevanın rəhbərliyi ilə bu günədək ümumilikdə səkkiz sənədli film hazırlanıb. Bu filmlər sosial şəbəkələrdə milyonlarla izləyici tərəfindən maraqla qarşılanaraq ölkəmizin zəngin təbiətinin təbliğinə mühüm töhfə verib. "Azərbaycanın 12 möcüzəsi" adlanan layihə çərçivəsində əhatə olunan milli parklar ölkəmizin müxtəlif coğrafi bölgələrini və ekosistemlərini əks etdirir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə uşaq və yeniyetmələrin sağlamlığı, təhsili, hərtərəfli inkişafı üçün böyük layihələrin uğurla həyata keçirilməsi davam edir. Leyla xanımın milli-mənəvi dəyərlərimizə əsaslanan çoxşaxəli xeyriyyəçilik fəaliyyəti həmişə cəmiyyət tərəfindən yüksək qiymətləndirilir, Azərbaycan xalqının sevgi və məhəbbətini qazanır.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycan artıq regional nəqliyyat-logistika sisteminin əsas dayaqlarından birinə çevrilib

**Azərbaycan və Türkiyə Zəngəzur dəhlizini (TRIPP) Orta dəhlizin qlobal halqasına çevirmək istiqamətində addımları sürətləndirir. Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlunun son bəyanatında qeyd etdiyi kimi, Bakı-Tbilisi-Qars dəmir yolunun tam potensialının reallaşdırılması və Azərbaycan-Naxçıvan xəttinin bərpası Orta dəhlizin buraxılış gücünü əhəmiyyətli dərəcədə artıracaq. Bu, təkcə regionun deyil, həm də Avrasiya məkanının logistika xəritəsini dəyişəcək strateji təşəbbüsdür. Rəsmi Ankaranın hədəfi Çinlə Avropa arasında ticarət prosesini Rusiya ərazisindən keçmədən təmin etmək, Türk Dövlətləri Təşkilatını isə qlobal nəqliyyat-kommunikasiya mərkəzinə çevirməkdir.**



Mövzu ilə bağlı AZƏRTAC-a açıqlama verən türk ekspert Engin Özer Cənubi Qafqazda nəqliyyat-kommunikasiya layihələrinin perspektivləri və regional sabitliyin gələcəyi ilə bağlı fikirlərini bölüşüb.

Onun sözlərinə görə, Rusiyadan Avropaya yükdaşımaların həyata keçirilməsi üçün nəzərdə tutulan marşrut layihəsinin dayandırılması Türkiyə ilə deyil, Ukraynada davam edən müharibə ilə bağlıdır. Bu layihənin əsas tərəfdaşlarından biri olan Belarus tətbiq edilən sanksiyalar səbəbindən Avropa tərəfindən qəbul edilmədi. Eyni zamanda Ukrayna bu layihədə Odessa istiqamətində mühüm mövqe tutur. Lakin Ukraynada davam edən müharibə fonunda yaxın illərdə bu layihənin reallaşması ehtimalı çox zəif görünür.

Engin Özer qeyd edib ki, mövcud vəziyyətdə Orta dəhliz layihəsi ön plana çıxır. "Hazırda həm Ukraynadakı müharibə, həm də Yəməndə hücumlar Çindən gələn gəmilərə dolayısı ilə təsir edir. Bu səbəbdən daşınma xərcləri ciddi şəkildə artır. Buna görə də Avropa ilə Çin arasında təcili avtomobil yolu əlaqəsinin yaradılması vacibdir. Məhz bu mərhələdə Türkiyə Orta dəhliz təşəbbüsü ilə əsas rol oynayır", - deyə o vurğulayıb.

Ekspertin fikrincə, Orta dəhliz layihəsinin reallaşması Cənubi Qafqazda davamlı sabitliyin bərqərar olmasına zəmin yaradacaq. "Bu layihə həyata keçərsə, bölgədə uzunmüddətli sabitliyin təmin olunacağına heç bir şübhə yoxdur. Regional gərginliklər əvəzinə, qarşılıqlı faydalı əməkdaşlıq və iqtisadi inkişaf meyilləri güclənəcək. Bütün region ölkələrinin qarşıdurmadan uzaq, dayanıqlı inkişaf və qarşılıqlı əlaqələrə yönələcəyi gözlənilir. Bu isə Cənubi Qafqazın strateji əhəmiyyətini böyük dərəcədə artıracaq" - deyən Engin Özer diqqətə çatdırıb ki, Azərbaycan bu prosesdə öz geostrateji mövqeyini daha da möhkəmləndirəcək.

"Azərbaycan artıq regional nəqliyyat-logistika sisteminin əsas dayaqlarından birinə çevrilib. Orta dəhliz layihəsinin tam reallaşması ilə ölkənin geosiyasi və iqtisadi çəkisi daha da artacaq. Buna görə də bölgədə yaxın perspektivdə gərginlik gözləmək məntiqli deyil", - deyə o əlavə edib.

Politoloq, həmçinin qeyd edib ki, Ermənistanın Azərbaycan və Türkiyə ilə münasibətləri normallaşdırmaq cəhdlərinin arxasında da məhz Orta dəhliz layihəsi dayanır.

"Ermənistan bu prosesdə iştirak etmək niyyətini göstərir və bu istiqamətdə atdığı addımlar davam edəcək. Əgər bu layihə reallaşarsa, Ermənistan üçün də yeni imkanlar açılacaq. Xüsusilə Türkiyə ilə sərhədlərin açılması və iqtisadi əlaqələrin bərpası Ermənistanın Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirə bilər. Bu isə ölkənin inkişafı baxımından strateji əhəmiyyət daşıyır", - deyə Engin Özer vurğulayıb.

O əlavə edib ki, Orta Dəhliz layihəsinin həyata keçməsi təkcə Azərbaycan və Türkiyə üçün deyil, həm də Ermənistan üçün sabitlik və qarşılıqlı etimadın güclənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

"Bundan sonra Cənubi Qafqazda qarşıdurmadan deyil, ortaq layihələrdən, inkişafdan və sabitlikdən danışacağıq. Ermənistanın bu prosesə müsbət yanaşması isə regional inteqrasiyanı daha da sürətləndirəcək", - deyə ekspert fikrini tamamlayıb.

# "ART Weekend" çərçivəsində "Püstə: canlı irs" performansı təqdim edilib









**Oktyabrın 31-də "Bakıya Uçuş. İncəsənət həftəsonu. Gələcəyimizi İNDİ Duy" ("Fly to Baku. Art Weekend. Sense the Future NOW") layihəsinin daha bir tədbiri - "Püstə: canlı irs" təqdimatı Maqsud İbrahimbəyov Yaradıcılıq Mərkəzində keçirilib.**

AZƏRTAC xəbər verir ki, əvvəlcə Maqsud İbrahimbəyovun "Püstə ağacı" hekayəsi əsasında hazırlanan monotamaşa təqdim edilib.

Oxucunu duyğular, xatirələr və nostalji dünyasına aparan əsərin mərkəzində keçmişlə bu gün arasındakı ayrılmaz bağlılığın rəmzinə çevrilən püstə ağacı dayanır.

Maqsud İbrahimbəyovun ən təsirli əsərlərindən biri olan bu hekayədə hadisələr bir uşağın gözü ilə nəql olunur. Bu monotamaşada müharibə illərindəki uşaqlığını xatırlayan artıq böyümüş oğlan obrazını isə Azərbaycanın Əməkdar artisti Şövqi Hüseynov canlandırıb.

Tamaşaçılar onunla birlikdə mərkəzində iri bir püstə ağacı bitən kiçik Bakı həyətinə səyahət ediblər. Sonra "Azərxalça" ASC-nin toxuduğu triptix - üç xalçadan ibarət əsər təqdim olunub. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva kompozisiya ilə tanış olub.

Bildirilib ki, kompozisiya çətinliklərə baxmayaraq həyatın yenidən başlaya və bar verə biləcəyini göstərir. Su isə triptixdə üç hissəni birləşdirən mühüm rəmz kimi verilir. O, böyümə və inkişaf üçün zəruri həyat gücünün rəmzi olaraq həyatın dövri xarakterini vurğulayır.

Daha sonra Leyla Əliyevanın iştirakı ilə Mərkəzin terrasında püstə ağacı əkilib.

Qeyd edək ki, bu mərasim suya, həyata və təbiətə qayğının rəmzi kimi təcəssüm olunur. Püstə - keçmişlə gələcəyin, sənətlə ekologiyanın, insanla torpağın vəhdəti kimi qələmə verilir.

Daha sonra IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri İçərişəhərdə təşkil olunmuş Zeytun Festivalını ziyarət edib. Ölkəmizin ayrı-ayrı bölgələrindən gətirilən zeytun və zeytun məhsulları ilə tanış olub. Festivala gələn şəhərimizin qonaqları və turistlərlə səmimi söhbət atmosferində keçən ziyarətdə xatirə şəkilləri də çəkilib.

# Heydər Əliyev Mərkəzində "ART Weekend" festivalının rəsmi açılışı olub

## Açılışda "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva iştirak ediblər







**Oktyabrın 31-də Heydər Əliyev Mərkəzində "ART Weekend" festivalının rəsmi açılışı olub. Heydər Əliyev Fondu və IDEA İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə paytaxtımızda başlayan "ART Weekend" bir sıra ölkələrdən incəsənət və mədəniyyət xadimləri, kuratorları bir araya gətirib.**

AZƏRTAC xəbər verir ki, rəsmi açılışda "Art Weekend" layihəsinin təşəbbüskarı, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Arzu Əliyeva və Alena Əliyeva, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, Milli Məclisin Sədri Sahibə Qafarova, mədəniyyət naziri Adil Kərimli və digər qonaqlar iştirak ediblər.

Festival günlərində paytaxtın müxtəlif sərgi salonları, muzeylər, təhsil ocaqları və ayrı-ayrı tarixi-mədəni məkanlarında sərgi, görüş, performanslar təşkil olunur. Festivalın Heydər Əliyev Mərkəzindəki açılış tədbirində isə "Mənim dənizlərim, mənim okeanlarım" ("My Seas, My Oceans") sərgisinin və məşhur kolumbiyalı rəssam-heykəltaraş Fernando Boteronun əsərlərindən ibarət "Bədii formanın təntənəsi" ("The Triumph of Form") sərgisinin təqdimatı keçirilib.

Açılış tədbirində qonaqlar "DanceAbility Azərbaycan" tərəfindən hazırlanan rəqsi də izləyiblər. "DanceAbility Azərbaycan" İnklüziv Performans Şirkətinin hədəfi ustad dərsləri, müəllim təlim proqramları, əlilliyi olan və olmayan şəxslərin birgə keçirdiyi rəqs və digər nümayişləri vasitəsilə inklüziv cəmiyyətin inkişafına töhfə verməkdən ibarətdir.





İncəsənət festivalının açılışında çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov bildirib ki, bu günlərdə Azərbaycanda, xüsusilə də Bakı şəhərində çox mötəbər tədbirlər keçirilir. Məhz Leyla Əliyevanın təşəbbüsü ilə ilk dəfədir ki, böyük "Art Weekend" Bakıda keçirilir. A.Ələkbərov qeyd edib ki, festival çərçivəsində paytaxtda 40-a yaxın incəsənət tədbirinin keçirilməsi nəzərdə tutulur: "Çox sevindirici haldır ki, incəsənətsevərlər bu gün burada bir araya gəliblər. Dünyanın müxtəlif ölkələrindən Bakıya gələn qonaqları salamlayıram. Fürsətdən istifadə edərək, Bakı sakinlərini, qonaqlarımızı bu gözəl tədbirləri izləməyə dəvət edirik. Hazırda Heydər Əliyev Mərkəzində ənənəvi sərgilər, konsertlər və konfranslar keçirilir. Bu gün isə məşhur kolumbiyalı rəssam-heykəltaraş Fernando Boteronun əsərləri burada nümayiş etdirilir".

"Bədii formanın təntənəsi" sərgisinin kuratoru, Fernando Boteronun qızı Lina Botero çıxışında atasının yaradıcılığının mahiyyətinin, rəssamlıq və heykəltaraşlığın paralel inkişafı ilə bağlı olduğunu deyib: "Atam bir tərəfdən rəngkarlıqla məşğul olur, digər tərəfdən barmaqlarının gücü ilə formalar yaradaraq heykəllər ərsəyə gətirirdi. Bu gün onun monumental heykəlləri dünyanın bir çox böyük şəhərində sərgilənir. Əsərləri ən məşhur məkanlarda - Parisdəki "Champs-Ylysyes" prospektində, Nyu Yorkdakı "Park Avenue"da nümayiş etdirilib. Ötən il, 2024-cü ildə isə Roma şəhərinin tarixi mərkəzində onun növbəti heykəltaraşlıq sərgisi açılıb".

Lina Botero vurğulayıb ki, bu sərgilərdə təqdim olunan əsərlər Fernando Boteronun özünəməxsus, sadə, lakin dərin mənalı yaradıcılıq üslubunu əks etdirir.

Azərbaycan Rəssamlar İttifaqının sədri, Xalq rəssamı Fərhad Xəlilov bildirib ki, Azərbaycan rəssamlarının hər zaman Latın Amerikası sənətinə böyük marağı olub. "Həm onun təsviri sənətinə, həm ədəbiyyatına, həm də musiqisinə dərin maraq göstərilib. Bir çox rəssamımız Latın Amerikası sənətkarlarının yaradıcılığından ilham alıblar", - deyə Fərhad Xəlilov diqqətə çatdırıb.

Sonra Fernando Boteronun əsərlərindən ibarət "Bədii formanın təntənəsi" sərgisi ilə tanışlıq olub.

İnsanları və heyvanları, eləcə də müxtəlif fiqurları nəhəng ölçüdə təqdim etməklə "Boterismo" üslubunu yaratmış Fernando Boteronun Heydər Əliyev Mərkəzində nümayiş olunan "Bədii formanın təntənəsi" adlı fərdi sərgisində rəssamın 100-dən çox məşhur əsəri təqdim edilir.

Sərgidəki əsərlər kolumbiyalı rəssamın 70 il ərzində yaratdığı sənət nümunələridir. Müəllifin işləri parlaqlığı, həyat doluluğu ilə seçilir. Ümumilikdə Botero 3000-dən çox rəsm əsəri, 200-dən çox heykəltaraşlıq nümunəsi yaradıb.

Fernando Botero dünyada geniş auditoriyanın diqqətini özünə çəkə bilib.

30-dan çox ölkədə 100-dək muzey sərgisi keçirilən, milyonlarla izləyicisi olan rəssam 20 yaşında Kolumbiyanı tərk etsə də, vətəni hər zaman onun ilham mənbəyi olub. Özünü "kolumbiyalıların ən kolumbiyalısı" adlandıran Boteronun əsərlərindəki mərkəzi mövzu uşaqlıq xatirələridir: Latın Amerikası həyatı, natürmortlar, korrida. Bununla da o, İtaliya intibahının universal ruhunu Latın Amerikasının həyat enerjisi ilə birləşdirib.

Heydər Əliyev Mərkəzində təqdim olunan "Mənim dənizlərim, mənim okeanlarım" sərgisinin əsas mövzusu isə "Art Weekend" layihəsi ilə birbaşa əlaqəlidir. Festivalın əsas elementi kimi davamlılığın, yenilənmənin və ortaq yaddaşın rəmzi olan su seçilib. "Mənim dənizlərim, mənim okeanlarım" sərgisinin əsas məqsədi də su ehtiyatlarının qorunmasına çağırışdır. Sərgi iqlim dəyişikliyi, qlobal istiləşmə və həssas ekosistemlər dövründə planetimizin ən həyati ehtiyatlarından biri - su mənbələrinin qorunmasının vacibliyini vurğulamaq məqsədi daşıyır. 2022-ci ildə Cenevrədəki debütü ilə su ekosisteminin mühafizəsinə dair qlobal dialoqun əsasını qoyan sərgi Bakıda ilk dəfədir təşkil edilir.

Sərgidə müasir rəssamların çirklənmə və həddindən artıq balıq ovundan tutmuş bioloji müxtəlifliyin itirilməsinə qədər bir sıra qlobal problemləri əks etdirən əsərlər təqdim olunur. Həmin əsərlərdə su həyatın, yenilənmənin və təsəvvürün mənbəyi kimi təsvir edilir. Rəssam və heykəltaraşlar, multimedia və çoxsahəli sənətçilər su, iqlim dəyişikliyi, davamlılıq və dəniz biomüxtəlifliyi mövzularına müraciət edərək bədii işlər vasitəsilə dənizlərimizin, okeanlarımızın və ortaq gələcəyimizin qorunmasına çağırış edirlər.

Yer kürəsinin 70 faizindən çoxunu təşkil edən su ehtiyatları, dəniz və okeanların ekoloji sistemi getdikcə daha çox mənfi təsirə məruz qalır. Sərgi isə incəsənət vasitəsilə həmin təsirlərin azaldılması və qarşısının alınması, ümumiyyətlə qlobal məsələlərə diqqətin artırılması ismarışını dünyaya ötürür.

İtalyan heykəltaraş Cüzeppe Karta jurnalistlərə açıqlamasında "Art Weekend"in beynəlxalq səviyyəli tədbir olduğunu və layihənin şəhərin müxtəlif məkanlarında keçirildiyini bildirib. O qeyd edib ki, bu gün XX əsrin ən görkəmli heykəltaraşlarından olan Fernando Boteronun sərgisi açılır: "Düşünürəm ki, bir çox insan hələ onun yaradıcılığı ilə tanış deyil və bu sərgi onlar üçün maraqlı bir kəşf olacaq".

İncəsənət müşaviri və kurator Viola Raikhel Azərbaycanda olduğu üçün böyük qürur hissi keçirdiyini bildirib: "Çox maraqlı bir həftəsonu yaşayırıq. Burada, Heydər Əliyev Mərkəzində bu qədər qeyri-adi sənət nümunələrini görmək məni tamamilə heyrətləndirir".

Nyu Yorkdan gələn naşir Sem Moris Azərbaycana ilk səfəri olduğunu bildirib. O qeyd edib ki, Bakının möhtəşəm memarlığı, ləziz təamları və zəngin mədəniyyəti var. "Zənnimcə, incəsənətdən dünyaya vacib mesajların yayılması üçün bir platforma kimi istifadə zəruridir. Təkrar emal, aşağı karbon izinə sahib olmaq və okean həyatına hörmətlə yanaşmaq okeanları təmiz saxlamaq səylərinə böyük töhfə verə bilər", - deyə Sem Moris diqqətə çatdırıb.

İncəsənət tarixçisi və kuratoru Zelfira Tequlova bildirib ki, XX əsrin ən görkəmli rəssamlarından olan Fernando Boteronun sərgisinin açılışı Bakıda "Art Weekend"ə təsadüf edir. "Onun sənəti hər kəsə xitab edir, çünki böyük pozitiv enerji daşıyır, həm milli Kolumbiya ənənələrinə, həm də Meksikanın muralist məktəbinə bağlıdır. Eyni zamanda Avropa klassik incəsənətinin dərin biliklərini özündə əks etdirir. Botero bütün bu təsirləri bənzərsiz şəkildə birləşdirir. Belə bir sənət hadisəsini Bakıda yaşamaq böyük sevincdir", - deyə Zelfira Tequlova diqqətə çatdırıb.

Qeyd edək ki, paytaxtımızda ilk dəfə təşkil olunan "ART Weekend" festivalı noyabrın 2-dək davam edəcək.

# ŞANLI ZƏFƏRDƏN BÖYÜK QAYIDIŞA



# Böyük qayıdış: torpaqla qürurun qovuşması

**Qarabağ və Şərqi Zəngəzur torpaqları azad olunandan sonra didərgin düşmüşlər odocağı sönmüş doğma yurdlarına dönərək sübut etdilər ki, vətən sevgisi külü soyumuş ocaqları yenidən alovlandırmağa qadirdir.**

Ona görə də bu qayıdışa yalnız torpağa deyil, köklərə, tarixə dönüş, gələcəyə üz tutmaq da demək olar. Hər daşında bir xatirə, hər ağacında bir nəfəs, hər övladının qəlbində bir ümid gizlənən Qarabağ torpaqlarına üz tutmaq Böyük qayıdışdır. Bu qayıdış ruhun torpağa qovuşması, doğma yurda yolçuluqdur. Böyük qayıdış bir millətin mənəvi dirçəlişinin, illərlə sıxılan duyğuların və azadlığının simvoludur.

Böyük qayıdış təkcə evlərin bərpası, yolların çəkilməsi deyil ki! Yurda dönüş insanların ürəyində 30 il sönməyən bir ümidin gerçəkliyə çevrilməsidir. Bu gerçəklikdə hər tikilən evlə bərabər, bir həyat, bir xatirə, bir gülüş fonunda millətin ruhu yenidən doğulur. Çünki torpaq yalnız üzərində yeridikdə, yaxud da yaşadıqda deyil, seviləndə vətən olur. İnsan həyatında bir yer var ki, nə qədər uzaq olsa da, ruhu daim ora bağlı qalır. Qarabağdan köçən insanların da ürəyi illərlə o torpaqlarda qaldı. Hər bayramda, hər yaz yağışında, hər payız küləyində yaddaş yenidən o yollara qayıdırdı. Bu, özünü tapmaq, öz ruhuna qovuşmaq deməkdir.

İndi isə həmin yollar gerçək qayıdışa aparır. İnsanlar doğma torpaqlara dönərkən sanki iç dünyalarında itirdikləri bir parçanı tapırlar. İndi Böyük qayıdışla bağlı hər tikilən ev, bərpa edilən yol insanların həyatına yeni nəfəs gətirir. Bu qayıdışın dərin mənası ondadır ki, o, xalqın yaddaşını diriltdir. İllərlə boş qalan kəndlərdə indi yenidən uşaq səsləri eşidilir, ağaclar insanların nəfəsi ilə canlanır, ocaqlar tüstülənir. Hər tikilən ev, hər əkilən ağac sanki deyir: "Biz burdayıq, Vətənimiz burdadı". Bu torpaqlarda indi həm keçmişin izləri, həm də gələcəyin addımları var. İnsanların gözündə qəribə bir nur var. O həm sevincin, həm minnətdarlığın, həm də vətənə qayıtmağın işığıdır.

Böyük qayıdış, əslində, insanın içindəki vətəni oyadır. İnsan doğma torpağa qayıdanda onunla birgə iç dünyasında sükunət tapır, köklərinə bağlanır, ruhən yenilənir. Qayıdış həm də birliyin, inamın rəmzidir. Hər ailə, ayrılıqda hər insan bu qayıdışın bir hissəsidir. Çünki vətən yalnız torpaq deyil, o həm də insanların ruhundan, sevgisindən və yaddaşından ibarətdir. Böyük qayıdış bu birliyi yenidən formalaşdırır və göstərir ki, heç bir zaman, heç bir güc bir xalqın yaddaşını silə və ümidini qıra bilməz.

Böyük Qayıdışa dair I Dövlət Proqramı artıq yüzlərlə ailənin həyatına sabitlik, ümid və gələcək gətirib. Bu proqram çərçivəsində tikilən evlər, məktəblər, çəkilən yollar yurd həsrətinə son qoyulmuş insanların həyatının bərpası, yaddaşının dirçəlişi deməkdir. İnsanlar illərlə xəyal etdikləri yurd yerlərinə dönərək, o torpaqlarda yenidən həyat qururlar. Artıq Cəbrayılda, Zəngilanda, Füzulidə uşaqlar məktəb yollarına çıxır, ocaqlar tüstülənir, həyətlərdə gül əkilir. Bu mənzərə təkcə sevinc deyil, həm də dözümün, inamın və xalqın birliyinin simvoludur.

Hər bir kəndin və ailənin yenidən nəfəs alması, ümidlə dolması Prezident İlham Əliyevin 28 oktyabr səfərində daha da aydın görünürdü. Dövlət başçısının Cəbrayıl və Zəngilan rayonlarına səfəri çərçivəsində sakinlərlə görüşü, evlərin açarlarını təqdim etməsi rəsmi mərasimdən çox, insanların xatirələrinə, arzularına qayıdışı və gələcəyə inamı əks etdirirdi. Prezident ilk olaraq Cəbrayıl rayonunun Horovlu kəndinin birinci mərhələsinin açılışında iştirak edərək, mənzillərin açarlarını sakinlərə təqdim edib. Qeyd edək ki, ümumi sahəsi 248 hektar olan Horovlu kəndində 334 fərdi ev tikilib. Mənzillər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi olan su, işıq, qaz, günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Evlərin üzərində Qarabağ xalçalarının ornamentləri həkk edilib.

Məlumdur ki, Zəngilanın Ağalı kəndi Şərqi Zəngəzurda ilk dəfə "ağıllı kənd" konsepsiyası ilə inşa olunub. Burada həyat yalnız müasir texnologiyalarla asanlaşdırılmır, eyni zamanda kənd sakinlərinin rifahı, təhsil və sağlamlıq imkanları da müasir dövrün tələblərinə uyğunlaşdırılır. Burada evlər müasir kommunikasiya sistemləri ilə təchiz olunub, kənd infrastrukturu isə gələcəyin standartlarına uyğun qurulub. Layihə həm sakinlərin rahatlığını təmin edir, həm də bölgənin inkişaf potensialını göstərir. Bu baxımdan Ağalı kəndinin ikinci mərhələsinin tikintisinin başa çatması böyük önəm daşıyır. Prezident İlham Əliyevin Ağalı və Məmmədbəyli kəndlərinin açılışında iştirak etməsi dövlətimizin Böyük qayıdış prosesinə verdiyi yüksək önəmi bir daha nümayiş etdirdi. Ağalı və Məmmədbəyli kəndlərində görülən işlər Böyük qayıdış strategiyasının konkret nəticələrini ortaya qoyur. Belə ki, Ağalı kəndinin ikinci mərhələsində istifadəyə veriləcək evlərin sayı 103-dür. Tikililərin 55-i ikiotaqlı fərdi evlərdən, 3-ü isə üçmərtəbəli, ikibloklu "Townhouse" tipli binalarda yerləşən mənzillərdən ibarətdir. Kənddə bütün evlərə kommunikasiya xətləri çəkilib, yaşayış və qeyri-yaşayış binalarının hamısı qazla təmin edilib, evlərdə kombilər quraşdırılıb, ümumi sahəsi 2 hektardan çox olan park salınıb. Park Ağalı və Məmmədbəyli kəndlərinin sakinləri üçün açıq istirahət və əyləncə zonası kimi fəaliyyət göstərəcək. Məmmədbəylidə də 188 fərdi ev inşa edilib ki, onlardan 39-u iki, 55-i üç, 55-i dörd və 39-u beşotaqlıdır. Evlərdə günəş panelləri quraşdırılıb, onlar su, işıq, qaz, yüksəksürətli internet şəbəkəsi ilə təmin olunub.

Dövlət başçısı sakinlərlə görüşərək onlara mənzillərin açarlarını təqdim etdi, yeni infrastruktur və yaradılmış müasir şəraitlə tanış oldu. Əslində, Prezident İlham Əliyevin səfərləri yalnız rəsmi mərasim deyil, həm də xalqımızın doğma torpaqlara qayıdışının, ümid və gələcəyə inamının canlı təsdiqidir. Məmmədbəyli və Ağalı sakinləri ilə görüş zamanı dövlət başçısı çıxışında Böyük qayıdışın xoş məqamlarını öz sözləri ilə vurğuladı: "Bu gün Böyük qayıdışın növbəti mərhələsidir. Bilirsiniz ki, biz "Böyük qayıdış" proqramının başlanğıcını da Zəngilan rayonunda qoyduq. Birinci kənd - Ağalı kəndində artıq üç il yarımdır ki, insanlar yaşayır və çox gözəl şərait yaradılmışdır və gözəl də saxlanılır. Mən indi Ağalının içi ilə keçdim və yeni binalarla tanış olarkən gördüm ki, bütün həyətyanı sahələr sanki gözəl bir bağa çevrilib. Biz buranı keçmiş köçkünlərə təhvil verəndə qupquru bir yer idi. Necə ki indi Məmmədbəyli kəndində də hələ ki, o qədər də çox ağac yoxdur. Ancaq illər keçdikcə vətəndaşlar özləri qurub-yaradırlar, əkib-becərirlər. Dövlət nə lazımdırsa edib, sizi gözəl şəraitlə təmin edib və əminəm ki, siz burada rahat yaşayacaqsınız. Siz buna layiqsiniz".

Prezident İlham Əliyev keçmiş köçkünlərin evlərinin açarlarını təqdim edərkən sanki uzun illərin ayrılığını "xoş gəlmisiniz" sözləri ilə bitirdi. Çünki hər ailə, hər kənd dövlət başçısının səfərləri fonunda yenidən nəfəs alır, torpaq dirçəlir, həyata yeni ruh gəlir. Böyük qayıdış dövlətin gücünü, xalqın iradəsini və torpaqla insan arasındakı əbədi bağın bərpasını ifadə edir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Zəfərdən ötən 5 il - qürur, birlik və dirçəliş dövrü

**Böyük Zəfərdən beş il ötüb, lakin o günün sevinci, o qələbənin əzəməti xalqımızın yaddaşında və ürəyində eyni təzəliklə yaşayır. Tarixin axarını dəyişən həmin gün - 8 Noyabrda biz millət olaraq bir yumruq kimi birləşdik. O gün səngərdə döyüşən əsgərlərin ürəyindəki inamla evdə dua edən anaların göz yaşında, bayrağımızı sevinc göz yaşları ilə öpən insanların baxışında eyni duyğu vardı - Qələbə sevinci!**

Bu gün o hiss yenə də yaşayır, çünki o Zəfər bizim kimliyimizin, birliyimizin rəmzidir. Zəfərdən sonra Azərbaycanın yeni inkişaf mərhələsi olan bərpa və yenidənqurma dövrü başladı. İndi Qarabağ və Şərqi Zəngəzur torpaqlarında həyat yenidən doğulur: yollar çəkilir, evlər, məktəblər, uşaq bağçaları, körpələr evi, mədəniyyət ocaqları inşa olunur. Bu torpaqlara qayıdan hər bir vətəndaş dövlətin qayğısını, Prezident İlham Əliyevin uzaqgörən siyasətinin bəhrəsini görür.



Cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük qayıdış" proqramı Azərbaycanın ən mühüm dövlət prioritetinə çevrilib. Bu proqram insanların azad edilmiş torpaqlara, tarixə, mədəniyyətə, kimliyə və milli ruha qayıdışıdır. Qarabağ və Şərqi Zəngəzurda aparılan nəhəng quruculuq işləri Azərbaycanın gələcəyə inamla baxdığını, müasir dövlətçilik ideallarını ən yüksək səviyyədə reallaşdırdığını göstərir.

Azad edilmiş torpaqlarda "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında salınan yeni yaşayış məntəqələri, müasir infrastruktur, bərpaolunan enerji layihələri və ekoloji təmizlik prinsipləri həsrətdən çat vermiş torpaqların yenidən doğuluşunu təmin edir. Hər tikilən ev, çəkilən yol, bərpaolunan məscid və məktəb xalqımızın əzmini, dövlətimizin qüdrətini əks etdirir. Qarabağda dalğalanan üçrəngli bayraq artıq sülhün, inkişafın və qürurun simvoluna çevrilib. Bu gün Füzuli, Zəngilan, Laçın, Kəlbəcər, Cəbrayıl kimi rayonlarda həyata keçirilən layihələr Azərbaycanın gücünün, xalq-dövlət birliyinin bariz göstəricisidir. Böyük qayıdış ümummilli ideyanın gerçəkləşməsi, xalqımızın gələcəyə inamının möhkəmlənməsidir. Bu qayıdışla Azərbaycan yalnız dağıdılmış şəhərləri deyil, həm də uzun illərin nisgilini, yaralı xatirələri yenidən işığa, həyata çevirir.

Bu gün Azərbaycan təkcə regionda deyil, beynəlxalq aləmdə qalib, nüfuzlu və söz sahibi olan dövlət kimi tanınır. Cənab Prezident İlham Əliyevin uzaqgörən xarici siyasəti sayəsində ölkəmizin mövqeləri möhkəmlənib, beynəlxalq təşkilatlarla əlaqələr genişlənib. Dünya bir daha gördü ki, Azərbaycan öz haqq işi uğrunda mübarizəni müharibə meydanında olduğu kimi, diplomatiya masasında da ləyaqətlə davam etdirir, regional və qlobal miqyasda sabitliyin, ədalətin və əməkdaşlığın tərəfdarı kimi çıxış edir. Ölkəmiz beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş, sülhün və inkişafın təşəbbüskarı kimi qəbul olunur. Danılmaz faktdır ki, indi Cənubi Qafqazda sülhün və əməkdaşlığın bərqərar olunması məhz Azərbaycanın iradəsindən, ədalətli və ardıcıl siyasətindən asılıdır.

Azərbaycanın səsi artıq dünyanın ən nüfuzlu tribunalarından eşidilir. BMT, Qoşulmama Hərəkatı, Türk Dövlətləri Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı kimi beynəlxalq qurumlarda ölkəmizin təşəbbüsləri dəstəklənir və nümunə kimi göstərilir. Bu, Prezident İlham Əliyevin milli maraqları qətiyyətlə müdafiə edən diplomatiya xəttinin və xalqın dövlət ətrafında birliyinin nəticəsidir. Azərbaycanın qazandığı siyasi, iqtisadi və mənəvi uğurlar sübut edir ki, bu xalq öz taleyini özü müəyyənləşdirir, öz gələcəyini özü qurur.

Zəfərin 5 illiyi sadəcə bir tarixi hadisənin ildönümü deyil, xalqımızın birliyinin, inamının və dövlətinə olan sarsılmaz etimadının bayramıdır. Azərbaycan xalqı həmin qüruru öz qəlbində daşıyır. Çünki bu qələbə hər birimizin əməyinin, duasının və sevgisinin nəticəsidir. Bu qələbə yüz illərlə davam edən ədalət mübarizəmizdə şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, ordumuzun rəşadəti və xalqımızın sarsılmaz iradəsi ilə qazanılmış şanlı bir tarixdir. Zəfər bayramı bizə bir daha xatırladır ki, xalq-dövlət birliyində hər bir məqsəd əlçatandır.

Azərbaycan artıq daha güclü, daha qürurlu və gələcəyə daha inamla baxan bir dövlətdir. Qalib xalqın nümayəndəsi olmaq hər birimiz üçün həm fəxr, həm də məsuliyyətdir. Qarabağda, Şərqi Zəngəzurda bərpa və quruculuq işləri, azad edilmiş torpaqlarda həyatın yenidən canlanması bu Zəfərin əbədiliyinin rəmzidir. Bərpa və yenidənqurma gələcək nəsillərə verilən mesajdır: qalib xalqın torpaqlarında həyat yenidən boy atır, ümidlər hər addımda dirçəlir. Azərbaycan daim güclü, qürurlu və inamlıdır.

Bu gün azad Qarabağ torpaqlarında ucalan bayrağımız şəhidlərimizin ruhunu, xalqımızın şərəfini və dövlətimizin gücünü təcəssüm etdirir. Biz bu Zəfəri şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, xalqımızın səbir və birliyi hesabına qazandıq. Azərbaycan daha güclüdür, daha möhkəmdir. Qarabağ və Şərqi Zəngəzur artıq inkişaf, sülh və tərəqqinin mərkəzidir. Zəfərin qürurunu özündə əks etdirən bu torpaqlarda keçmişin ağrı-acısı unudulmasa da, insanlar xoşbəxt və firavan yaşayırlar. Bu beşillik dövr qalib xalqın sarsılmaz iradəsinin, Zəfərin əbədiliyinin və Azərbaycanın gücünün ən parlaq göstəricisidir. Prezident İlham Əliyevin müdrik siyasəti, xalqın dəstəyi və ordumuzun gücü ilə bu yol davam edir. Zəfərin 5 illiyi tariximizin qızıl səhifəsi, gələcək nəsillərə örnək olan qəhrəmanlıq dastanıdır.

*Zeynəb ƏLİYEVA,*
*Bərdə şəhər 9 saylı körpələr evi-uşaq bağçasının müdiri*

# Ağdamın Xıdırlı kəndində ailələrə mənzillərin açarları təqdim olunub

**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, "Böyük qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə qayıdışı davam edir. Oktyabrın 31-də yola salınan növbəti köç karvanı Ağdam rayonunun Xıdırlı kəndinə çatıb.**



AZƏRTAC xəbər verir ki, bu mərhələdə Xıdırlı kəndində 124 nəfərdən ibarət 24 ailəyə mənzillərin açarları təqdim olunub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

❖ ❖ ❖

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Ağdam rayonunun Xıdırlı kəndinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Doğma yurda qayıdan sakinlər hərtərəfli dövlət qayğısı ilə əhatə olunduqlarına görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkür ediblər. Onlar həmçinin torpaqlarımızı işğaldan azad edən rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını bildirib, bu yolda canlarından keçən şəhidlərimizə rəhmət diləyiblər.



# "Azərbaycan Ordusunun Zəfər yolu" tovuzlu uşaqların gözü ilə

**Tovuzda 8 Noyabr - Zəfər Gününə həsr olunmuş "Azərbaycan Ordusunun Zəfər yolu" adlı rəsm və əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.**

Sərgidə məktəblilər tərəfindən Vətən müharibəsi və qəhrəman Azərbaycan Ordusunun Zəfər yolu mövzusunda çəkilmiş rəsmlər, vətənpərvərlik ruhunu əks etdirən əl işləri - "Şuşa qalası", "Dəmir yumruq", "Xarıbülbül" və digər kompozisiyalar iştirakçıların marağına səbəb olmuşdur.



Tədbir çərçivəsində məktəblilər vətənpərvərlik mövzusunda mahnılar və şeirlər səsləndirmiş, Tovuz Uşaq-Gənclər Şahmat Məktəbinin üzvləri və gənc idmançılar nümunəvi çıxışlar etmişlər.

Gənclərdə vətənpərvərlik ruhunun yüksəldilməsi, milli-mənəvi dəyərlərimizin təbliği və Zəfərin təbliği məqsədilə təşkil olunmuş sərgi iştirakçılarda xoş təəssürat oyatmışdır.

# "Vətən müharibəsi qəhrəmanları ilə bir gün" göygöllü gənclərdə dərin iz buraxdı

**Zəfər Gününün 5-ci ildönümü münasibətilə Göygöl rayonunun Çaylı kəndində "Vətən müharibəsi qəhrəmanları ilə bir gün" adlı vətənpərvərlik mövzusunda tədbir keçirilmişdir.**



Rayon icra hakimiyyəti əməkdaşlarının, təhsil və mədəniyyət işçilərinin, Vətən müharibəsi iştirakçılarının, eləcə də şəhid ailələri və qazilərin iştirakı ilə keçirilən tədbirdə Vətən müharibəsi iştirakçıları döyüş xatirələrindən danışmış, gənclərə vətənə sevgi, cəsarət və birlik çağırışları etmiş, Zəfər Gününün tarixi əhəmiyyəti, Azərbaycan Ordusunun qüdrəti və Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Zəfərdən söz açmışlar.

Sonra şagirdlərin ifasında ədəbi-bədii kompozisiyalar nümayiş olunmuş, şeirlər və mahnılar səsləndirilmişdir. Görüş "44 günlük Zəfər tarixi" adlı videoçarxın nümayişi ilə başa çatmışdır.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

# Birinci Qarabağ müharibəsinin itkin şəhidi Mikayıl Əliyev Xəzər rayonunda torpağa tapşırılıb

**Birinci Qarabağ müharibəsinin itkin şəhidi Mikayıl Atababa oğlu Əliyev oktyabrın 31-də paytaxtın Xəzər rayonunun Zirə qəsəbəsində yerləşən yeni məzarlıqda dəfn olunub.**





AZƏRTAC xəbər verir ki, dəfn mərasimində şəhidin ailə üzvləri, Xəzər Rayon İcra Hakimiyyətinin nümayəndələri, Müdafiə, Daxili İşlər, Fövqəladə Hallar nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin əməkdaşları, Milli Məclisin deputatları, müharibə veteranları, şəhid ailələri və sakinlər iştirak ediblər.

İtkin şəhid yaylım atəşi və hərbi orkestrin müşayiəti ilə Dövlət himnimizin sədaları altında torpağa tapşırılıb. Şəhidin ruhuna dualar oxunub, məzarının üzərinə əklil qoyulub, gül dəstələri düzülüb.

Tabutun büküldüyü Azərbaycanın Dövlət Bayrağı şəhidin yaxınlarına təqdim olunub.

Qeyd edək ki, Birinci Qarabağ müharibəsi şəhidi Mikayıl Əliyev 1968-ci il oktyabrın 31-də paytaxtın Nizami rayonunda anadan olub. O, 1992-ci il fevralın 26-da Xocalı istiqamətində gedən döyüşlərdə itkin düşmüşdü.

# Xocalıda Birinci Qarabağ müharibəsinin iki itkin şəhidi dəfn edilib

**Oktyabrın 31-də Xocalı şəhərində Birinci Qarabağ müharibəsində itkin düşmüş hesab edilən iki şəhid - Çingiz Usub oğlu Hüseynov və Səfər Qarsalan oğlu Qəmbərov torpağa tapşırılıblar.**







Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, hər iki şəhidin nəşi müvəqqəti məskunlaşdıqları rayonlarda keçirilən vida mərasimlərindən sonra Xocalı şəhər Şəhidlər xiyabanında dəfn edilib.

Dəfn mərasimlərində Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəliyinin əməkdaşları, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin nümayəndələri, Xocalı Rayon İcra Hakimiyyətinin rəsmiləri, deputatlar, hüquq-mühafizə orqanlarının əməkdaşları, hərbçilər, şəhidlərin ailə üzvləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, Çingiz Usub oğlu Hüseynov 1955-ci il mayın 4-də Xocalı rayonunda anadan olub. O, 1992-ci il fevralın 26-da Xocalıda gedən döyüşlər zamanı itkin düşmüşdü.

Digər şəhid Səfər Qarsalan oğlu Qəmbərov 1961-ci ildə Xocalı rayonunda anadan olub və 1992-ci ildə Xocalı döyüşləri zamanı itkin düşmüşdü.

# 1-2-3 noyabr 2020-ci il

## Azərbaycan: ZƏFƏR gündəliyi

# *İlham ƏLİYEV:* "İşğalçılara döyüş meydanında layiqli cavab veriləcək"

### 1 noyabr

## Erməni əsgəri silahını atıb şərəfsizcəsinə qaçır



**Noyabrın 1-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutublar.**

Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Ermənistan silahlı qüvvələrinə qarşı görülən cavab tədbirləri nəticəsində düşmənin şəxsi heyəti arasında xeyli sayda itki olub.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd PDM, 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 8 ədəd müxtəlif tipli topu, 2 rabitə qülləsi, 5 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

## Düşmənin canlı qüvvəsi və iki artilleriya batareyası məhv edilib

Saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Şıxarx qəsəbəsi, Qapanlı, Əskipara, Səhləabad kəndlərini, eləcə də Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini intensiv artilleriya atəşinə tutublar.

Artilleriya bölmələrimizin dəqiq zərbələri ilə düşmənin canlı qüvvəsi və iki artilleriya batareyası məhv edilib.

## Dövlət sərhədində yerləşən rayonlarımız atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusu bölmələrinin mövqelərini artilleriya, minaatan və atıcı silahlardan atəşə tutublar.

Müxtəlif vaxtlarda Ermənistanın Berd, Çəmbərək və Gorus rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Qubadlı rayonlarında yerləşən ordu bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalıb.

## Erməni əsgərlərindən hərbi qənimət kimi silah-sursat götürülüb



Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində bölmələrimizin mövqelərini atəşə tutan düşmənin 2 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi zərərsizləşdirilib.

Ermənistan-Azərbaycan dövlət sərhədinin Zəngilan rayonu sahəsində gedən döyüşdə zərərsizləşdirilən düşmən bölmələrindən hərbi qənimət kimi silah və sursat götürülüb.

## Düşmənin hərbi sursatla dolu iki yük maşınını məhv edilib

İşğal olunmuş ərazimizdə yerləşən Ermənistan silahlı qüvvələrinin raket-artilleriya silahları anbarı bir neçə gün əvvəl tərəfimizdən məhv edildikdən sonra düşmən bölmələrində ciddi silah-sursat qıtlığı yaranıb.

Buna görə də düşmən sərəncamında olan bütün silah-sursatlardan döyüşlərin getdiyi ən qaynar istiqamətdə istifadə etməyə çalışır.

Axşam saatlarında ərazinin havadan müşahidəsi zamanı düşmənin hərbi sursatla dolu iki yük maşınının daldalandığı yer müəyyənləşdirilib. İstiqamətlənmiş dəqiq atəş zərbəsi ilə hərbi nəqliyyat vasitələri dərhal məhv edilib.

### 2 noyabr

**Noyabrın 1-i gün ərzində və səhərə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif silahlardan, o cümlədən artilleriya və raketlərdən atəşə tutub.**



Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edib.

Düşmən bölmələri cəbhənin bəzi istiqamətlərində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur olub. Düşmənin silah, sursat, ərzaq ehtiyatları tükənib.

Sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 10 ədəd müxtəlif tipli topu, 3 ədəd sursatla dolu yük maşını və 5 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

## Prezident xalqa müjdəli xəbər verib




Prezident İlham Əliyev özünün "X" hesabında paylaşım edərək xalqa müjdəli xəbər verib:

"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Çaprand, Hacı İsaqlı, Qoşabulaq, Zəngilan rayonunun Dərə Gilətağ, Böyük Gilətağ, Qubadlı rayonunun İşıqlı, Muradxanlı, Milanlı kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

## Qazax, Tovuz və Daşkəsən atəşə məruz qalıb

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən bölmələrimizin mövqelərini minaatan və atıcı silahlardan atəşə tutub.

Noyabrın 2-nə keçən gecə müxtəlif vaxtlarda Ermənistanın Noyemberyan, Berd və Vardenis rayonlarından Azərbaycanın Qazax, Tovuz və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə tutulub.

## Zəngilan istiqamətində düşmənin Su-25 döyüş təyyarəsi məhv edilib

Düşmən cəbhənin Zəngilan istiqamətində mövqelərimizə hücum etməyə cəhd göstərib. Bu istiqamətdə bir sıra əlverişli yüksəklikləri ələ keçirmək məqsədilə minaatanlardan və müxtəlif iriçaplı silahlardan istifadə etməklə bölmələrimizin mövqeləri atəşə tutulub.

Düşmənin hücuma keçmək niyyəti bölmələrimiz tərəfindən vaxtında aşkar edilib və həyata keçirilən uğurlu əməliyyat nəticəsində qarşı tərəf ciddi itkilərə məruz qalıb.

Döyüş nəticəsində canlı qüvvə sarıdan 30-dək itki verən düşmən Ermənistan ərazisinə çəkilməyə məcbur edilib.

Bölmələrimizin şəxsi heyətinin sayıqlığı nəticəsində mövqelərimizə havadan hücum edən düşmənin Su-25 döyüş təyyarəsi məhv edilib.

## Tərtər və Goranboy intensiv atəşə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən Tərtər rayonunun Şıxarx qəsəbəsi, Qəzyan və Qapanlı kəndləri, Goranboy rayonunun Yenikənd kəndi intensiv artilleriya atəşinə tutulub.

## Qırmızı Bazar istiqamətində düşmənin qərargahı darmadağın edilib



Düşmənin daimi dislokasiya məntəqəsi, səngər və atəş mövqelərində yerləşən canlı qüvvəsi dəqiq zərbələrlə məhv edilib.

Eyni zamanda Qırmızı Bazar istiqamətində düşmənin qərargahı darmadağın edilib.

## Düşmənin KUB zenit-raket kompleksi dəqiq atəşlə sıradan çıxarılıb

Saat 18:00 radələrində Tərtər rayonunun Çardaqlı kəndində (keçmiş Ağdərə rayonunun Maqavuz kəndi) yerləşdirilmiş düşmənin KUB zenit-raket kompleksi dəqiq atəşlə sıradan çıxarılıb.

### 3 noyabr

**Noyabrın 3-nə keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin yerləşdiyi mövqeləri və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlardan, top və minaatanlardan atəşə tutublar.**



Döyüş əməliyyatları, əsasən, cəbhənin Ağdərə, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd KUB zenit-raket kompleksi, 9 ədəd müxtəlif tipli topu və 2 ədəd sursatla dolu yük maşını məhv edilib və sıradan çıxarılıb.

## Düşmənin taktiki pilotsuz uçuş aparatı məhv edilib

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenidən atəşə tutublar.

Saat 00:25-dən 04:45-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonlarından Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən atəşə məruz qalıb.

Saat 09:50-də cəbhədə uçuş keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) hava hücumundan müdafiə bölmələrimiz tərəfindən məhv edilib.

## İlham Əliyev Vladimir Putinlə telefonla danışıb



Prezident İlham Əliyevlə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi və onun həlli yolları ilə bağlı məsələlər, döyüş bölgəsində vəziyyət müzakirə edilib.

## Ağdam və Ağcabədidə mülki infrastruktur artilleriya atəşinə tutulub

Ermənistan silahlı qüvvələrinin bölmələri yenidən Ağdam və Ağcabədi rayonlarının kəndlərindəki mülki infrastrukturu artilleriya atəşinə tutublar.

Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

## Düşmənin hücum cəhdinin qarşısı qətiyyətlə alınıb



Ermənistan silahlı qüvvələri cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən qəti tədbirlər nəticəsində düşmən hücumunun qarşısı alınıb və o, ağır itkilərə məruz qalaraq geri çəkilməyə məcbur edilib.

## Xankəndi yaxınlığında düşmənin iki sursat anbarı məhv edilib

Bölmələrimizin gördüyü tədbirlər nəticəsində Ermənistan silahlı qüvvələrinin Xankəndi yaxınlığında yerləşən daha iki sursat anbarı məhv edilib.

## Düşmənin tank bölmələri döyüş meydanından qaçmağa məcbur olub

Ermənistan silahlı qüvvələri Füzuli şəhərini və ətraf kəndləri "Smerç" yaylım atəşli reaktiv sistemindən atəşə tutublar.

Cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun bölmələri düşmənin tank bölmələrini döyüş meydanından qaçmağa məcbur ediblər.

Bölmələrimizin dəqiq atəş zərbələri ilə düşmənin bir neçə tankı döyüş heyəti ilə birlikdə məhv edilib.

Müdafiə Nazirliyi düşmən tanklarının məhv edilməsi anlarını əks etdirən videosüjet yayıb.

Günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin üç ədəd topu məhv edilib.

## Motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan məhv edilib

Xocavənd istiqamətindəki döyüşlərdə Ermənistan silahlı qüvvələrinin 37-ci atıcı diviziyasının 3-cü motoatıcı alayının mövqelərindəki yeraltı sığınacaqların atəşə tutulması nəticəsində xeyli sayda şəxsi heyət məhv edilib.

Azərbaycan Ordusunun bu istiqamətdə həyata keçirdiyi tədbirlər nəticəsində motoatıcı alayın komandiri polkovnik Qor İşxanyan da məhv edilib.

*R.BAXŞƏLİYEV, "Azərbaycan"*

# REGİONLAR

## Regional sənayenin inkişafında Sabirabad təcrübəsi

**Azərbaycanda sənayenin inkişafı ölkənin iqtisadi yüksəlişinin əsas istiqamətlərindən biridir. Müstəqillikdən sonra həyata keçirilən iqtisadi islahatlar, dövlət proqramları və regional inkişaf strategiyaları nəticəsində sənaye sektoru paytaxtla yanaşı bölgələrdə də sürətlə genişlənməyə başlayıb.**




Neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sənayesinin inkişaf etdirilməsi, yeni sənaye parklarının və məhəllələrinin yaradılması regionlarda məşğulluğun artmasına, infrastrukturun yaxşılaşmasına və yerli istehsal potensialının güclənməsinə səbəb olub. Bu da bölgələrdə milli iqtisadiyyatın şaxələndirilməsinə və sosial rifahın yüksəldilməsinə mühüm töhfə verir. Son illər regional inkişaf proqramlarının həyata keçirilməsi nəticəsində ölkənin bir çox bölgəsində sənaye müəssisələri fəaliyyətə başlayıb, yerli xammalın emalı və istehsal sahələrinin genişləndirilməsi istiqamətində ciddi addımlar atılıb. Hazırda Gəncə, Mingəçevir, Sumqayıt, Şəki, Şirvan, Sabirabad və digər bölgələrdə müasir standartlara cavab verən müəssisələr fəaliyyət göstərir.

Sənayeləşmə prosesinin genişlənməsi regionların sosial-iqtisadi inkişafına mühüm təkan verir. Yeni sənaye müəssisələrinin yaradılması nəticəsində bölgələrdə əlavə iş yerləri açılır, yerli əhalinin məşğulluq səviyyəsi artır, infrastruktur yenilənir və sosial rifah yüksəlir. Dövlətin həyata keçirdiyi iqtisadi siyasət çərçivəsində sahibkarlığın inkişafı üçün güzəştli kreditlərin verilməsi, investisiya təşviqi və ixracın dəstəklənməsi kimi mühüm mexanizmlər tətbiq olunur. Həyata keçirilən layihələr ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət edərək qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bölgələrdə istehsal olunan məhsullar təkcə daxili bazarda deyil, həm də xarici bazarlarda rəqabət qabiliyyəti əldə edir.

Bu baxımdan Sabirabadda yaradılan sənaye müəssisələri regionun iqtisadi inkişafını sürətləndirir. Rayonda fəaliyyət göstərən müəssisələr kənd təsərrüfatı məhsullarının emalı, kimya sənayesi, toxumçuluq və pambıq emalı kimi istiqamətlərdə ixtisaslaşaraq həm yerli istehsalın həcmini artırır, həm də bölgənin ixrac potensialını gücləndirir. Sənaye müəssisələrinin çoxu Sabirabad Sənaye Məhəlləsində cəmləşib və burada tətbiq olunan müasir texnologiyalar məhsulun keyfiyyətinin yüksəldilməsinə, istehsalın səmərəliliyinin artırılmasına imkan yaradır. Məlumat üçün bildirək ki, bu məhəllənin yaradılmasında əsas məqsəd sənaye və xidmət sahələrində fəaliyyət göstərən kiçik, orta sahibkarlar üçün əlverişli şəraitin təmin edilməsi, eləcə də əhalinin istehsal və xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Məhəllə Prezidentin 2017-ci il tarixdə imzaladığı sərəncamla təsis olunmuşdur və ümumi sahəsi 20,3 hektardır. Burada sahibkarlıq subyektlərinin fəaliyyəti üçün zəruri infrastruktur təmin edilib. Hazırda sənaye məhəlləsində 8 rezident qeydiyyatdan keçərək fəaliyyət göstərir və ümumilikdə 100-dən çox yeni iş yeri yaradılıb. Rezidentlərin məhəlləyə yatırdığı investisiyanın ümumi həcmi 10 milyon manatdan çoxdur.

Burada əldə olunan uğurlar oktyabrın 28-də Prezident İlham Əliyevin Sabirabad rayonuna səfəri zamanı daha aydın şəkildə ortaya çıxdı. Dövlət başçısı "Humix" aqrokimya məhsulları istehsalı müəssisəsi, "Azera Toxumçuluq" MMC-yə məxsus toxum istehsalı müəssisəsi və "Taşobası" pambıq emalı zavodunun fəaliyyəti ilə tanış olarkən onların iqtisadi və sosial əhəmiyyətini yüksək qiymətləndirdi.

Bu müəssisələrin hər biri bölgənin resurs potensialına uyğun qurularaq, yerli xammalın səmərəli istifadəsini və yeni iş yerlərinin açılmasını təmin edir. Məsələn, "Humix" MMC ilə tanışlıq zamanı bildirildi ki, müəssisəyə 2021-ci ildə Sabirabad Sənaye Məhəlləsinin rezidenti statusu verilib. Burada Türkiyə, Çin və yerli texnologiyalar əsasında orqanik mineral (toz), kimyəvi (maye və toz) və qranul gübrələr istehsal olunur, illik istehsal gücü 18 min ton təşkil edir. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixraca da yönəldilir. İnvestisiya məbləği 1,45 milyon manat olan müəssisəyə Biznesin İnkişafı Fondu (BİF) tərəfindən 497 min manat güzəştli kredit ayrılıb və investisiya təşviqi sənədi verilib.

"Taşobası" pambıq emalı zavodunda isə yerli pambığın emalı nəticəsində əlavə dəyər zənciri formalaşır, kənd təsərrüfatı məhsullarının sənaye üsulu ilə emalı təmin edilir. Zavodda Türkiyə, Almaniya və İtaliya texnologiyaları tətbiq olunmaqla mahlıc və texniki çiyid istehsal olunur. Müəssisənin layihə dəyəri 3,3 milyon manatdır və ildə 8 min ton mahlıc, 10 min ton texniki çiyid istehsal edilir. İndiyədək 2,6 milyon manat dəyərində məhsul istehsal edilib ki, bunun da 2,2 milyon manatı ixrac olunub.

"Azera Toxumçuluq" MMC-də Türkiyənin qabaqcıl texnologiyaları əsasında yonca, hibrid qarğıdalı, hibrid günəbaxan, arpa və buğda toxumları istehsal edilir. İllik gücü 500 ton yonca, 800 ton qarğıdalı, 350 ton günəbaxan, 2 min ton arpa və 2 min ton buğdadır. Xammal kimi Sabirabad Pilot Aqroparkda və regionun müxtəlif fermer təsərrüfatlarında yetişdirilən məhsullardan istifadə olunur. Layihənin dəyəri 2,5 milyon manatdır.

Prezident İlham Əliyevin səfər çərçivəsində fəaliyyəti ilə tanış olduğu müəssisələrdən olan "Fırtına Su Sistemləri" MMC də Sabirabad Sənaye Məhəlləsinin rezidenti kimi ötən il qeydiyyata alınıb. Layihə dəyəri təxminən 1,2 milyon manat olan müəssisədə Çin texnologiyası əsasında mayenin süzülməsi və təmizlənməsi üçün avadanlıqlar istehsal edilir. Burada ildə 210 min ədəd filtr, 15 min ədəd su filtri cihazı istehsalı planlaşdırılır. Müəssisədə istehsal olunan cihaz və ehtiyat hissələri daxili bazara çıxarılmaqla yanaşı, Qazaxıstan, Özbəkistan və Türkiyəyə ixrac edilir.

Bu sadalananlar ona dəlalət edir ki, Sabirabadda həyata keçirilən sənaye layihələri regionun iqtisadi gücünü artırmaqla yanaşı, həm də Azərbaycanın qeyri-neft sektorunun inkişafında mühüm rol oynayır. Prezident İlham Əliyevin bölgəyə səfəri həmin prosesin dövlət səviyyəsində dəstəkləndiyini və regionların sənaye potensialının daha da gücləndirilməsinin prioritet istiqamət kimi müəyyənləşdirildiyini bir daha təsdiqlədi. Sabirabad Sənaye Məhəlləsindəki müəssisələrlə tanışlığı isə regionların sənaye potensialının artırılması, yerli xammalın səmərəli istifadəsi və yeni iş yerlərinin yaradılması istiqamətində strateji əhəmiyyət daşıyır.

***Züleyxa ƏLİYEVA,***
***"Azərbaycan"***

**Hər il istehsal etdiyi kənd təsərrüfatı məhsullarına görə fərqlənən rayonlardan biri də Ağstafadır. Əvvəlki illərdə olduğu kimi, bu il də sahələrdə bol məhsul yetişdirən rayon fermerləri hazırda yetişdirdikləri kənd təsərrüfatı məhsullarının yığımı ilə məşğuldurlar.**

Qeyd edək ki, rayonda 124 min hektar torpaq sahəsinin 94,1 min hektarında kənd təsərrüfatı məhsulları yetişdirilir. Əkinə yararlı torpaq sahələrindən 18,9 min hektarı suvarılan, 2,9 min hektarı dəmyədir. Coğrafi mövqeyinə və təbii iqlim şəraitnə uyğun olaraq rayon iqisadiyyatının əsasını taxılçılıq təşkil edir. İstehsal olunmuş taxıl rayonun çörəyə olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlığın qüvvəli və qaba yemə olan tələbatının ödənilməsində mühüm rol oynayır.

## Torpaqdan çıxan çörək

### Ağstafalı fermerlər bu mövsüm hər hektardan 34 sentnerdən çox buğda əldə etmişlər



Əvvəlki illərdə olduğu kimi, bu il də rayonda taxılçılıq üzrə uğurlu göstəricilərə nail olunub. 8512,1 hektarda taxıl yetişdirən fermerlər hər hektar buğda sahəsindən 34,2, arpa sahəsindən 26,1 sentner məhsul götürüblər. Hazırda rayon taxılçıları gələn ilin məhsulunun bünövrəsini qoyurlar. Bunun üçün nəzərdə tutulmuş 6500 hektarda şum aparılması nəzərdə tutulmuşdur. Artıq 4700 hektarda bu iş başa çatdırılmışdır.

Rayonda kartof istehsalı da bu il əvvəlki ildəkindən çox olmuşdur. 377,5 hektarda əkilmiş kartof sahələrinin hər hektarından 310,8 sentner məhsul götürülmüşdür. 1821,5 hektarda əkilmiş günəbaxan sahələrində də yığım yekunlaşmışdır. Bundan başqa, 302,5 hektarda qarğıdalı, 138 hektar sahədə təkrar qarğıdalı səpini aparılmışdır.

Rayonda heyvandarlığın inkişafı da diqqət mərkəzindədir. Odur ki, mal-qaranın cins tərkibinin yaxşılaşdırılması, xüsusən süni mayalamadan istifadə edilməsi üçün müxtəlif tədbirlər həyata keçirilir. Hər cins buzov üçün dövlət tərəfindən 100 manat subsidiyanın, eləcə də bu sahədə güzəştli kreditlərin verilməsi, həmçinin müasir texnoloji avadanlıqlarla təminat rayonda heyvandarlığın inkişafına, sahibkarların bu sahədə marağının artırılmasına şərait yaradır. Bunun nəticəsidir ki, cari ilin ötən dövrü ərzində 1178 baş inək və düyələr süni yolla mayalandırılmış və onlardan 744 baş bala alınmışdır.

Onu da qeyd edək ki, rayonda istər bitkiçilikdə, istərsə də heyvandarlıqda yarana biləcək hər hansı xəstəliklərin vaxtında aradan qaldırılması üçün il ərzidə lazımi mübarizə tədbirləri görülmüşdür. Ziyanvericilər aşkar edilmiş sahələrdə mübarizə tədbirləri bu gün də davam edir. Ümumilikdə 1933,33 hektar sahədə kimyəvi mübarizə tədbirləri aparılmışdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Neftçalada vətənpərvərlik mövzusunda tədbir keçirilib

**Neftçalada "Vətən müharibəsi Qəhrəmanları ilə bir gün" adlı vətənpərvərlik mövzusunda silsilə maarifləndirici görüşlər çərçivəsində növbəti tədbir Şəmsəddin Orucov adına Həsənabad qəsəbə 1 nömrəli tam orta ümumtəhsil məktəbində təşkil olunub.**

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının birinci müavini Şaiq Məmmədov 44 günlük Vətən müharibəsində Azərbaycan xalqının qəhrəmanlıqla yazdığı tarixdən danışıb, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan tarixi qələbənin əhəmiyyətini vurğulayıb.

Vətən Müharibəsi Qəhrəmanı şəhid Camal İsmayılovun anası Filarə İsmayılova, Milli Qəhrəman, şəhid Samid İmanovun atası Gülağa İmanov, şəhid Maarif Əliyevin anası Sevda Əliyeva, şəhid Gözəlov Muradın atası Zabil Muradov, şəhid Elmin Nəcəfovun atası Saleh Nəcəfov Vətən uğrunda canlarını fəda etmiş oğullarının xatirəsinin hər zaman uca tutulmasından qürur duyduqlarını bildiriblər.

Sonda məktəblilər şəhidlərin xatirəsinə həsr olunmuş şeir və musiqi kompozisiyaları ilə çıxış ediblər.

***"Azərbaycan"***

## Ot kökü üstündə bitər

### Nəsildən nəslə keçən əmək ənənəsi

**Salyan-Neftçala magistral şose yolundan sağa dönüb Xıllı kanalının kənarı ilə cənuba doğru irəliləyirik. "Niva" bir neçə gün əvvəl yağan yağışın əmələ gətirdiyi kiçik gölməçələri keçib gedir. Mənə elə gəlir ki, 25-30 kilometr yol qət etmişik. Fikirləşirəm ki, pambıq sahələri niyə gözə dəymir?**

Ətrafda balıqyetişdirmə dambaları, heyvan yataqları görünür. Sükan arxasında oturan yol yoldaşım - pambıqçı fermer Mürsəl Qəfərovdan asfaltdan onun sahəsinə qədər neçə kilometr olduğunu soruşuram. Deyir ki, 8 kilometr yoldur. "Onda bəs niyə ora çata bilmirik?" - soruşanda fermer: "Yol narahatdır deyə yavaş gedirik, ona görə belə uzun görünür", - deyə o cavab verir.

Elə bu vaxt yaşıl rəngli "Conder" nəzərə çarpır. 5-6 dəqiqədən sonra sahəyə çatırıq. "Tarla gəmisi" sahənin o başından bizə tərəf yaxınlaşır. Fermer M.Qəfərov "Bunker dolub, indi boşaltmağa gələcək", - deyə bildirir. "Axı işığı yanıb-sönmür", - deyirəm. "Kombaynçı lafet qoşulmuş traktorçuya işarə edəndə işığı yandırıb-söndürür. İndi buna ehtiyac yoxdur. Qoşa lafet, gördüyünüz kimi, sahənin kənarında dayanıb onu gözləyir. İndi kombaynçı pambıqyığanı ora sürüb bunkeri boşaldacaq", - deyir və əlavə edir: "Bunu belə edirik ki, işdə fasilə yaranmasın. Lafetlər dolan kimi nəqliyyat traktoru qoşa boş lafeti gətirəcək, yedəyindən açıb qoyacaq, dolan lafetləri isə Qaramanlı kəndindəki tədarük məntəqəsinə aparacaq".

Fermerlə ağappaq örpəyə bürünmüş sahəyə giririk. O, kolları bir-bir nəzərdən keçirir. "Açılmamış qoza qalmayıb", - deyərək ağ çiçəyə bənzəyən açılmış qozadan bir ləçək çəkib çiyidlərini sayır, doqquza çatanda çöhrəsindəki təbəssüm bir az da çoxalır. "Deməli, zəhmətimiz hədər getməyib" - deyir.

Mən də onun sevincinə qoşuluram: "Sahənin görünüşü, maşallah, dediyinizi təsdiqləyir". Və sonra soruşuram: "Neçə ildir pambıqçılıqla məşğulsunuz?" Yenə gülümsəyir, ani olaraq fikrə gedib deyir: "Lap çoxdan, uşaqlıqdan desəm, səhv etmərəm. Bir də onu deyə bilərəm ki, özüm və ailəmizdəki digər uşaqlar pambığın çörəyi ilə böyümüşük. Bunu ona görə deyirəm ki, atam Səfər kişi sovetlər zamanında Boyat kəndindəki "1 May" kolxozunda uzun müddət pambıqçılıq briqadiri işləyib. Orden-medallarla təltif olunub. SSRİ Xalq Təsərrüfatı Sərgisinin "Qızıl medal"ını alıb və "Moskviç" minik maşını ilə mükafatlandırılıb. O vaxtlar Neftçala Rayon Partiya Komitəsinin birinci katibi olan İbrahim Qurbanov atamın yaxşı işini, hər il yüksək göstəricilər əldə etdiyini görərək deyib ki, Səfər, gələn il də belə pambıq yetişdirsən, səni Sosialist Əməyi Qəhrəmanı adı almağa təqdim edəcəyik. Lakin ömür vəfa etmir. Atam möhkəm xəstələnir və vəfat edir".

Kombayn bizim dayandığımız yerə gəlib çatır və o biri ləkin kənarında dayanan lafetlərin yanına yol alır. Məsafə çox da uzaq deyil. Biz də pambıqyığan maşının arxasınca gedirik. Kombayn qoşa lafetin yanında dayanan kimi Nüsrət Məmmədov, Novruz Zeynalov və Əkbər Mövlayev cəld lafetlərə qalxırlar. "Conder"in sürücü-mexaniki Bəxtiyar Əliyev idarə etdiyi maşını asta-asta lafetin kənarına verib bunkeri

Reportaj



qaldırır. Pambıq yerə dağılmasın deyə o bu işi çox ustalıqla həyata keçirir. Pambıq hissə-hissə lafetlərə axır. Lafetlərədə isə pambığı adlarını çəkdiyimiz işçilər yayaraq ayaqlayırlar. Bunker boşalır. Sürücü-mexanizator B.Əliyev yenidən kombaynı sahəyə sürür.

Bu vaxt fermer M.Qəfərovun oğlu Səfər də digər qoşa lafeti gətirən traktorla iş üstünə yetişir. Atası ondan işçilərin günorta yeməyini gətirib-gətirmədiyini soruşur. Oğlu "Ata, heç narahat olma, hər şey qaydasındadır" - deyir. Tez bir zamanda traktor boş lafetlərdən açılıb dolu lafetlərə qoşularaq yola salınır. Oğlanın belə operativliyi diqqətimi cəlb edir. Odur ki, fermerdən neçə oğlu olduğunu soruşuram. "Tək bir oğlum var". Sonra əlavə edir: "Dörd qızım da var". Məlum olur ki, qızlarını köçürüb, yeddi nəvə babasıdır. "Bəs neçə oğul nəvən var?" - deyirəm. Gülür: "Zalımın balası gərək evlənə ki, usağı ola da. Artıq 29 yaşı var. Ali təhsilli ekoloqdur. İstəyirdim, dövlət qulluğunda işləsin. Deyir, onda 1000 manat maaş alacağam. Sənə kömək edib öz təsərrüfatımızda çalışsam, ondan qat-qat çox qazanaram. Baxıb görürəm, düz deyir. Təsərrüfatda çalışmağın nəyi pisdir ki? Bir də ki evlənmək məsələsi var. Anası, bacıları, mən özüm çox deyirik. Hələlik bir nəticəsi yoxdur. Yaxından, uzaqdan münasibini tapa bilmirik. İndi qızları da tanımaq olmur. Bir tanışım var. Bir neçə ay əvvəl oğlu üçün bir nəfərin qapısına elçiliyə gediblər. Qız evi oturmağa 3-4 stul tapa bilməyib. Süfrəyə gətirdikləri stəkan-nəlbəkinin hərəsi bir cür olub. Səhəri gün xəbər gəlib ki, qız deyir, oğlanın Bakıda evi olsa, ona gedərəm. Bax zəmanə belə xarab olub. Soruşmaq lazımdır ki, Bakı sənin hansı dərdinə dərmandır?!"

Söhbəti yenidən təsərrüfat məsələlərinə, pambıqçılığa yönəldirik. Məlum olur ki, Mürsəl Qəfərov bu il 44 hektarda pambıq əkib-becərib. Bunun üçün hələ yanvar ayında "Prime Cotton" MMC-nin Neftçala rayonunun Aşağı Qaramanlı kəndindəki filialı ilə müqavilə bağlayıb. Deyir ki, sağ olsunlar, filialın rəhbərliyi, mütəxəssisləri həmişə onların yanında olub, lazım olan göstəriş və tövsiyələrini veriblər. 6 dəfə cərgələrarası kompleks becərmə aparıb. Kür çayında bu il suyun səviyyəsi yaxşı olduğundan sahələri 2 dəfə suvarıb.

Əkində qardaş Türkiyədən gətirilən lifsiz "Bəyaz altun" toxum növündən istifadə edib. Səpin zamanı çiyidlə birlikdə torpağın hər hektarına150 kiloqram ammofos gübrəsi verib. Bitkilərin yaxşı inkişaf etməsi, məhsuldar olması üçün hər hektara birinci kultivasiya ilə 200 kiloqram azot, sonrakı becərmə dövründə 200 kiloqram karbamid gübrəsi verib. Bunlardan əlavə, 3 dəfə kökdənkənar yemləmə aparıb. Sovka ilə mübarizə tədbirlərini həyata keçirib.

Pambıqçılıqla məşğul olanlar yaxşı bilirlər ki, becərmə zamanı ən vacib şərtlərdən biri də cərgələr arasında bitən müxtəlif növ alaq otlarının təmizlənməsidir. Lakin bu işin texnika və dərmanlarla tam şəkildə aradan qaldırılması hələ ki mümkün deyil. Buna görə işçi qüvvəsinə ehtiyac bu gün də qalmaqdadır. Becərmə dövründə işçi tapmaq da müşkül məsələlərdən biridir. Fermer Mürsəl Qəfərov bu işin də həlli yolunu tapıb. Bankədən qızgəlinlərdən ibarət briqada yaradıb. Onların hər birinə gündəlik əməkhaqqı verməklə bərabər, səhər evlərindən sahəyə, işin sonunda sahədən evlərinə xüsusi nəqliyyatla gedib-gəlmələrini təmin edib.

Bacarıqlı fermer öz işini günün, zamanın tələbləri səviyyəsində qurub. Təsərrüfatı üçün şum, becərmə traktorları, mala və s. texnikalar alıb. Bu da ona bütün aqrotexniki tədbirləri vaxtında və keyfiyyətlə görməsinə imkan verməklə yanaşı, məhsulun maya dəyərini də aşağı salıb.

İndiyədək 44 hektar sahənin 25 hektarının məhsulunu toplayıb. Hamısını da maşınla. Məhsuldarlıq ürəkaçandır - hələlik hər hektardan 50 sentner pambıq götürüb. Sonda bu rəqəmin 54-55 sentner olacağı gözlənilir.

Onu da qeyd edək ki, Mürsəl Qəfərov ali təhsilli kənd təsərrüfatı işçisidir. 1989-cu ildə Gəncə Kənd Təsərrüfatı Akademiyasının Zoomühəndislik fakültəsini bitirib. Bir müddət kəndlərindəki kolxozda ixtisası üzrə işləyib. Kolxozlar ləğv edilib, torpaqlar paylandıqdan sonra fermer təsərrüfatı yaradıb. Pay torpağını və icarəyə götürdüyü torpaqları əkib-becərməyə başlayıb. Öz ixtisasını da yaddan çıxarmayıb. Təsərrüfatının bir qolu kimi heyvandarlığın inkişafına səy göstərib. Əməyi qiymətləndirilib. Prezident İlham Əliyevin sərəncamı ilə 2021-ci ildə 2-ci dərəcəli "Əmək ordeni" ilə təltif olunub.

Belə bir deyim var: "Ataların yolu oğulların yoludur". Bu gün bu missiyanı, bu ailə ənənəsini Nefçala rayonunun Boyat kəndində yaşayan Mürsəl və Səfər Qəfərovlar davam etdirirlər. Bu, əməklə yoğrulan bolluq, firavanlıq yoludur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# Bakıda Belçika müstəmləkəçiliyinə həsr olunmuş beynəlxalq konfrans keçirilir

**Ölkəmizdə ilk dəfə olaraq Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə Belçikanın müstəmləkə keçmişinə və onun bu günə qədər davam edən ağır fəsadlarına həsr olunmuş "Belçika müstəmləkəçiliyi: tanınma və məsuliyyət" adlı beynəlxalq konfrans keçirilir.**

AZƏRTAC xəbər verir ki, konfransda Belçikanın keçmiş müstəmləkələri - Konqo Demokratik Respublikası, Ruanda və Burundidən olan nümayəndələr, diplomatlar və rəsmi şəxslər iştirak edirlər.

Ümumilikdə tədbirə 8 ölkədən beynəlxalq hüquq üzrə ixtisaslaşmış mütəxəssislər, tarixçilər, tədqiqatçılar, vətəndaş cəmiyyəti fəalları və reparasiya məsələləri üzrə ekspertlər qatılıblar. İştirakçılar Belçikanın müstəmləkə dövründə törətdiyi cinayətləri, onun neokolonial siyasətini və müstəmləkəçilikdən irəli gələn kompensasiya (reparasiya) məsələlərini müzakirə edəcəklər.

Qeyd edək ki, Bakı Təşəbbüs Qrupu beynəlxalq hüquq çərçivəsində Belçikanın keçmiş müstəmləkələrində törətdiyi cinayətlərə görə kompensasiya tələbinin beynəlxalq səviyyəyə çıxarılması və bu mövzunun beynəlxalq təşkilatların gündəliyinə salınması istiqamətində iş aparır.

Belçikanın müstəmləkə siyasəti nəticəsində Konqo Demokratik Respublikasında 10 milyondan çox insanın ölümü, on minlərlə insanın əllərinin kəsilməsi və ölkənin mədəni resurslarının talan edilməsi kimi ağır cinayətlər baş verib.

Belçika Ruanda və Burundidə 1933-cü ildə 600 min etnik kimlik kartı paylayaraq etnik bölgü siyasəti aparıb və bu, sonradan 1972 və 1994-cü illərdə kütləvi soyqırımılara zəmin yaradıb.

1940-1950-ci illərdə 20 min metis uşaq ailələrindən zorla ayrılaraq Belçikaya aparılıb.

Belçikada yerləşən Tervuren Muzeyində Belçika müstəmləkəsi dövründə 180 min talan edilmiş artefakt saxlanılır.

Ruandadan Tervuren Muzeyinə 40 mindən çox mədəni artefakt (maskalar, könüllü alətlər) talan edilərək aparılıb.

BMT-nin 2019-cu ildə dərc etdiyi hesabatda Belçikanın keçmiş müstəmləkələrinə vurduğu zərərlərlə bağlı faktların araşdırılması, arxivlərin açılması və təzminat ödənilməsi tövsiyə olunur.

Hesabatda Konqo Demokratik Respublikası üçün 500 milyard avro, Burundi üçün isə 36 milyard avro həcmində reparasiya tələbi irəli sürülüb.

Bununla yanaşı, Belçika keçmiş müstəmləkə ərazilərində, xüsusilə kobalt mədənlərinin 80 faizinə nəzarət etməklə neokolonial istismar siyasətini davam etdirir.









# Ermənistan vətəndaşlarının məhkəmə istintaqı başa çatıb, prokurorlar çıxışa hazırlaşmaq üçün hakimdən vaxt istəyiblər





**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 31-də davam etdirilib.**

AZƏRTAC xəbər verir ki, Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.

İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən Levon Mnatsakanyanın müdafiəçisi Oqtay Mədətov məhkəməyə müraciət edərək, fasilə zamanı müvəkkili ilə görüşmək istədiyini deyib.

Hakim fasilədə bunun üçün şərait yaradılacağını bildirib.

Sonra təqsirləndirilən David Manukyan vəsatət verərək ittiham olunduğu cinayətlərlə bağlı bəzi xüsusatlarla razılaşmadığını deyib. Təqsirləndirilən şəxs cinayətkar birliyin yaradılması ilə bağlı ittihamın cinayət işinin ona aid olan epizodlarından çıxarılmasını, habelə onun barəsində olan cinayət işinin ayrıca icraata ayrılmasını xahiş edib.

David Manukyanın müdafiəçisi təqsirləndirilənin vəsatətini müdafiə etdiyini söyləyib.

Vəsatətə münasibət bildirən dövlət ittihamçısı Fuad Musayev deyib ki, hazırda sübutların qiymətləndirilməsi mərhələsi deyil. Müdafiə tərəfinin qeyd etdiyi hal isə sübutların qiymətləndirilməsi mərhələsinə aiddir.

İttiham tərəfi qeyd olunan xüsusata məhkəmə istintaqı yekunlaşdıqdan sonra, çıxışlar zamanı fikir bildirəcəyini deyib. Eyni zamanda, dövlət ittihamını müdafiə edən prokuror məhkəmə tərəfindən sübutlara müşavirə otağında hüquqi qiymət verəcəyini də xatırladıb.

Məhkəmə zərərçəkmiş şəxslərin nümayəndələrini də dinlədikdən sonra qərar qəbul edib. Qərara əsasən vəsatət əsassız olduğu üçün təmin edilməyib.

Sonra Madat Babayanın müdafiəçisi Leyla Namazzadə vəsatətlə çıxış edərək hüquqlarını müdafiə etdiyi təqsirləndirilən şəxsə qarşı irəli sürülən ittihamdan bəzi epizodların çıxarılmasını xahiş edib.

Təqsirləndirilən Madat Babayan müdafiəçisi tərəfindən verilən vəsatətlə razı olduğunu bildirib.

Dövlət ittihamçısı Təranə Məmmədova vəsatətdə qeyd olunan halların prosesin hazırkı mərhələsinin predmetinin olmadığını xatırladaraq diqqətə çatdırıb ki, məhkəmə bunu müşavirə otağında qiymətləndirir.

Məhkəmə vəsatətdə qeyd olunan hallara müşavirə otağında baxılaraq qiymətləndiriləcəyini bildirib və vəsatəti baxılmamış saxlayıb.

Təqsirləndirilən Bako Sahakyan isə ötən iclasda təqdim etdiyi sübutların tədqiqi ilə bağlı müdafiəçisinin suallarını cavablandırıb.

Bundan sonra Levon Mnatsakanyanın müdafiəçisi təqsirləndirilən şəxslə görüşərkən hüquqlarını müdafiə etdiyi şəxsin cinayət işinə əlavə olunması üçün ona şəxsi arxivindən bir neçə sənəd verdiyini bildirib və onları məhkəməyə təqdim edib.

Təqsirləndirilən Levon Balayanın vəkili Saqi Məmmədov da hüquqlarını müdafiə etdiyi şəxslə konfidensial görüşmək istədiyini deyib.

Hakim Zeynal Ağayev fasilədə onlara şərait yaradılacağını bildirib.

Məhkəmə iclasının sonunda iclasa sədrlik edən məhkəmə istintaqının yekunlaşdırılması ilə bağlı tərəflərin fikirlərini öyrənib.

Tərəflər məhkəmə istintaqının yekunlaşdırılmasına etiraz etməyiblər.

Baş Prokurorun böyük köməkçisi Vüsal Əliyev ittiham tərəfinin məhkəmə baxışı zamanı təqdim olunan sübutlarla kifayətləndiyini bildirib.

Məhkəmə iclasına sədrlik edən məhkəmə istintaqının yekunlaşdığını elan edib və çıxışlar zamanı tərəflərin yalnız məhkəmə istintaqında tədqiq olunan sübutlara istinad edə biləcəyini bir daha proses iştirakçılarının diqqətinə çatdırıb.

Bundan sonra dövlət ittihamını müdafiə edən prokurorlar çıxış üçün noyabrın 3-dək vaxt verilməsini məhkəmədən xahiş ediblər.

Növbəti iclasda tərəflərin çıxışlarına başlanılması qərara alınıb.

Məhkəmə prosesi noyabrın 3-də davam etdiriləcək.

Qeyd edək ki, Ermənistan dövlətinin, onun dövlət qurumlarının vəzifəli şəxslərinin, hərbi qüvvələrinin və qanunsuz silahlı birləşmələrin bilavasitə rəhbərliyi və iştirakı, şifahi-yazılı qaydada verdiyi tapşırıq, göstəriş və təlimatları, maddi, texniki, şəxsi heyətlə verdiyi dəstəyi, mərkəzi qaydada idarəçiliyi əsasında, eləcə də ciddi nəzarəti altında Azərbaycan ərazisində daxili və beynəlxalq hüquq normalarına zidd şəkildə, Azərbaycana hərbi təcavüz etmək məqsədilə yaradılmış, həmçinin Köçəryan Robert Sedraki, Sarkisyan Serj Azati, Manukyan Vazgen Mikaeli, Sarkisyan Vazgen Zaveni, Babayan Samvel Andraniki, Balasanyan Vitali Mikaeli, Balayan Zori Hayki, Ohanyan Seyran Muşeqi, Qaramyan Arşavir Surenoviç, Melkonyan Monte Çarlz və digərlərinin rəhbərliyi, bilavasitə və dolayı iştirakları ilə Ermənistan dövləti, o cümlədən sözügedən cinayətkar birlik tərəfindən aparılan təcavüzkar müharibənin gedişində törədilmiş çoxsaylı cinayət faktlarına dair cinayət işi üzrə 15 təqsirləndirilən şəxs ittiham edilir.

Həmin şəxslər, yəni Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan David Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beqlaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 iyun (Cümə axşamı günü) tarixli 202-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 13 ramazanül-mübarək sənə 1337. 12 həziran 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 30 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## VƏTƏNDAŞLAR!

Denikin gəlir.

Bizim cavan və hələ möhkəm kök atmamış Azərbaycanımızı yıxmaq və yenə də irəliki kimi bizi istibdad və qulluq zənciri altına çəkmək istəyir.

Əlbəttə, hürriyyət və istiqlaliyyətini sevən heç bir nəfər Denikin ordusunun Azərbaycana ayaq basmasına razı olmayacaq. Bu məsələdə Azərbaycanda yaşayan bütün millətlərin demokratiyası [xalqı] həmrəydir.

Vətəndaşlar! Vətən övladının Denikin əleyhinə müharibəyə hazır olduğunu göstərmək üçün bu iyun ayının 13-də cümə günü mədən dairələrində və Bakıda saat 11-də ümumi tətil və nümayiş olacaq. Nümayişlərin vaxt və yerləri barəsində türkcə və rusca qəzetələrdə məlumat veriləcəkdir. Qəzetələri oxumalı.

*Türk Ədəmi-Mərkəziyyət firqəsi*
*"Müsavat"ın Mərkəzi Komitəsi*

## ELAN

1919 həziranın [iyunun] 12-ci günü saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-145*

## ELAN

Müsəlman Zəhmətkeş Ziyalıları İttifaqı müsəlman cavanlarını İttifaq tərəfindən açılmış səhiyyə kursuna dəvət edir. Xahiş edənlər İttifaqa müraciət etsinlər. Voznesenski küçədə 3 nömrəli evdə, səhər saat 10-dan 3-dək.

*10227*

## QİSMİ-RƏSMİ [RƏSMİ HİSSƏ]

**Azərbaycan Cümhuriyyəsi Maliyyə nazirinin 17 həziran sənə 1919 tarixli qərardadı**

Qolçu vergi qanunnaməsinin 661[ci] maddəsi mövcibincə Maliyyə naziri qərar qoydu ki, 1919 səneyicariyyədə Gəncə vilayətinin Gəncə, Qazax, Ərəş və Şəki nahiyələrində və Zaqatal vilayətində üzüm maddiyyatından şürubat [içki] hasilatının vaxtı eylül [sentyabr] ayının ibtidasınaca[n] [əvvəlinə qədər] davam etdirilsin. Bununla bərabər, spirt məhsulunun ölçüsü bir gecə gün[d]üz ərzində şərab hazırlayan qazan vüsətinin [həcminin] hər vedrəsinə 60 dərəcə olaraq qalsın.

*Əsli ilə mütabiqdir:*
*Məhəmməd Hacıyev*

**Məşixət İdarəsində**

Salyan sakini Əliməhəmməd Hüseynzadə işbu iyunun 1-də İdareyi-Məşixəti-islamiyyədə [Şeyxülislamlıq İdarəsində] tərtib tapan qərarnamə ilə həmin idarənin dəftərdarı mənsəbinə təyin olunur.

*Məşixət sədri: şeyxülislam Axund Ağa Ağaəlizadə*
*Katib: Əfəndizadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

*5 iyun 1919*

*(Əhməd Cövdət Pepinovun nitqinin mabədi)*

Əfəndilər! Bu kürsüdən siz dəfələrlə gördünüz ki, biz burada firqə münaziələrində [mübahisələrində] bulunduq. Hökuməti dəfələrlə tənqid etdik. Yanlış yolları göstərdik. Bizimlə bərabər fəhlə və kəndçilər içərisində də bu siyasi mübarizələr vardı. Bu mübarizələr bir dərəcəyədək olar. Nə qədər, biz burada rahat otururuz, daxili işlərimizdə mübarizə etmək olar, fəqət, zamani ki, üzərimizə qara qüvvələr gəlir, düşmənlər bizi təhdid edirlər və düşmənlər burada nə kürsü qoyacaqlar və nə də Parlaman. Öylə bir zamanda bizim aramızda firqə münaziəsi ola bilməz; firqəçiliyi boşlayıb özümüzü müdafiə etmək üçün silaha sarılar, özümüzü, vətənimizi, sərhədlərimizi müdafiə üçün bilafərqisilk və məslək [təbəqə və əqidə fərqi olmadan] sərhədə qoşarız. *(Alqış)*

Əfəndilər! Düşmən nə ilə qüvvətlidir?

Əgər biz bu gün açıq nəzərlə baxarsaq görəriz ki, düşmən tərəfi-müqabilin miskinliyi ilə, özünü müdafiə etməməyilə qüvvətlənir. Burada bir xalq var ki, kəndi iradəsi ilə müqəddəratını əlinə almış, öz hürriyyətini kimsəyə əlindən qaytarmaz. Bu gün biz üzümüzü Avropa demokratiyasına tutub ondan müavinət istəsək, o zaman Avropa demokratiyası deyər ki, millət vətən və istiqlaliyyət uğrunda nə yapdı, təhlükə qarşısında nə etdi? Əgər bir təhlükə varid olan kimi [gələn kimi] təslim olarsa, o zaman deyəcəklər ki, bu istiqlaliyyəti bir neçə adam özü üçün istəyirdi, bütün millətin arzusu deyildi. Əgər millət istəsəydi, qurban verərdi. Əgər bu uğurda biz can versək, onda hər yerdə üzümüz ağ və alnımız açıq olar. Biz haqqımızı müdafiə etmək üçün bu gün düşmənə müqavimət göstərməliyiz. Ola bilsin ki, məğlub da olaq. Olsaq da eybi yoxdur. Gələcəkdə əhfadımız [nəvələrimiz], tariximiz bizi yaxşılıqla yad edəcəkdir. Xanlıq zamanlarından bir gəncəli Cavad xanın öz istiqlaliyyəti müdafiəsində göstərdiyi rəşadət və fədakarlığını tarix heç bir zaman unutmayacaq. Əgər biz düşmənə müqabilə etsək, bir vaxt deyəcəklər ki, Azərbaycan yaşamaq istədi, lakin onu qoymadılar. Bu bizdən ötrü ar deyil, şərəfdir. Gələcəkdə tariximiz bununla başlanacaq.

Əcəba, bu xalqda yaşamaq qabiliyyəti yoxmu? Biz acizanə, səfilanə düşmənə təslimmi olacağız? Hər bir fərdimiz, kişilərimiz və arvadlarımız bu fikirdədirlər ki, bir təni-vahid kimi [hamı bir nəfər kimi] yuxarıdan gələn düşmənə bütün varlığımızla qarşı duraq, çarpışmağa hazır olaq. Bu gün biz bu yolda qan tökəcək olarsaq, sabah bizim qanımızdan minlərlə mücahidlər meydana çıxacaq. Zülüm ilə, istibdad ilə çarpışacaq, Azərbaycan istəyən haqq və hüququ onlar alacaqlar. *(Alqış)*

Əfəndilər! Rəisi-vükəlanın [Baş nazirin] oxuduğu teleqramlara nəzərinizi cəlb etsəniz görərsiniz ki, onların qəzetələrdə nəşr edilməsi də istənilir. Bu bizi hədələməkdir. Bununla nə demək istəyirlər? Onlar camaatı qorxutmaq istəyirlər. Dağıstan iki yüz adama təslim oldusa, Azərbaycan onları o cür qəbul eyləməz. Onlar yanılırlar. Dağıstandakını Azərbaycanda görə bilməzlər. Bu tarixi gündə bizim içərimizdə ayrılıq və nifaq ola bilməz. Bu gün Zaqafqaziyadakı qüvvətimizi azaltmayaq. Denikinin qüvvəti miskinlikdən və acizlikdən irəli gəlir. Gürcü xalqı ilə bərabər gedərsək, bütün dünya demokratiyasının hüsn-təvəccöhü bizim tərəfimizdə olacaqdır.

İştə, bunlara istinadən, əfəndilər, deyərdim ki, gələcəyimizə ümidlə və qəvi [güclü] ümidlə baxıram. Bütün varlığımızı toplayıb, qonşularımızla əlbir olub zülüm və istibdad qarşısına çıxarsaq, düşmən qüvvələri bizə heç bir şey edə bilməz. Çünki:

*"Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,*
*Haqqın da bükülməz qolu, dönməz üzü vardır..."*

**Sədr** - Söz Məhəmməd Əmin Rəsulzadənindir.

**Məhəmməd Əmin Rəsulzadə** *(Alqışlar altında kürsiyi-xitabətə çıxır)* – Möhtərəm məbus əfəndilər! Qara Denikin ordusunun kağızlarının nə mənada olduğunu və o kağızlarla nə demək istədiyini möhtərəm Hökumət rəisi burada elan etdilər. Fəqət mən sizə bir növ başqalarını əsirlik altında saxlamaqdan və o əsirlikdən faydalanmaqdan, onlardan zövq almaqdan doymayan, keçmiş ağalıqlarının həsrətində qalan əfəndilərin xəyallarından bəhs edəcəyəm. Görünüz bu əfəndilər nə təsəvvür edirlər və xırda millətlər ilə mübarizəni nasıl asan düşünürlər. Onlar öylə xəyal edirlər ki, az qüvvə ilə istədiklərinə nail olarlar. Siz bilirsiniz ki, bizim üzərimizə gələn qara qüvvələrin nümayəndələri Batumda da otururlar və Batumda onların qəzetələri vardır. Biz burada hənuz mübarizəyə hazırlaşarkən, onların qəzetəsi Bakını almış və Parlamanımız üzərinə rus bayrağını vurmuşdur. Qəzetə qarşımdadır. Yazır ki:

*"Tiflisdən gələnlərin dediyinə görə, Denikin ordusu gəlmiş, Bakını almış və rus bayrağını Parlaman üzərinə sancmışdır. Denikin ordusunun Bakıya yavuqlaşması ilə şəhərin bəzi inqilab müəssisələri tərəfindən hazırlıqlar olmuş, müqavimət üçün təşəbbüslər edilmiş, fəqət müsəlman əhalisi müavinət etmək istəməmişdir. Hökumət süst olmuş, məəttəl qalmışdır. Təşkilatların müqavimət etmək istəmələrinə yerli əhali mane olmuş, şəhərdə cüzi iğtişaş düşmüş, Denikin ordusu da bu iğtişaşdan istifadə edərək şəhərə daxil olmuş və rus bayrağını dikəltmişdir. Hökumət bitərəf qaldığından ona əl vurmamışlar. İstəyirlər ki, ona, bəzi imtiyazat versinlər. Məsələ bununla həll olub getmiş."*

Bu, Batumda nəşr olunan Denikin qəzetəsinin fikri və təsəvvürü nəticəsidir. İştə, onların xəyalı. Əski Rusiya generalları yatanda yuxuda da rahat ola bilməyirlər. Necə ola bilər ki, onlar general ikən əl altında əsgər, ordu olsun, çəkmələrinin altını öpən bir millət olmasın. Onlar gəlirlər və zənn edirlər ki, çəkmələrini öpməyə hazır bir millət vardır. Lakin onu bilsinlər ki, artıq Azərbaycanda çəkmə öpən bir vətəndaş da qalmamış. *(Şiddətli alqışlar)*

Əfəndilər! Onlar öylə düşünürlər ki, kəndi hürriyyət və istiqlalını elan etmiş, bu yolda bütün məsul firqə və heyətlər namından dəfələrlə bu müqəddəs kürsüdən var qüvvəsi ilə, malı ilə, canı ilə hazır olduğunu və istiqlaliyyətini saxlayacağını elan edən bir millət[i] – bir millət ki, mayın 28-də heç bir təhrik və təşviq olmadan, Bakı tarixində misli qeyd edilməmiş bir səmimiyyət ilə küçələrdə bayram edirdi, hətta bayırda görünən çarşablı qadınlar da bu bayramı sevinclə qarşılamışlar və küçələrə çıxmışlardı – böylə bir milləti asanlıqla təhtihakimiyyətlərinə [hakimiyyətləri altına] ala biləcəklərdir. Buradan doğru söylədilər ki, dili xörəyə çatmış bir sənəlik növzad [uşaq] artıq süd yeməz. Bunlar boş söz və bihudə xəyal deyildi. Denikinlər və onun hampaları qalsınlar öz xəyalları ilə və zənn etməsinlər ki, Azərbaycanda öylə xain bir hökumət olar ki, düşmənə müqavimət etməsin; öylə xain olsun ki, Denikin ilə mübarizə edənlərə mane olsun. Mən inanıram ki, mayıs nümayişi həqiqi və səmimi bir nümayiş idi. Əgər qan tökmək lazım gələrsə, millət hazır olacaqdır. Çün, o bilir ki, qan töküb müqavimət etməsə də yenə onun hürriyyətini alacaqlar. Təkrar onu zəlilanə bir surətdə əzəcəklər; o, miskin olacaqdır. O, buna razı olmaz. Miskinliyi qəbul etməz. Hər bir təhlükəni nəzərə alıb çarəni düşünər, səlabətlə [mətanətlə] meydanimübarizəyə çıxar və müəzzəz [əziz] bayrağımızı Azərbaycan sərhədində saxlar. Onlara isə, ancaq boş bir arzu qalar. *(Sürəkli və ümumi alqış)*

Camaat! Əlbəttə, biz bütün təhlükəni təsəvvür etməklə bərabər, qətiyyən onu kiçiltməməliyiz. Və öylə baxmamalıyız ki, bu təhlükə asanlıqla rəf olar [aradan qaldırılar], keçər gedər. Çünki düşməni zəif təsəvvür edən aldanar. Hər kim ki, öz hürriyyətini və istiqlaliyyətini müdafiə etmək istərsə, tədbirli və ehtiyatlı olmalıdır. Ona görə, camaat bütün sinifləri ilə hökumət ətrafında birləşsinlər və hökumətə desinlər ki, millətin istədiyi artıq aydın və müəyyəndir. Əgər hökumətdə süstlük olarsa, Batum qəzetəsinin xəyalına cüzi də olsa ümid verərsə, desin ki, sən bizim hökumətimiz deyilsən. Sənin kimi hökumət tarixdə lənətlərlə yad olunar. Fəqət mübarizəyə hazır hökumət də deməlidir: "Madam ki, məndən bu tələbi edirsiniz, bütün camaat və firqələr var qüvvətlərini, var etimadlarını hökumətə verməlidir. Əgər cüzi tərəddüd göstərilsə, o vaxt sizin adınız əbədiyyən lənətlərlə yad olacaqdır." Bu gündən Parlaman hökumətə səlahiyyəti-kamilə verməlidir ki, öz arasından bir heyət təşkil edib ümumi səfərbərlik, şiddətli qanunlar və düşmənlər əleyhinə müharibə tədarükü görsün. Və sonradan hesab vermək şərtilə xəzinədən lazım olduğu qədər para xərcləsin. Çünki bu gün Dərbənddə oturan və bizim istiqlaliyyətimizi gündə bir mənə ilə teleqraflar göndərib təhdid edən bir qüvvət öylə bir qüvvətdir ki, vaxtilə məşhur bir siyasiyyunun [siyasətçinin] dediyi kimi, Azərbaycan həyatına döndərilmiş bir tapançadır. Nə qədər o tapança bizə tərəf tutulubsa, biz rahat oturammayız. O tapançaya qarşı bizim qalxanımız hazır və mühəyya [hazır] olmalıdır. Keçən dəfə dedim ki, o tapançanın çaxmağına əl atılınca, biz hərəkətə və müdafiəyə gəlməliyiz. İndi biz görürüz ki, çaxmağa əl atırlar. Böylə bir təhdidi görməmək üçün kor olmalıdır. Binaəni-leyh [ona görə], hazırlaşmalı və müəyyən qüvvətlərlə sərhədə qoşmalı və çaxmağa uzanan düşmən əlini bir an əvvəl biləyindən vurmalıdır. *(Alqış)*

Əfəndilər! Mənə öylə gəlir, burada biz, necə ki, əvvəlki natiq dedi, kəndi qüvvətimizi o qədər də kiçiltməməliyiz. Biz Azərbaycan istiqlaliyyətinin tarixini yazırız. Bir mühərririn müqayisəsinə görə, tarix mətbəxə bənzər. Nasıl ki, bir aşpaz mətbəxdə kəndi bişirdiyi aşın ləzzətini pək o qədər də dadmaz, öz zəhmətindən və çox da xoş olmayan mənzərədən mütənəffir olar [nifrət edər], çox zamanlar öz işindən bizar olar, fəqət onun əlindən hasil olan lətif xörək başqalarının hüzuruna çıxar, xörək yeyənlərin vəsileyi-həyatı olar.

Azərbaycan istiqlalını, Azərbaycan tarixini və gələcək səadətini hazırladığımız zaman kəndimizin də tənəffür [nifrət] etdiyimiz və xoşumuza keçməyən bir çox əhvallar var. Bunlara təhəmmül etməliyiz [dözməliyik]. Biz Azərbaycan tarixini hazırlayanlar səy etməliyiz ki, gələcək nəsil bizim əlimizdən çıxacaq asara [əsərlərə] lənətxan [lənət oxuyan] olmayıb, onu rəhmətlərlə yad etsin.

Məmləkətin müdafiəsində süstlük əsəri göstərənlərə lənətlər ediləcək və lənətlər yağdırılacaq o adamın başına ki, burada zəiflik göstərib təslim olmaqdan bəhs eyləsin. *(Şiddətli alqış)*

Əfəndilər! Əgər millətin müqəddaratını kəndi əllərinə alıb onun adı ilə söz söyləyənlər bu gün tərəddüd göstərərlərsə, onların burada yeri yoxdur.

Əgər siz isbat etsəniz ki, bir millətsiniz, vətəninizin müdafiəsində səbat göstərə bilərsiniz, istiqlaliyyətinizi saxlaya bilərsiniz, hər bir təhdid qarşısında təslim olmazsınız, o zaman xaricdən baxanlar sizin müqəddəratınıza laqeyd olammaz, sizin haqqınızdakı fikirlərini təbdil edərlər [dəyişdirərlər]. Madam ki, özünüzü müdafiə etməzsiniz, o zaman başqalarından gilayə etməyə haqqınız yoxdur. Haqsızlıq mövqeyində qalmamaq üçün Azərbaycan bir təni-vahid kimi yekvücud olaraq bütün qüvvətini toplayıb müdafiə etməlidir.

Bu gün bizdən ötrü bir imtahan meydanı açılmış. Burada biz öz dost və düşmənimizi tanıyacağız. Əsil dost o dostdur ki, öz dostluğunu fəlakət günündə bildirər. Zərbül-məsəl deyir ki, yaxşı dost yaman gündə bilinər. Bu gün Gürcüstandan gələn səslər, oradan eşitdiyimiz qardaş səsi bizim yalnız olmadığımızı bildirir və bildirir ki, Gürcüstan bizimlədir. *(Şiddətli və sürəkli alqış. Parlament ayağa qalxaraq nümayəndələr locasında isbati-vücud [iştirak] edən Gürcüstan nümayəndəsini alqışlayır.)*

Əvət... Biz heç bir vaxt cəngü-cidal [dava-dalaş] tərəfdarı olmadıq. Heç bir zaman kimsəyə elani-hərb etmədik. Fəqət istərəm bu mənа ilə təfsir edilməsin ki, hər şeyə təslim olacağız. Biz sülh istəyiriz. Fəqət "Hazır ol cəngə, əgər istər isən sülhü-səlah" [Sülh və əminamanlıq istəyirsənsə, müharibəyə hazır olmalısan] hikmətinin hökmüncə, sülh istəmək üçün bizi məcbur edirlər ki, cəngə hazır olalım. Başımız üzərində təməvvüc edən [dalğalanan] üçrəngli Azərbaycan bayrağı əvəzinə şiddətlə müqavimət görmədən rus bayrağı sancıla bilməz.

Başımız üzərində təməvvüc edən o üç boyalı livayiistiqlalımız [istiqlal bayrağımız] qanlara boyanmadan, bayraqdarları birər-birər qətl olunmadan, qətiyyən enməz. Burada dedilər, həqiqətən, "Haqqın bükülməz qolu, dönməz üzü vardır". Azərbaycan bayrağını endirmək asan işlərdən deyildir. Azərbaycanın şöleyiistiqlalını söndürmək istəyirlər. Fəqət əfəndilər, bir şam ki, haqdan yana heç bad [külək] ilə sönməz! *(Sürəkli və gurultulu alqışlar)*

## TELEQRAF XƏBƏRLƏRİ

Nauen - Roza Lüksemburqun cənazəsi Berlində Landver kanalında tapılmışdır.

**Könüllülər tərəfindən Odessanın işğalı**

Yekaterinodar - Novorossiyskdən xəbər verilir ki, Odessa şəhəri ataman [Nikifor] Qriqoryev qoşunları tərəfindən işğal edilmişdir. Odessada tutulmuş olan bolşevik komissarları asılmaqla edam edilmişlərdir.

**Müttəfiq donanması Odessanı tərk etmişdir**

Odessadan xəbər verirlər ki, bura iskələsində olan ingilis və fransız paroxodları dənizə çıxıb, orada yalnız bir paroxod buraxmışlardır.

**Portəgiz rəisi-cümhuru**

Portəgiz [Portuqaliya] rəisi-cümhuru [prezidenti] Maşadu Sülh Konfrans[ın]a bəyan eyləmişdir ki, öhdəsinə aldığı vəzifəsini tərk edir.

## SÜLH ƏTRAFINDA

**Polşa sərhədi**

Dördlər Şurası Polşa sərhədi məsələsini müzakirə eyləmişdir. Polşa ilə Prussiya arasında sərhəd təşkil etmək üçün xüsusi bir komissiya təşkil edilməlidir. General Loren Fransadan, general Morley İngiltərədən, Ford Amerikadan bu komissiyaya daxil olacaqlardır. İtaliya da öz nümayəndəsini göndərəcəkdir.

**Hollandiya-Belçika məsələsi**

Beş dövlət Xariciyyə naziri Hollandiya və Belçika məsələsini müzakirə etmişlərdir. Belçika arzu edirdi ki, bu məsələ Sülh Konfransında müzakirə edilsin. Amma Hollandiya arzu edirdi ki, bu məsələ öz aralarında həll edilsin. Beşlər Şurası 1839-cu il müahidənaməsinin [sazişinin] müzakirəsini qət eyləmişdir [qərara almışdır].

## QƏZETƏLƏRDƏN

**Əfqanıstanda**

Daşkənddən xəbər verirlər ki, yeni əfqan əmiri Əfqanıstanı müstəqil bir dövlət elan eyləmişdir. Böyləliklə, Əfqanıstanla İngiltərə arasında olan müahidə-namə [saziş] ləğv edilir. Əfqanıstan açıq-açığına İngiltərə ilə hali-hərbdə [müharibə vəziyyətində] bulunur. Bundan əlavə, Əfqanıstan əcnəbi məmləkətlərdə öz diplomasi nümayəndəsini elan eyləmişdir. Halbuki İngiltərə ilə olan müahidəyə [sazişə] görə, Əfqanıstan heç bir dövlətlə əlaqədə bulunmamalı imiş.

**Hindistanda iğtişaş**

Londondan xəbər verilir ki, Amritsar 5 nəfər avropalı qətl edilmişdir. Üsyançı hindular bankı talan etdikdən sonra, oraya cövhər [kerosin] və yağ səpərək bank imarətini yandırmışlardır. Yanğının tələfatı məlum deyildir. K. Tomson tələf olmadan əvvəl tapança ilə bir neçə nəfər üsyançıları öldürmüşdür. Bankda olan bütün sənədlər və ziqiymət [qiymətli] şeylər məhv olmuşdur. Heyətin kəlisası [kilsəsi] dağılmışdır. Bəzi avropalılar artıq müşkülatla xilas olmuşlardır. Bəziləri hinduların evində gizlənmişlərdir. Polis özünü gözəl aparıb bir neçə avropalıları xilas eyləmişdir. Məhəlli [yerli] qoşunlar Lahor və Calandhardan gələn kömək sayəsində üsyanı yatırmışlardır.

Bombeydən xəbər verilir ki, hökumətin ittixaz etdiyi [gördüyü] tədbirlər sayəsində asudəlik bərpa edilmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Ərazi nazirinin 1919-cu sənə Torpaq tənzimatı [şöbəsinin] məxaricatı və smetası təsdiqi haqqında – ki ümumiyyətlə 470 090 rublə edir – bir dəfəlik 150 000 rublə təxsisi [ayrılması] haqqındakı məruzələrindən sonra qət edilmişdir [qərara alınmışdır]:

1) Nazir tərəfindən yeni təsis edilmiş Torpaq tənzimatı şöbəsi smeta və xidmətçilərini təsdiqlə, işin təcili olduğundan dolayı hökumət ixtiyarındakı 20 milyon fonddan 150 000 rublə buraxılsın.

2) Cümhuriyyət Hökumətinin işbu sənənin 24 fevral və 19 mayısdakı qətnaməsi mövcibincə [qətnaməsinə əsasən] təsdiq edilmiş Torpaq tənzimatı şöbəsi müdirliyi və müavinliyi lazımsız olduğu üçün ləğv edilir.

3) Həman şöbə vəzifələrinə lazım olduqca məmurlar təyin etməli.

4) İyun ayının axırınadək torpaq tənzimatını havi [əhatə edən] layihəni Vükəla Şurası təsvibinə [Nazirlər Kabinetinin təsdiqinə] idxal etmək Ərazi nazirinə tapşırılsın.

- Maliyyə və İqtisadiyyə komitəsinin hökumətin aksiz barəsindəki 1918-ci sənə 9 və 21 oktyabr qanununun doğru təfsir [şərh] edilməsi haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Bakıdan Azərbaycanın daxili və yaxud xaricinə aparılan neftə təyin edilmiş aksiz vergisini bütün neft istehsalatına [məhsullarına] şamil etməli. İşbu qətnamə qəbulunadək aparılan neftlər və neft istehsalatından da aksiz almalı.

- Ərazi nazirinin Gürcüstan Hökumətinin Qafqaziya köy təsərrüfatının milliləşdirilmək ehtimalı əleyhinə etiraz etmək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə rədd edilsin.

## TÜRK ALƏMİNDƏ QADINLIQ

İştə, sizə üç kəlməlik bir həqiqət ki, dərinliyində möhməl [xaraba], pərişan bir səhnə görürsünüz.

Türk aləminin yaxın və uzaq, qaranlıq və işıqlı mühitlərində "qadınlıq" sizə iki çöhreyi-fəcaət [fəlakətli, faciəli iki çöhrə] ərz edir: ya Qüruni-vüsta [Orta əslər] qəlibini, zehniyyətini eynən yaşadan mütəəssib [təəssübkeş] mühafizəkarlıq, yaxud bir az əcnəbi təhsili görməklə onların adatına məclub olan müfrit təcəddüdpərəstlik [onların adətlərinə özünü qapdırmış ifrat yenilikçilik].

Binaənileyh [ona görə], zamanın təbəddülünü [dəyişməsini], əsrin ehtiyaclarını təqdir etməyərək, maziyə [keçmişə] sımsıxı sarılanlar nə qədər müzirr [zərərli] isə, müəssirati-maziyyəni [keçmişin təsirlərini] cəffəlqələm [düşünmədən, tələm-tələsik] inkar edərək ruhdan ziyadə parlaq görünən şəkili qəbul edənlər də o qədər, hətta daha ziyadə təhlükəlidirlər.

Şu halda, ölmüş bir mazinin davamından başqa bir şey olmayan mühafizəkarlıqla, Avropanın sürəti-tərəqqi və inkişafını bizim tədənnimizlə [alçalmamızla, geriləməmizlə] qarşılaşdıraraq səbəblərini şəkildə arayan kutəhbin [dar görüşlü, uzağı görə bilməyən] təcəddüdpərəstlik əsla çıxmayan yollarmış. Çünki meydanda zaman-zaman vəxim ərazını [təhlükəli simptomlarını] göstərən müzmin [xronik] xəstəlik hələ mövcud və dəhşətlə icrayi-təxribat etməkdədir. Bunun üçün yenidən xəstəliyi təşxis [təyin etmək, diaqnoz qoymaq] və onun müvəllidini [onu meydana gətirən səbəbi], seyrini [gedişatını], təkamülünü tədqiq edərək, reçetəmizi [reseptimizi] tənzim etməkdən və bu reçetənin möhtəvi olduğu [ehtiva etdiyi] əlacları kamaliəzmlə içirməkdən başqa çarə yoxdur.

Fəqət, əcəba, bu bədbəxt aləmin xəstəliyi[ni] təşxis və tədavi edəcək doktorlar kimlərdir? Bişübhə və bilatərəddüd [şübhəsiz və tərəddüdsüz] söyləyə bilərəm ki, ən birincisi din (kitab) müctəhidləri – möhtərəm mollalarımızdır. Sonra mütəfəkkirlərimiz, şairlərimiz, ədiblərimiz, mühərrirlərimizdir.

Müctəhidlər bir əlini Kitabi-mübinə, bir əlini də həyata qoyaraq bu iki varlığı birləşdirəcək qüvvətlərdir ki, dərhal vəzifəyə, fədakarlığa şüru [başlamaq] zamanı gəlmiş və keçmişdir. Yoxsa, bu şəkildə qaldıqca, kitab həyatı inkar etdikcə, həyat kitaba uymadıqca, hərcmərclik əbədidir və daima yek-digərini [bir-birini] nəfy [inkar] edəcəkdir.

—

"Beşiyi sallayan əllər, dünyaya hökm edərlər" deyən böyük mütəfəkkir pək böyük bir həqiqəti meydana atmışdır. Şübhəsiz məlumdur ki, ictimai mühit ailədən doğar. Daha açıq bir təbirlə [ifadəylə], ictimai mühit bir çox ailələr mühitlərinin məcmusudur. Binaənileyh, ictimai həyatın məbdəsini [başlanğıcını] ailədə görürüz. Ailənin iki rüknündən [təməlindən, istinadgahından] birisinə etina edilib, digəri ehmal edilərsə, məbdədə böyük fənalıq edilmiş olar. Şu halda, qadınlar da tibqi [eynən] erkəklər kimi tərbiyə və təlim görməlidirlər. Çünki bir ailədə babanın [atanın] kiçik çocuğu üzərində tərbiyə xüsusundakı təsiri bəzən pək az olur. Yəni öylə zamanlar olur ki, pədər [ata] bəzi əsbabi-maddiyyə [maddi səbəblər] dolayısı ilə övladının tərbiyəsi ilə pək müqəyyəd olammaz [muğayat ola bilməz, məşğul ola bilməz]. Fəqət ana yavrusunun beşiyini sallarkən, onun istiqbalını [gələcəyini] qurar, onun müqəddəratını təyin edər. Məktəb yaşına gəlincəyə qədər çocuğun ruhunda öylə izlər vücuda gətirər, xatirəsində öylə naxışlar işlər ki, artıq nə məktəb, nə həyat onları pozammaz. Məktəbdə müəllimin çocuq üzərindəki təlqinləri əgər anasının təlqinlərinə müariz [zidd] isə dərhal çürük meyvə kimi süqut edər. Lakin təvafüq edərsə [uyğun gələrsə] qüvvətləşər, kökləşər və əbədiləşər...

Bundan üç ay əvvəl idi. Heç unutmayacağam və unutmaq istəməm, "türklərdən intiqam" haqqında bəstələnmiş matəmli bir şeiri bir erməni qadını beş yaşındakı bir çocuğu ilə bərabər təğənni edirdi [oxuyurdu]. Çocuq oxurkən şeirin ruhunda mündəmic [cəm olmuş] sərairi [sirləri], mənanı pək gözəl anladığı bütün övza və ətvarı [hal və hərəkətləri] ilə ifham edirdi [bildirirdi]. Çünki anası bu şeirlə ona neyçün yaşayacağını anlatmış və onun məfkurəsini parlatmış olurdu. Artıq o çocuq nəzərində məfkurəsini yıxacaq bir məktəb, bir aləm mütəsəvvər [təsvirə gələn] deyildir. Məfkurəsinə müxalif hisslər təmas edəndə parçalanar və süqut edər. Ancaq müvafiq duyğulardır ki, məfkurəsini bəslər və ruhunda eşq sərsərləri [fırtınaları] xəlq edər.

Nə vaxt ki, biz ailənin pək qiymətli bir rüknü olan qadını yalnızca şəhvani hisslərimizin tətmininə lazım deyə tələqqi etməyib, bütün varlıqlarla erkək qədər əlaqədar, yarının həyatında pək mühüm yaradıcı üzv olduğunu təqdir və təslimdə tərəddüd etməzsək, qadınlıq qurtular və yüksələr.

İştə, gərək ərz etdiyim vəchlə [ifadə etdiyim kimi], tərbiyə xüsusunda oynadığı pək böyük rol, gərəksə həyatın, həyati-ictimaiyyənin icab etdirdiyi [zəruri hala gətirdiyi] iştirakın qiymət və əlzəmiyyəti [vacibliyi] nəzəri-diqqətə alınarsa, qadınlıq aləminə verilən əhəmiyyətin həqiqəti təzahür edər.

Bu son hərb bizə hər şeyi göstərdi. İştə, bir dənə maddi misal: Türkiyədə, bilxassə İstanbulda qadınların həyati-iqtisadiyyəyə və məmuriyyətlərin bəzi əqsamına [qisimlərinə] iştirak və intisabından [qoşulmasından] dolayı bu hərb əsnasında fəaliyyəti-iqtisadiyyə və hökumət işləri durmadı. Fəqət bütün məsləklər haqqında bunun əksini təsəvvür ediniz və fərz ediniz ki, dövlətin bütün məmur, doktor, tüccar əfradı [fərdləri] sərhədlərdə müdafieyi-vətənlə məşğul, şəhərlərdə, kəndlərdə həp qadınlar və çocuqlar qalmış. Bunlar da doktorluq, ticarət, qanun bilməyirlər!

İştə, o vaxt bütün həqiqətlər pək müdhiş fəcaəti ilə gözlərimizin önündədir. Yetişir zülmət, əl verir cəhalət!

# «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 iyun (Cümə axşamı günü) tarixli 202-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Mən neyçün doğduğunu, neyçün yaşadığını, neyçün və nasıl yaşayacağını, həyatın məna və məfhumlarını bilən, ictimai vicdanın bütün iradələrinə sahib olaraq mədəni həyatda erkəklə yan-yana, mütəsanidən [bir-birinə dayaq olaraq] irəliləyən, yaşayan və yaşadan vəqur [vüqarlı], əzmkar bir qadınlıq istəyirəm.

*Həsən M. oğlu*

## CANLI DUYĞULAR!

Əvət, öylə bir duyğu ki, 15 dəqiqəlik pək az bir zamanda vüqua gəlmiş. Ehtimal ki, bəzilərimizə şübhəli olan pək qiymətli bir taqım həqiqətləri günəş kimi göstərən bir duyğu... Bu millət hürr və müstəqil yaşamağa layiqmidir, deyə bizə veriləcək bir suala hər kəs mənim kimi rəyül-eyn [öz gözümlə] müşahidə etdiyim həqiqətə vaqif olsaydı, istər-istəməz – vəlәv ki [əgər, hətta] düşmənimiz belə olsa – ancaq bu cavabı verməyə məcbur olardı: layiqdir, həm də əbədiyyən...

Siyasi tərtib edilən tətillərdə iştirak etməmək, tarixi və milli bayramlarımızda böyük şənliklər yapdığımızla müstəqil yaşamağa hələ qabiliyyətimiz olmadığını iddia edənlər deyə bilərlər ki, bu millətin başında böyükləri olmasaydı, kor-koranə tətilə iştirak edilərdi. Kəza [eləcə də], böyüklər dini və milli bayramlarda şənlik yapılmasını elan etməsəydi, bu millətin böylə tarixi günlər ağlına belə gəlməzdi. Xülasə, hələ boyunduruq altında əzilməyə məhkum olduğumuzu haqsız olduqları halda iddia edə bilər, nasıl ki, edirlər.

Lakin mən müstəqil yaşamaqlığımıza haqqımız olduğunu millətin duyğusu ilə isbat edəcəyəm. İddiamda haqlı olduğumu mən deyil, istiqbal [gələcək] göstərəcəkdir.

Əvət, 15 dəqiqəlik bir duyğu! Hərarətli bir gün, hər kəs iş və güclə məşğul olduğu bir zamanda, heç kimsənin bir şeydən xəbəri olmadığı bir anda dəniz cəhətdən və dərindən top sədaları eşidilir. Sakitanə bağçada oturarkən vücudumu qeyri-ixtiyari bir həyəcanın qapladığını hiss edir, birdən-birə müharibəyə başladığımızı təsəvvür edirdim.

İştə, bu sırada yanımdan keçən 5-6 yaşlarında qız, erkək iki islam balasının başları açıq, yalın ayaq olduqları halda "Azərbaycan topları atılır" deyərək kamali-məsərrətlə [böyük sevinclə] dəniz cəhətə doğru qoşduqlarını [qaçdıqlarını] gördüm. 70 yaşında bir pir [yaşlı] xanımın da oruclu olduğu üçün ahəstə-ahəstə gedərək: "İlahi, əzəmətinə səcdə edirəm ki, bizə bu mübarək günləri göstərdin" cümləsini tələffüz etdiyini eşidir, münacat [dua] edərəkdən nurani bir çöhrə ilə top sədalarının gəldiyi tərəfə baxdığını görürdüm. Bu saf və canlı lövhələr qarşısında kainatın məni təbrik etdiyini, "Yaşayacaqsınız, həm də əbədiyyən..." deyəcəklərini hiss edirəm, istiqbalıma həqiqi bir mömin kimi iman və etiqad edirdim.

Qarşımda topları sayan ixtiyara: "Atam, nasıl, davaya gedəcəkmisən?" deyər-deməz dəruni [ürəkdən gələn] bir lisanla: "İnşallah, əfəndim, inşallah, hər kəsdən qabaq" qəti və qısa cavabını aldım. Bağçada dolaşan xaricilər də kiçik çocuqlarının əlindən tutduqları halda iri-iri addımlarla evləri istiqamətinə doğru irəliləyir. Üzlərində yalnız şu sözlər oxunurdu: "Həqiqət məzara girməyəcəkdir! Yaşayacaqsınız!"

Ya Rəbbi, qüvvət və qüdrətinin heyranıyam. Nədir şu gördüyüm hərəkatdakı nisbətsiz təzad? Bizdə sükunət və mətanət, digərlərində isə qorxu və təlaş...

Vəlhasil, dostuma da baxsam, düşmənimə də baxsam eyni sözləri görür, gözlərimi qapasam eyni nəqəratı eşidirdim: "İnan istiqbalına imanın qədər!"

İştə, iddia etdiyim, xəyal olmayan bir həqiqət, bilavasitə millətin əmaqi-ruhunda [ruhunun dərinliklərində] doğan bir duyğu: "Müstəqil yaşamaq istəyirəm və yaşayacağam!"

Haqsız və insafsız müddəilərə [iddiaçılara; düşmənlərə] soruram [soruşuram]: "Bu milləti tətilə iştirak etdirməyən, tarixi günlərini yada salıb da şənlik yapdırdan bir qüvvət hər şeydən müqəddəsədd [hesab] etdiyi, son damla qanına qədər mühafizəyə əzm etdiyi istiqlalından onu vaz keçdirə bilərmi?"

Qəlbinizdən "Xayır, qətiyyən xayır" cavabını şübhəsiz verirsiniz. Lakin inadçı olduğunuz üçün dil ilə təsdiq etmək istəməyirsiniz. Lakin əmin olunuz ki, "Ölərsə şəhid, yaşarsa qazi" dini düsturuna iman edən biz müsəlmanlar, icab edərsə [lazım gələrsə], qadınlarımızla bərabər ölümlə çarpışıb, çarnaçar sizə həqiqəti etiraf etdirməyə əhd etmişik.

Ey əsil azərbaycanlılar! Beşikdəki yavrularımızın belə "İstiqlal, istiqlal" deyərəkdən təbəssüm etdiklərini, "Ölmək var dönmək yox" avazi-qəhrəmanənəsi ilə, şəci [şücaətli, cəsur] və qırılmaz həmlələrimizlə nankor və namərd düşmənlərimizə göstərəlim. Böyüklərimizin sözünü məzarda yatan babalarımız belə bu gün təkrar edir və bizə deyirlər ki:

*Arş, əsgəri-islam, ulu Kəbən gediyor, arş!*
*Əzmində Məhəmməd sənə, Allah sənə yoldaş...*

*Ə. Bədi'*

## BAKI XƏBƏRLƏRİ

**Məscidlərdə**

Ramazanül-mübarək münasibətilə şəhərin bütün məscidlərində hər gün böyük izdihamla camaat namazı əda edilməkdədir. Namazdan sonra məscidlərdə məşhur vaizlər tərəfindən əhval və övzayi-zamanəyə dair böyük və'zlər və nitqlər iradı ilə [nitqlər söylənməklə], əhali vətən müdafiəsinə dəvət edilir. Şeyxülislam ilə müfti əfəndi həzrətləri dəxi məscidləri gəzib hər gün bir məsciddə moizə və nitqlər irad edirlər. Əhali artıq dərəcə şövq və həvəslə məscidlərə gəlir, böyləliklə axır günlər Qasım bəy, Təzəpir və Cümə məscidləri əhali ilə dolub, külli miqdarda camaat həyətdən qulaq asmağa məcbur olur. Məscidlərin qadınlara məxsus hissələri dəxi dolub, bir çoxlarına yer olmayır.

**Qulluqdan əzl**

Bakı qubernatorunun binagüzarlığı [sərəncamı] ilə 6-cı uçastok pristavı Ağabəy Misrixanov öz xidmətindən sui-istifadə etdiyi üçün əzl edilmişdir [kənarlaşdırılmışdır].

**Adresnı stol idarəsində**

Daxiliyyə Nəzarətinə təqdim edilən məlumata görə, Bakı Adresnı stol idarəsində böyük sui-istemallar olduğu kəşf edilmişdir. Bundan naşi [buna görə], məzkur [deyilən] idarədə olan məmurlardan bir çoxu təhti-məsuliyyətə [məsuliyyət altına] alınmışlardır.

**Ev Sahibləri İttifaqında**

Mayın 3-də Bakıdakı Ev Sahibləri İttifaqının ümumi iclası vaqe olub qərardad edilmişdir ki, Sentrodom [Mərkəzi Ev Komitəsi] cənbindəki [nəzdindəki] mənzil komitəsinin ev sahiblərinə zərərli bir surətdə hərəkət etdiyindən, bundan sonra həman komissiyada iştirak edilməsin və hökumətə müraciətən ev sahibləri ilə kirayənişinlər arasında etilaf [razılıq] məsələsi tərəfeynin [hər iki tərəfin] özünə mühəvvəl edilsin [tapşırılsın]. Hökumət mənzil barəsində yenidən qanun vermək istəsə, o vaxt İttifaqın şurasına ev sahiblərinin nəfinə [xeyrinə] çalışmağa icazə və imkan verilsin.

**Ziyalılar İttifaqı Şurasında**

İyunun 8-də Bələdiyyə İdarəsi salonunda Bakı və Ətrafı Zəhmətkeş Ziyalılar İttifaqı Şurasının fövqəladə iclası vaqe olmuş və əhvali-hazirə haqqında mühüm məsələlər müzakirə edilmişdir. İclas Sultanməcid Qənizadənin təhti-sədarəti [sədrliyi] ilə açılıb mühəndis Ağa Axundov şimaldan Denikin ordusunun əks-inqilab və irticai hərəkatı barəsində müfəssəl surətdə məruzə oxumuşdur. Məruzədən sonra Qəniyev, [Seyidəli] Seyidov, Xəlil İbrahim [İbrahimov], Piri Mürsəlzadə, [Camo] Cəbrayılbəyov və qeyriləri hərarətli nitqlər irad edərək, ziyalıları bir təni-vahid kimi [hamı bir nəfər kimi] birinci cərgədə istiqlaliyyət və millət yolunda çarpışmağa dəvət etmişlərdir. Bir çox müzakirədən sonra, iclas Azərbaycan istiqlaliyyəti üzərinə qəsd edən Denikin ordusu ilə hökuməti mübarizəyə dəvət və bu yolda son qətrə qanına qədər çarpışacağını və bütün qüvvəsini toplayıb hökumətə müavinətdə bulunacağını vəd və yəmin etmək məzmununda bir qətnamə çıxarmışdır.

**Bələdiyyə İdarəsində**

Qanlıtəpə ev sahibləri Bələdiyyə İdarəsinə müraciətən məlum etmişlər ki, Bələdiyyə İdarəsi tərəfindən onlara 1918-ci sənəsi üçün vergi və zibil pulu kağızları gəlmişdir. Halbuki 1918-ci sənədə onların evləri bolşeviklər tərəfindən həcz [müsadirə] edilib, bolşevik qaydası üzrə, yəni kirayənişinlər pul vermədiyi kimi saxlanırdı. Əlavə, 1918ci sənədə Bələdiyyə İdarəsinin atları olmadığı üçün o məhəllələrdən heç zibil-filan təmizlənməmişdir. Ev sahibləri rica etmişlər ki, evlərinin dağılmasını və verdiyi mədaxili nəzərə alaraq Bələdiyyə İdarəsi 1918-ci sənə vergisini fəsx [ləğv] edərək 1919-cu sənə vergisini alsın.

## MÜSƏLMAN ZİYALILARI HAQQINDA

*Müsəlman ziyalılarının fövqəladə iclasının qətnaməsi*

Bütün millətlər böyük bir fəlakət və təzəlzülə [sarsıntıya] uğradıqları zaman, əsrlərdən bəri çar jandarmlarının təpikləri altında xırpalanan kiçik millətlər istiqlal bayrağını Rusiya çar istibdadının saray xarabaları üstündə dikdilər.

Bir sənə zərfində kəndi müqəddəratını əllərinə alaraq kəndilərini müstəqil idarə edə bilmələri bu millətlərin sərbəst və müstəqil yaşamağa qadir və haqlı olduğunu sübut etdi. Bu sənə, çar istibdadı altında ziyalılarımızın çalışmalarının təsirsiz qalmalarını eyicə bütün kainata göstərdi. Bu sənə göstərdi ki, bizi təhtihimayəsinə [himayəsi altına] almaq istəyən polad yumruqlu, hiyləgər və qanlı cahan siyasətində böyük təcrübələr əldə etmiş və bizləri məhv etmək siyasətini yürüdən əcnəbilər torpağımızdan dəf olmazsa, kəndi müqəddəratımızı tamamilə əlimizə alaraq istiqlaliyyətimizi mühafizə və müdafiəyə qadir olammayacağız.

Şirin vədələrinə inandığımız "mədəniyyət gəzdiricilərə" təşəkkürən, bu gün çar generalları Rusiya Könüllü ordusu tərəfindən gələn müdhiş bir fəlakətlə istiqlaliyyətimizə rubəru [üzbəüz] durmuşdur. Böylə ağır bir zamanda ziyalılar bütün kainata xitabən uca səslə deyir:

1) Ziyalılar camaat qüvvəsinin önündə vətən və millətini müdafiə və mühafizə edəcək, bütün qüvvətini xalq içində təşkilat yapmağa sərf edəcək.

2) Hökumətimizi bu mübarizəyə dəvət edib ona müavinət edəcəyini vəd edir.

3) Daxildə [baş] qaldıracaq əksinqilab qüvvəsi ilə qətiyyən çarpışacaq.

4) Bu mübarizədə Şimali Qafqaziya müsəlmanlarına, Gürcüstana və ümum Qafqaziya demokratiyasına öz müttəfiq əlini uzadacaqdır.

5) Ziyalılar İttifaqı hökumətdən ümumi səfərbərlik elanını tələb edir. Qoy, istiqlaliyyətimizin düşmənləri bir kərə anlasın ki, onlar sərhədimizi ancaq cəsədlərimizin üzərindən keçə biləcəklər.

6) Avropa imperialistləri tərəfindən kiçik millətlərin istiqlaliyyəti əleyhinə olan təcavüzləri xüsusunda ümumi cahan demokratiyasına bir müraciətnamə hazırlayacaqdır və bu müraciətnamədə onların bu yolda yardım etməsini xahiş edəcəkdir.

Qəhr olsun cahan imperializmi!

Yaşasın müstəqil Azərbaycan!

Yaşasın fəth və zəfər! Məhv olsun Denikin və onun müttəfiqləri!

Yaşasın Rusiyanın böyük inqilabı!

## MÜTƏƏLLİMLƏR [TƏLƏBƏLƏR] QURULTAYI

*6-cı iclas, 8 iyun*

Növbədəki məsələlər:
1) Təbriknamələr və daxil olmuş kağızlar;
2) Məktəb məsələsi barəsində məruzə;
3) Bəratülqövllərin [protokolların] oxunması;
4) Cari məsələlər.

İclas Müqbil İbrahimzadənin təhti-sədarəti [sədrliyi] ilə və Məlikməhəmməd Məlikzadənin katibliyi ilə açılır.

Birinci sırada təbriknamələrin oxunması iclas tərəfindən qərara alınır. Təbriknamələr Tiflis Mütəəllimləri Mərkəzi İcra Komitəsinin və Tiflis Müsəlman Gəncləri Cəmiyyəti tərəfindən göndərilmiş.

Qazax nümayəndəsi heyəti-rəyasətə ərzi-hal təqdim edərək, ona üç günlük maaş verilməsini tələb edir. İclas Qazax nümayəndəsinin Bakıda qulluq etdiyinə görə maaş verilməsini lazım görməyir.

Məktəb məsələsi barəsində Süleyman Məlikzadə məruzə oxuyur. Məruzə oxunduqdan sonra iclas edadi məktəblərdə ərəb lisanının tədərrüs olunmasını [öyrədilməsini] əlavə edir.

Qurultay həll ediləcək məsələləri bitirdiyinə görə, bəratülqövllərin oxunmasına şüru edir [başlayır]. Birərbirər oxunduqdan sonra heyəti-rəyasət bəratülqövllərdə kəndi imzasını vəz edir [qoyur].

Cari məsələlərə baxıldıqdan sonra, Zəki Pepinov sabiq Mərkəzi Komitənin sədri Həmid Məhəmmədzadə haqqında gözəl bir nitq irad edir. Nitqində Pepinov ikinci qurultayın nə dərəcədə əhəmiyyətli olduğunu təsvir edərək, Həmid Məhəmmədzadəyə, göstərdiyi fəaliyyəti qarşısında cəmi nümayəndələr tərəfindən izhari-təşəkkür edir. Böylə bir mövzuda Həmid Məhəmmədzadə nitq söyləyir. Natiq yeni komitə təşkil edilənə qədər sabiq komitənin işlərini büsbütün kəndi öhdəsinə almasını bəyan edir.

İclası qurultayın sədri İbrahimzadə kəndi nitqi ilə xitam etdi.

## FƏHLƏ HƏYATINDAN

- İyunun 8-də Belı-qorodda [Ağ şəhərdə] ümum müsəlman əmələlərinin [fəhlələrinin] mitinqi vaqe olub, Denikin ordusunun Zaqafqaziyanı təhdidi məsələsi müzakirə edilib, müttəhidülqövl [yekdilliklə] qərardad edilmişdir ki, hökumətdən qara qüvvələr əleyhinə mübarizədə bulunub və İngiltərə Komandanlığından ikiüzlü siyasət apardığı haqqında izahat istənilsin. Bununla bərabər, əmələlər son nəfəslərinə qədər Azərbaycan istiqlaliyyətini müdafiə və mühafizə edəcəyi[ni] vəd və yəmin etmişlərdir.

- Türk Ədəmi Mərkəziyyət firqəsi "Müsavat"ın Belıqorod şöbəsi sədrliyinə Əmanulla Hüseynzadə seçilmişdir.

- 2-ci uçastok neft mədənlərinin müsəlman əmələləri həman mədənin müdiri Georgi İvanoviçin bəd hərəkətindən "Müsavat" firqəsinə şikayətdə bulunmuşlardır. Firqə həmin şikayəti Məsai Nəzarətinə [Əmək Nazirliyinə] göndərib, müdirin fəna hərəkatına sədd qoyulmasını ciddən tövsiyə etmişdir.

- "Müsavat" firqəsinin Nardaran kəndi şöbəsinin müavini-sədri Paşa Kərbəlayi Mahmud oğlu Zeynalzadə bu günlərdə vəfat etmişdir. Mərhum çoxdan bəri millət və vətəni uğrunda işləyib böyük fəaliyyətlər göstərmişdir. Son bir il zərfində ənvai [cürbəcür] zəhmətlərlə işləyib və müharibələrdə böyük məharət və rəşadət göstərmişdir. Mərhumun yerinə Zaki Kərbəlayi Məcid oğlu seçilmişdir.

**Məşqətədə**

Məşqətə [Maştağa] kəndində hər gün məscidlərə böyük izdiham cəm olub və camaat namazı əda edilməkdədir. Namazdan sonra Hacı Miribrahim Axundov əhvali-zamanəyə dair fəsih və bəliğ [səlis və təsirli] nitqlər irad edib [nitqlər söyləyib], əhalini Azərbaycan istiqlaliyyəti ilə aşina edib və müdafiəsinin şər'ən [şəriətə görə] vacib olduğu haqqında bir çox dəlillərlə isbat edir. Başqa kəndlərdə dəxi bu qərar üzrə camaat namazı və moizələr olur.

**Mirzoyev mədənində**

İyun ayının 10-da Balaxanıda Mirzoyevin mədənində Mustafa Dərgahqulu oğlunun sədarəti və Ağabala Quluzadənin katibliyi ilə vaqe olan əmələlər iclasında Məqsud Mustafa oğlunun təklifinə görə qət edilmişdir ki, Kəndlilər İttifaqına verilən azuqədən əmələlərə verilməsi xahiş edilsin.

## AZƏRBAYCANDA

**Salyandan**

Xüsusi müxbirimizdən:

Salyan mübadileyi-əmval [mal mübadiləsi] komisyonu şimdiyə qədər kəndi işində məşğul bulunur. Bu günlərdə komisyon rəisi Məcid Rəcəbov əfəndinin və bəzi əşxasi-möhtərəmənin [möhtərəm şəxslərin] fəaliyyəti nəticəsi olaraq Salyanın füqəra qismi miyanında [kasıb əhalisi arasında] sabun, mənsucat (manufaktura), çay təqsim edilmək [paylanmaq] üçün Maliyyə Nəzarəti-cəliləsi tərəfindən müsaidə edilmişdi. Binaənileyh [ona görə], sərvətdarlar [varlılar] müstəsna olmaq üzrə, hər bir nəfərə 4 arşın mənsucat, ¼ sabun və ¼ çay verilmişdir. Təqsimat hənuz bitməmişdir. Bu babda fəaliyyət ibraz edən zəvata bilümum [fəaliyyət göstərən şəxslərə ümumiyyətlə], Məcid bəy Rəcəbov və Mehdi Bədəlov əfəndilərə bilxüsus [xüsusilə] ərzi-təşəkkür, bəyani-imtinan eyləriz [minnətdarlığımızı bildiririk]. Bundan maəda [bundan başqa], Məcid bəy əfəndinin fəqirlərə məccani [pulsuz] olaraq bir çox libaslıq təqsim etməsinə qarşı ayrıca izhari-şükran ediriz.

*[Rüstəm] İskəndərzadə*

**Quldurlarla mübarizə**

Cavad uyezd naçalnikinin [qəza rəisinin] ricası mövcibincə [əsasında], məzkur [deyilən] uyezd dairəsində İran sərhədini quldurlardan mühafizət etmək üçün 200 nəfərdən ibarət bir qarovul dəstəsi təşkil edilməsinə Daxiliyyə Nəzarəti tərəfindən icazə verilmişdir. Məlum olduğu üzrə, həman dairədə axır vaxtlar İran quldurları Şahsevənlər dəfəatla [dəfələrlə] hücum edərək dinc əhalini narahat edib, böyük qətl və qarətlərdə davam edirlər. Əhali özü quldurlarla mübarizə edirsə də, lakin iş vaxtı olduğundan, onlar çox vaxt müvəffəq olammayıb böyük xəsarətə düçar olurlar. Qarovul dəstəsi təşkil edildikdən sonra quldurların hərəkatına xitam veriləcəkdir. Hər qarovulçuya ayda min rublə məvacib təyin edilmişdir.

**Bərdədən**

Bu may ayının 28-ci günündə Azərbaycan Hökumətinin səneyi-dövriyyəsi [ildönümü] münasibətilə Cavanşir mahalının qazısı Axund Mirzə Cabbar bəy binagüzarlığı [təşəbbüsü] ilə həman gün Bərdə bazarında vaqe olan dükanlar bağlandı. Dükanların qabaqları və lazım olan yerlər milli bayraqlarla bəzənib müzəyyən oldu və habelə məktəb şagirdləri azad olunub camaat kamali-bəşaşət [böyük bir şadlıq] və təntənə ilə küllən [hamılıqla] və məktəb şagirdləri öz müəllimləri ilə cəmən [birgə] Bərdə məscidinə cəm oldular. Bədi-azan [azandan sonra] məzbur [adı çəkilən] qazı cənabları minbərə çıxıb dəlaili-əqliyyə və nəqliyyə ilə [əqli və nəqli dəlillərlə; məntiqə və elmə söykənən dəlillərlə] islam millətinin ittifaq etməyini həməvəqt [daim] hər bir müsəlmana fərz və vacib olduğunu bəyan edəndən sonra, ümum milləti-islama əsgər verməyin vücubunu və lüzumunu təfhim [anladıb] və təbliğ edib, hər bir şəxs beqədri-imkan övladını ciddü-cəhd ilə öz din və namusunu və irzini mühafizət qılmaq üçün əsgər verməyə camaatı tərğib və təhris qıldı [rəğbətləndirdi və təşviq etdi]. Pəs [sonra], hökumətimiz Azərbaycanın bəqası [daimi olması] və davamı xüsusunda Xudavənditaala dərgahından istidalar [dualar] etdi və camaat dəxi uca səslə alqışlayıb aminlər dedilər. Pəs, camaat məsciddən çıxıb o gün axşama kimi eyş və işrətə [yeyib-içməyə, əyləncəyə] məşğul oldular. Xudavəndi-aləm belə ruhanilərdən razı olsun ki, fikirləri həmişə milləti hidayətə sövq etməkdir.

Yaşasın milləti-islam, yaşasın Azərbaycan Hökuməti!

*Məşhədi Mehdi Şərifov*

## AZƏRBAYCANDA YAŞAYAN SƏNƏTKARLARIN NƏZƏRİ-DİQQƏTİNƏ

İşbu sərlövhə ilə "İstiqlal" qəzetəsinin 24 mayıs tarixli 16 nömrəli nüsxəsində sənətin və o yolda çalışmağın lüzumundan bəhs etməklə bərabər, yoldaşlarımıza sənətkarlar qurultayı dəvət etmək xüsusunda yazıb bildirəcəyimi vəd etmişdim. Gəncə sənətkarlarının lazım bildikləri qurultayı cümhuriyyətimiz daxilindəki bütün həmkarlar da vacib sanacaq, alqışlayacaq zənn edirəm. Lakin buna ölkəmizin hər nöqtəsində bulunan yoldaşlar hazırdırlarmı? Zənnimcə, Gəncədə, Bakıda hazırlıq olsa da, Şəki, Qarabağ, Qazax kimi kiçik şəhər və qəzalarda sənətkar yoldaşlarımızın ittifaqları yoxdur. Əvvəl kərə ittifaqlar düzəltmək, sonra qurultay çağırmaq gərək.

Gəncə Sənətkarlar İttifaqını aşağıdakı üsul ilə təşkil etmişiz.

Gəncədə 25 qisim sənət var ki, hər qisim sənət sahibləri toplanaraq içlərindən üç vəkil intixab etməklə [seçməklə], bütün sənətkarlar 75 nümayəndə seçmişlər. Həmin 75 nəfər nümayəndələr bir yerə toplanıb sədr, müavini-sədr, katib, xəzinədar və müfəttişdən ibarət bir idarə, hər komissiya üç zatdan mürəkkəb [ibarət] olmaqla Maliyyə, Maarif, Sülh komissiyaları intixab etmişlər. Bu hesabla idarə və komissiyalarda işləyənlərin ədədi 14 nəfər olur.

İşləməyinə gəlincə, həftədə iki gün idarə açıq olur və bir gün idarə üzvləri yığışır və cümə günləri bütün sənətkarları təmsil edən 75 nəfər iclas və kəndi sənət və işlərinə dair məsələlərdən müzakirə edirlər.

İştə, sənətkar yoldaşlarımıza bir nümunə. İttifaq təşkil etməyən yoldaşlarımızdan hər halda təşkilat yapmalarını rica edib yaxın vaxtda çağırılacaq qurultay barəsində Gəncə Sənətkarlar İttifaqı idarəsi ilə müxabirələrini [əlaqə saxlamalarını] umarız. Yoldaşlar qurultay məsələsi xüsusunda məktub və teleqrafla lütfən bunu bildirməlidir:

1) Qurultayı harda çağırmaq.
2) Nə zaman çağırmaq.

Bu sualların cavabını aldıqdan sonra ümumi rəyin əksəriyyət tərəfinə əməl edər, arzusunda bulunduğumuz qurultaya nail olarız.

Müxabirə üçün ünvan: Gəncə, Sofular məhəlləsində Adil xan Ziyadxan cənablarının mülkündə İttifaq müfəttişi Məhəmmədəli Sadıq oğlu.

Tanrıdan ümum yoldaşlara müvəffəqiyyət dilərəm.

*9 haziran 1919*
*Gəncə Sənətkarlar İttifaqı sədri:*
*Məşhədi Yusif Fərzixanov*

## GÜRCÜSTANDA

**Gürcüstan və Azərbaycan**

Gürcüstan ilə Azərbaycan arasındakı hərbi müqavilənamə söyləndiyinə görə bu yaxınlarda imza ediləcəkdir. Hər iki tərəfin müsəlləh [silahlı] qüvvələrinin bir baş komandana tabe olacaqları arzu və təsəvvür edilir.

**İngilislərin Qafqaziyadan getməsi**

Gürcüstan Xariciyyə naziri İngiltərə Komandanlığından rəsmi surətdə məlumat almışdır ki, İngiltərə əsgərlərinin Qafqaziyadan təxliyəsi iyunun 12-də deyil, iyulun 15-də başlanacaqdır.

## İZHARİ-TƏŞƏKKÜR

**1**

Möhtərəm müdir əfəndi!

Rica olunur bizim bu izhari-təşəkkürümüzə "Azərbaycan" qəzetəsinin bir sütununda yer verəsiniz.

Azərbaycan Cümhuriyyətinin İstiqlal bayramı münasibətilə 28 mayısda Ramanada, tarixi bir qalanın bəzənməyi üçün "Müsavat"ın Ramana şöbəsi həmin kəndin dairəsində qərar tutmuş Şəmsi Əsədullayevin mədənlər müdiri Məşhədi Hüseyn Səfərəliyev, Fərəc bəy, Məşhədi Hüseyn Məlikov və qeyriləri cənablarından elektrik əşyasını və qeyri əşyalar xahiş etmişdi. O cənabların həmin əşyaları həvəsli bir surətdə verməyinə, o cümlədən Məşhədi Hüseyn Səfərəliyev cənablarının 200 rublə ianə etməyinə şöbə öz izhari-təşəkkürünü yetirir. Neçə günlər qalanı bəzəməyə çalışan yoldaşlara şöbə izhari-təşəkkürünü yetirib ümidvar olur, gələcək böylə günlərdə yoldaşlarımız bu tövr işlərdən boyun qaçırmayıb bizimlə bərabər iştirak edərlər.

*Sədr: Məşhədi Şükür Balayev*
*Katib: Böyükağa Vəlizadə*

**2**

Möhtərəm müdir əfəndi!

Rica edirəm bizim bu qaç kəlmə izhari-təşəkkürümüzə öz qəzetənizdə yer verəsiniz.

28 Mayısda İstiqlal bayramı münasibətilə Ramanaya təşrif gətirmiş Azərbaycan Cümhuriyyəsinin Türüq və Məabir [Nəqliyyat və Rabitə] naziri [Xudadad] Məlikaslanov cənabları həmin kəndin fəqirlərinə beş yüz iyirmi beş manat ianə etmişlərdir. O cənaba Ramana camaatı tərəfindən izhari-təşəkkür edirəm.

*Aclar Komitəsinin sədri:*
*Mirdaməd [Məhəmmədzadə]*


**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlət münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*8753*

**Bəhri-Xəzər İstehlak Cəmiyyəti**
**"Kooperatsiya" müalicəxanası**

Hər növ naxoşluqlar qəbul olunur. Müalicə haqqı üzvlərdən 4 rublə, qeyrilərdən isə 6 rublə. Bolşoy Morskoy küçə, Tarqovının küncündə Həsənovun evində, yolu Bolşoy Morskoydan. Telefon nömrə 26-90.

Əmrazı-daxiliyyə [daxili xəstəliklər] 9-11 Balayan
Mədə naxoşluğu 12-2 Mejebovski; 4-6 A. Seyidov
Əmrazı-əsəbiyyə [əsəb xəstəlikləri] 12-2 Şmirqeld
Cərrahiyyə 9-11 Sander
Uşaq naxoşluğu 9-11 Rabinoviç; 4-6 Bron
Arvad naxoşluğu və mamalıq 9-11 Pines; 12-2 arvad həkimi Şapiro-Rotman; 4-6 S. Seyidov[a]
Dəri və zöhrəviyyə 9-11 O. Şamkoryan; 12-2, 4-6 Pernik
Göz naxoşluğu 9-11 Cəfərov; 4-6 arvad həkimi Qeqamyan
Qulaq və boğaz ağrısı 12-2 B. K. Fin-kelşteyn;
Diş ağrısı 9-11 Suşon-Sivkina; 4-6 İtkin
Müalicəxana müdiri bakterioloq Lyubaşevskaya

Müalicəxanada konsultasiyalar icra olunur. Operasiya, konsultasiya razılıq ilə. Çiçək döyülür, şəhadətnamə verilir. Analiz qəbul olunur. 606 və 914 müalicəsi.

*10208*

**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur.

Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqlarını qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28. Və 93.

*8765*


***Müvəqqəti müdir: Hacıbəyli Üzeyir***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Qismi-rəsmi***

"Qolçu vergisi": gömrük vergisinin bir növü.

***Azərbaycan Məclisi-Məbusanında***

"Zülmün topu var…": misralar türk şairi Tofiq Fikrətin "Millət şərqisi" şeirindəndir.

"Haqqın bükülməz qolu, dönməz üzü vardır": Türk şairi Tofiq Fikrətin "Millət şərqisi" adlı şeiri yada salınır:

Zülmün topu var, gülləsi var, qəl'əsi varsa,
Haqqın da bükülməz qolu, dönməz üzü vardır.

***Teleqraf xəbərləri***

"Portəgiz rəisi-cümhuru Maşadu Sülh Konfransına bəyan eyləmişdir ki, öhdəsinə aldığı vəzifəsini tərk edir.": Prezident Maşadu 1917-ci ildə hərbi çevriliş nəticəsində hakimiyyətdən uzaqlaşdırılmışdı. 1919-cu ildə prezidentlik iddiasından əl çəkdiyini bildirəndən sonra Portuqaliyaya qayıtmasına icazə verilmişdir. "Azərbaycan" qəzetində "Makadu" kimi yazılmışdır.

***Sülh ətrafında***

"1839-cu il müahidənaməsi": 19 aprel 1839-cu ildə Böyük Britaniya, Avstriya, Fransa, Prussiya, Rusiya və Niderland Krallığı arasında imzalanan London Sazişi nəzərdə tutulur. Avropa dövlətləri bu sazişlə Belçikanın müstəqilliyini və bitərəfliyini qəbul etdilər, eləcə də Lüksemburqun müstəqilliyini təsdiqlədilər.

***Qəzetələrdən***

"yeni əfqan əmiri": Əmənulla xan nəzərdə tutulur.

***Türk aləmində qadınlıq***

"Kitabi-mübin": aydın, açıq-aşkar, hər şeyin yazıldığı kitab, yəni "Quran".

"yavrusunun beşiyini sallarkən": qəzetdə "yavrusunun beşiyini sallar ki" getmişdir.

***Canlı duyğular***

"Arş, əsgəri-islam...": misralar türk şairi Əli Əkrəm Bolayırın "Orduya xitab" adlı şeirindəndir.

***Bakı xəbərləri***

"Adresnı stol idarəsi": Bakıda daimi yaxud müvəqqəti yaşayan əhalinin qeydiyyatını aparmaq məqsədi ilə 1909-cu ildə yaradılmış idarə.

***Müsəlman ziyalıları haqqında***

"Rusiya Könüllü ordusu tərəfindən gələn": qəzetdə "gələn" yerinə "külli" getmişdir.

***Azərbaycanda***

"İran quldurları Şahsevənlər": qəzetdə "Şahsevənlər" yerinə "Şahsevənlərə" getmişdir.

***İzhari-təşəkkür***

"beş yüz iyirmi beş manat": qəzetdə belə getmişdir: "beş yüz iki beş manat".



# Mədəniyyət



● Yeni nəşrlər

# Dahi bəstəkarın yubileyinə dəyərli töhfələr




**Xalqımızın hər zaman iftixarla anaraq adını uca tutduğu Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi bu ilin yaddaqalan mədəni hadisələrindən birinə çevrilib. Dövlət başçısı İlham Əliyev fevralın 3-də "Üzeyir Hacıbəylinin 140 illik yubileyinin qeyd edilməsi haqqında" sərəncam imzalayıb.**

Sərəncamda qeyd olunub ki, Üzeyir bəy Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir: "Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir".

Doğma xalqının tarixini, mədəniyyətini, incəsənətini, mətbuatını çoxşaxəli fəaliyyəti, dühası ilə zənginləşdirən, dünyaya tanıdan bu böyük şəxsiyyətin irsinə hər zaman ehtiramla yanaşır, bu gün də Üzeyir bəydən öyrənirik. Bu baxımdan Azərbaycanın milli klassik musiqisinin və professional bəstəkarlıq məktəbinin banisi, ilk milli operanın müəllifi, görkəmli maarifçi, dramaturq və publisist Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyi münasibətilə Böyük Britaniyanın BP şirkəti təqdirəlayiq işlər həyata keçirib. Belə ki, BP şirkətinin sponsorluğu ilə Üzeyir bəy Hacıbəylinin 140 illik yubileyi çərçivəsində dahi bəstəkarın Bakıdakı ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcovun və muzey əməkdaşlarının birgə təşəbbüsü və əməyi nəticəsində silsilə nəşrlər hazırlanaraq işıq üzü görüb.

Həmin nəşrlərdən biri "Ömür albomu" adlandırılıb. "Ömür albomu"nun layihə rəhbəri və ideya müəllifi Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov, tərtibçiləri isə muzeyin əməkdaşları Nərgiz Qədirova və Xanım Həsənxanovadır. Kitabın redaktoru Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri Fərid Hüseyndir.

Nəfis tərtibatda nəşr olunmuş "Ömür albomu" Üzeyir bəyin həyat və yaradıcılığını, ictimai fəaliyyətini, musiqi irsini əks etdirir. Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcovun kitaba yazdığı "Ön söz"də bildirdiyi kimi, bu böyük şəxsiyyətin - Üzeyir bəy Hacıbəylinin həyat və yaradıcılıq salnaməsi mənalı ömür dəqiqələri, ecazkar ilhamının böyük uğurları, maarif və mədəniyyətimizin tərəqqisi yolunda yorulmadan apardığı gərgin mübarizə anları, xalqına və doğma yurduna sonsuz məhəbbəti ilə bağlıdır.







Kitabdakı fotoşəkillər, sənədlər, illüstrasiyalar, afişalar Üzeyir bəyin ömür yolunun müxtəlif mərhələlərini, ailə üzvlərini, dostlarını, əməkdaşlıq etdiyi insanları, həmçinin böyük şəxsiyyətin pedaqoji və publisistik fəaliyyətini, Azərbaycan musiqisinin inkişafına verdiyi əvəzsiz töhfələri bir daha tanıdır. Eyni zamanda "Ömür albomu" bu görkəmli sənətkarın xalqına olan məhəbbətini, onun milli-mədəni irsinə bağlılığını əks etdirir.

"Unudulmaz incilər" (partituralar) adlı digər nəşrin redaktoru Sərdar Fərəcov, məsul redaktoru Fərid Hüseyn, ingilis dilinə tərcümə edən Tamam Bayatlıdır.

Bu kitaba yazdığı "Ön söz"də Sərdar Fərəcov Azərbaycanın dünyaşöhrətli bəstəkarı Üzeyir bəy Hacıbəylinin yaradıcılığının hər zaman diqqət mərkəzində olduğuna, öyrənildiyinə və araşdırıldığına diqqəti çəkib. Qeyd edib ki, bütün bunlara rəğmən bəstəkarın arxivində hələ də öz tədqiqatçılarını gözləyən xeyli əsərlər vardır ki, onların arasında opera, kantata, mahnı və digərlərini göstərə bilərik. "Unudulmaz incilər" kitabı bu mənada dahi bəstəkarın yubileyinə dəyərli töhfədir.

"Unudulmaz incilər"ə "Milli marş", "Şeyx Sənan" operasından üç fraqment ("Müqəddimə", "Qızların xoru", "Şeyx Sənanın eşq etirafı"), "Çırpınırdın, Qara dəniz", "Simfonik rəqslər №1", "Simfonik rəqslər №2", "Bahar nəğməsi", "Aşıqsayağı" əsərləri daxildir.

BP şirkətinin sponsorluğu ilə işıq üzü görmüş digər nəşr - "Uşaqlara hədiyyə (səs və fortepiano üçün mahnılar)" Üzeyir bəy Hacıbəylinin 140 illiyinin qeyd olunduğu bir vaxtda uşaqlara əvəzolunmaz hədiyyədir. Sərdar Fərəcovun qeyd etdiyi kimi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli yaratdığı möhtəşəm operalar, operettalar, kantatalar, kamera və orkest əsərləri ilə yanaşı, uşaqları da unutmamış, onların mənəvi aləmini zənginləşdirən çox gözəl, oynaq və mənalı mahnılar bəstələmişdir: "İstər Hadrutda, istərsə də Bakıda "Səadət" məktəbində çalışdığı illərdə Üzeyir bəy uşaqları xüsusi sevgi, diqqət, qayğı ilə əhatə etmiş, onların təlim və tərbiyəsində musiqinin əhəmiyyətini hər zaman ön planda tutmuşdur".

Üzeyir bəy Hacıbəylinin uşaq mahnılarının mövzularının çoxşaxəli olduğunu diqqətə çatdıran Sərdar Fərəcov yazıb: "Bu mahnılarda təbiət, insan əməyi, ailə-məişət səhnələri, bayramlar və digər mövzular əksini tapmışdır. Bu gözəl mahnıların sözləri görkəmli Azərbaycan şairləri Mirzə Ələkbər Sabir, Abdulla Şaiq, Abbas Səhhət, Mirmehdi Seyidzadə və başqalarına aiddir. Hətta ədəbiyyatşünas Firudin bəy Köçərli 1910-cu ildə Abdulla Şaiqin yazdığı "Gözəl bahar" pyesi əsasında yeni bir operetta yazmaq təşəbbüsü ilə Üzeyir bəyə müraciət etmişdir".

Üzeyir Hacıbəylinin ev-muzeyinin Ekspozisiya və kütləvi işlər şöbəsinin müdiri, gənc bəstəkar Vəfa Bağırzadənin tərtib etdiyi məcmuədə 8 mahnı - "Uşaqlara hədiyyə"də "Çıxdı günəş", "Ninni", "Pilotlar", "Səhər-səhər yaz çağı", "Beşik başında", "Bir quş düşdü havadan", "Bayram günü", "Şəfəq sökülərkən" mahnıları yer alıb.

Bu nəşrin də redaktoru Üzeyir Hacıbəylinin ev-muzeyinin direktoru, Xalq artisti Sərdar Fərəcov, məsul redaktoru Azərbaycan Yazıçılar Birliyinin Gənclər Şurasının sədri, şair Fərid Hüseyn, ingilis dilinə tərcümə edəni Tamam Bayatlıdır.

Yeni nəşrlərin təqdimatı ilə bağlı şirkətin yaydığı məlumatda bildirilib ki, BP Azərbaycanın mədəniyyət tarixinin zirvəsində duran nəhəng şəxsiyyətlərdən biri, xalqın milli klassik musiqisinin və professional bəstəkarlıq məktəbinin banisi, ilk milli operanın müəllifi, görkəmli maarifçi, dramaturq və publisist Üzeyir bəy Hacıbəylinin anadan olmasının 140 illiyini Azərbaycan xalqı ilə birlikdə bayram etməkdən qürur duyur. "Bu əlamətdar hadisə münasibətilə BP dahi bəstəkarın misilsiz irsinin qorunmasına töhfə olan xüsusi kitablar komplektinin nəşrinə dəstək verib.

Layihə Azərbaycanın mədəni irsinin, o cümlədən onun zəngin tarixinin və əsrarəngiz sənət xəzinəsinin təbliği və tədqiqinə dəstək istiqamətində BP-nin davamlı öhdəliyini əks etdirir".

*Z.FƏRƏCOVA,*
*"Azərbaycan"*

● İncəsənət xadimlərimiz

# Rəssamlıq sənətinin əbədiyyət ünvanının sakini



**Böyük bir nəslin davamçısı idi. Babaları doğma yurdları - Azərbaycanın ən qədim yaşayış məskənlərindən olan Şahtaxtı kəndinin adını özlərinə soyad götürmüşdülər. Bu soyadı şahtaxtlıların vətənpərvər, istedadlı, müxtəlif sahələrdə uğur qazanan nümayəndələri tanıtdı, məşhurlaşdırdı. Elmira Şahtaxtinskaya da rəssam oldu. Neçə-neçə ölməz əsəri ilə Azərbaycanın incəsənət tarixinə adını əbədi yazdı.**

Elmira xanımın babası Baxşəli ağa Şahtaxtinski Naxçıvanda dövlət qulluqçusu olub. Sözükeçərliyi, vətənpərvərliyi ilə ad qazanmış Baxşəli ağadan çəkinən ermənilər ona düşmən kəsiliblər. Çünki Baxşəli ağa kimi igidlərin, yurdsevərlərin sayəsində məkrli planlarını reallaşdıra bilməyiblər. Bir gün fürsət tapan ermənilər onu oğlu ilə birlikdə qətlə yetiriblər. Sağ qalan oğulları bundan sonra çox çətinliklərlə uzləşiblər. Ancaq ataları kimi onları da heç bir çətinlik yollarından döndərə bilməyib. Qətiyyətləri, dəyanətləri sarsılmağa, ruhdan düşməyə qoymayıb. Sonralar öz zəhmətləri və istedadları ilə ayrı-ayrı sahələrdə tanınıblar.

Elmira Şahtaxtinskayanın atası Həbibulla bəy kimyaçı alim kimi məşhur olub. O, kimya elmləri doktoru, professor, Azərbaycan SSR Milli Elmlər Akademiyasının akademiki, Əməkdar elm xadimi idi. Elmira xanımın anası Leyla xanım isə Tibb İnstitutunu bitirib. Leyla xanım da şöhrətli bir nəslin - Qacarların davamçısı, Bəhmən Mirzənin nəvəsi idi.

Beşuşaqlı ailənin üçüncü övladı olan Elmira xanım 1930-cu il oktyabrın 25-də Bakıda dünyaya göz açıb. Qardaş və bacıları orta məktəbdə oxuduqları illərdə kimya, fizika elmlərinə maraq göstərib, sonradan həmin sahələrdə tanınmış mütəxəssis olub, ad-san qazanıblar. Qardaşı Məhəmmədəmin Şaxtaxtinski fizika elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiaysının həqiqi üzvü, Əməkdar elm xadimi olub. Bacıları da alimlik dərəcələri alıblar.

Elmira xanım isə ailə ənənəsindən kənara çıxıb. Amma bu, onun yox, valideynlərinin arzusu olub. Hələ balaca ikən qızlarının şəkil çəkməyi sevdiyini görən ata-anası qərara gəliblər ki, Elmiranı bu sahəyə - rəssamlığa yönəltsinlər.

Elmira Şahtaxtinskaya orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Rəssamlıq Məktəbinə daxil olub. Xasiyyəti belə olub - hər yerdə birinci olmalı imiş. Kölgədə qalmaq ona yad idi, harda olsa, təşəbbüsü ələ alardı. Rəssamlıq Məktəbində də tezliklə fəal, əlaçı tələbə kimi tanınıb.

Rəssamlıq sənəti getdikcə onu daha çox özünə çəkib. Onun incəliklərini böyük həvəslə öyrənib. Bu maraqla Bakıda Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirdikdən sonra Moskvaya gedib. Təhsilini Moskva Surikov adına Rəssamlıq İnstitutunda davam etdirib.

Sonuncu kursda Bakıya yay tətilinə gələndə "Azərnəşr"dən sifariş götürüb. Bir müddət sonra çəkdiyi rəsmi gətirib. Bu qədd-qamətli, suyuşirin qız gənc rəssam, "Azərnəşr"də bədii redaktor işləyən Oqtay Sadıqzadənin ilk baxışdan ürəyinə yatıb. Amma bir-birlərini yaxından tanımağa macal tapmayıblar. Dərslər başlandığı üçün Elmira xanım Moskvaya qayıdıb.

Bir il ötüb. Gənclər yenə də "Azərnəşr"də qarşılaşıblar. Elmira Şahtaxtinskaya təhsilini başa vurub həmişəlik Bakıya dönmüşdü. Rəssam qızın təyinatını "Azərnəşr"ə vermişdilər. Artıq bir yerdə çalışacaqdılar. Elmira Şahtaxtinskaya Oqtay Sadıqzadənin redaktorluğu altında işləyəcək, Plakat şöbəsinə rəhbərlik edəcəkdi.

İstiqanlı, ünsiyyətcil Elmira xanım üçün iş yoldaşları ilə dil tapmaq çətin olmayıb. Çox keçməyib ki, işdə hamının sevgisini qazanıb. Oqtay Sadıqzadə isə ilk görüşdən bəyəndiyi rəssam qızı yaxından tanıdıqca,







halına-xasiyyətinə bələd olduqca daha çox sevib. 34 yaşlı Oqtay Sadıqzadə o vaxtadək çox ağır günlər keçirmişdi. Onun atası yazıçı, tənqidçi Seyid Hüseyn repressiya dövründə "xalq düşməni" adı ilə həbs olunub güllələnmişdi. Anası şairə Ümgülsüm xanım isə sürgün edilmiş, orada sağlamlığını itirmişdi. Odur ki, geri döndükdən sonra çox yaşamamışdı. "Xalq düşməni"nin övladları kimi Oqtay Sadıqzadə və qardaşı Cığatay da müsibətlər çəkmişdilər. Alman faşist ordusunun Sovet İttifaqı ərazilərinə hücumu ilə başlayan müharibə illərində onlar hərbi xidmətə çağırılmışdılar. Amma digər "xalq düşmənləri"nin oğlanları kimi cəbhəyə yox, fəhlə batalyonuna göndərilmişdilər. Çox ağır işlərdə çalışan, əzab-əziyyətlər çəkən gənclərin hamısı fəhlə batalyonlarından geri əldən düşmüş, xəstə qayıtmışdılar. Əvvəldən arıq, zəif olan Cığatayı çəkdiyi işgəncələr sağalmaz xəstəliklərə düçar etmişdi. Gənc yaşında vəfat edən Cığatayın dərdi Oqtayın qəlbinə dağ çəkmişdi.

Elmira Şahtaxtinskayanın əmisi də Sovet hakimiyyətinin "təmizləmə" siyasətinin bəlasını görmüşdü. O, kiçik yaşlarından evlərində valideynlərini "xalq düşməni"nin qohumu olmaq xofuyla yaşayan görmüşdü...

İosif Stalinin ölümündən və Mircəfər Bağırovun həbsindən sonra bir az rahat nəfəs almağa başlamışdılar. Həmin vaxtlarda Oqtaya İnşaatçılar prospektində "Rəssamların binası" deyilən binada ikiotaqlı mənzil də verdilər. O, Elmira xanıma evlənmək təklifi etdi və qızın razılığını aldı.

İllər öncə həmsöhbətimiz olmuş Xalq rəssamı Oqtay Sadıqzadə həmkarı Elmira xanımla ailə qurmağının həyatına da, yaradıcılığına da müsbət təsir göstərdiyini demişdi: "Elmira heç vaxt çəkdiyim rəsmlərə laqeyd qalmır, məni həvəsləndirirdi. Şübhəsiz, o da mənim barəmdə eyni fikirdəydi. Sonralar evimizdəki rəssamlıq barədə söhbətlərdən oğlumuz da kənarda qalmırdı. Çünki artıq o da bizimlə eyni sənətdəydi. Altaya nə mən, nə də anası "rəssam ol" demişdik. Sadəcə, göz açdığı mühit özü onu bu sahəyə gətirdi".

Oqtay Sadıqzadə danışırdı ki, Elmira xanım Rəssamlıq İnstitutunun Plakat şöbəsini bitirmişdi. O vaxtlar bu sahəni siyasətlə çox əlaqələndirirdilər, rəssamlara sifariş edilən plakatlar Sovet hökumətinin ideyalarına xidmət etməli idi. Elmira xanımın da dövrün tələbi ilə çəkdiyi plakatlar var, əsasən sülh, neft, pambıqçılıq mövzularındadır. O, ilk vaxtlar daha çox belə əsərlər çəkirdi. Həmin plakatlar Elmira xanımın yaradıcılığında bir növ keçid rolunu oynayıb. Rəssamın yaradıcılığı bu cür mövzularla məhdudlaşmayıb. Və təcrübəsi artdıqca belə əsərlər onu qane etməyib. Elmira Şahtaxtinskaya bir müddət sonra başqa sahəyə keçib. O, "Azərbaycan qədim mədəniyyət diyarıdır" adı altında 30-dək əsər yaradıb. İmaddədin Nəsimi, Məhəmməd Füzuli, Nəsrəddin Tusi, Məhsəti Gəncəvi, Əcəmi Naxçıvani, Üzeyir bəy Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun, Səttar Bəhlulzadə, Fikrət Əmirov, Qara Qarayev və başqalarının portretlərini çəkib. Tarixi mövzulara müraciət etmək, görkəmli şəxsiyyətlərin portretlərini yaratmaq rəssamdan tariximizi, ədəbiyyatımızı, incəsənətimizi dərindən öyrənməyi tələb edirdi. Elmira xanım qəlbindəki xalqına, ölkəsinə olan dərin sevgi ilə bu işlərin öhdəsindən uğurla gəlib, hər əsəri üçün yorulmadan araşdırmalar aparıb, zəngin materiallar toplayıb.

Dəfələrlə xarici ölkələrdə keçirilən sərgilərdə iştirak edən, əsərləri böyük maraqla qarşılanan Elmira Şahtaxtinskaya peşəkar rəssam idi. Oqtay Sadıqzadə onun sənətinə bağlılığından, işlərinə ciddi münasibətindən heyranlıqla söz açırdı: "Elmira dövlət sifarişiylə çəkdiyi siyasi plakatları belə başdansovdu işləməzdi. Ancaq bir xasiyyəti vardı ki, sifarişlə götürdüyü işə vaxtında başlamazdı. Hansısa hadisəyə, tədbirə həsr etməli olduğu plakatı saxlayar-saxlayar, üç-dörd gün qalmış çəkməyə başlayardı. Nə gecəsi olurdu, nə gündüzü. Dincliyini itirirdi. İstirahəti unudurdu. 3-4 gün sonra taqətdən düşmüş halda çıxırdı emalatxanadan. Ancaq əgər söz vermişdisə, o işi mütləq görməli idi. Başqa cür mümkün deyildi. Özünə qarşı həddindən artıq tələbkar idi. Bir əsər üçün 20-30 eskiz edirdi. Onun rəssamlıqla məşğul olmaq üçün xüsusi iş saatı yox idi. Nə vaxt ürəyinə, ağlına doldu, fırçasını o vaxt alırdı əlinə. Bir də işləyəndə emalatxanasının qapısını heç kimin üzünə bağlamazmış. Elmira xanım adam yanında, məsləhətləşə-məsləhətləşə daha həvəslə işləyirmiş. "Rəssamların çoxu tənqid edilmək istəmirlər. Elmira isə səhvlərini eşitməyə həmişə hazır idi".

Laqeydlik, etinasızlıq ona yad olub. Oqtay Sadıqzadə onun öz fikirlərinin üstündə axıradək dayandığını bildirirdi. Xatırlayırdı ki, Rəssamlar İttifaqında nəsə düzgün olmayanda Elmira xanım onun aradan qaldırılması üçün əlindən gələni əsirgəmirdi. Əhatəsindəkiləri həmişə özününkü bilirdi: "Mənim həyat yoldaşım", "mənim oğlum", "mənim şəhərim", "mənim küçəm", "mənim respublikam" fikri ilə yanaşırdı ətrafındakılara: "Mənimdirsə, deməli, onun yolunda əlimdən gələni etməliyəm" düşüncəsi çox güclüydü onda. Özününkü bildiklərinə heç vaxt etinasızlıq göstərməzdi. Oqtay Sadıqzadə danışırdı ki, bir vaxtlar şəhərdə ağacları kəsməyə başladılar: "Elmira əməlli-başlı qəzəbləndi. Sözün əsl mənasında, mübarizəyə başladı. Bakı Soveti İcraiyyə Komitəsində baş aqronom işləyən Sinyavskiylə az qaldı əlbəyaxaya çıxsın. Mümkün olan bütün yerlərə getdi. İki ilini ağacların kəsilməsinin dayandırılmasına həsr etdi. Axır ki, istəyinə çatıb rahat nəfəs aldı".

Layiq olduğu bütün fəxri adlar ona verilib. Elmira Şahtaxtinskaya Xalq rəssamı, Əməkdar incəsənət xadimi olub, "Şərəf nişanı" ordeni ilə təltif edilib.

İstedadlı, sevilən, gözəl xanım idi. Haqqında ehtiramla danışılırdı. Əsərlərinin uzunömürlü olacağına kimsə şübhə etmirdi. Ancaq bu xoşbəxt qadının, görkəmli sənətkarın bir məsələdə bəxti gətirməyib. Gənc yaşında ağır xəstəliyə düçar olub. Xəstəliyinin dərmansız, çarəsiz olduğunu adətən xəstədən gizlədirlər. Elmira xanımdan nəyi isə sirr saxlamaq mümkünsüz deyildi. Xərçəngə mübtəla olduğunu biləndə sarsılıb, amma özünü tez ələ alıb. Doğmalarına dayaq olub. Həkimlərin məsləhətini dinləyib, dərmanlarını vaxtlı-vaxtında qəbul edib. Sarsılmaz iradəsi, böyük həyat eşqi ilə o, 35 il bu xəstəliyi canında daşıyıb. Çarəsiz xəstə olduğunu bilə-bilə həvəslə yaşayıb, əvvəlkitək deyib-gülüb, şənlənib, çalışıb, ən gözəl əsərlərini yaradıb. Onun xəstəliklə çarpışmalarda keçən ömrü 66 yaşında 1996-cı il oktyabın 13-də sona çatıb.

"Hər ikimiz rəssam olduğumuzdan tanışlarımız, dostlarımız da eyniydi. Amma o, dünyasını dəyişəndə bizə elə adamlar gəldilər ki, heç onların çoxunu tanımırdım. Ona görə ki, adamlarla tez dil tapa, ünsiyyət yarada bilirdi. Həyətə düşən kimi uşaqlar, böyüklər onu əhatəyə alırdılar. Hər kəsin dərdinə qalardı. Yaxşı danışmağı, həmsöhbətini ələ almağı, inandırmağı bacarırdı", - Oqtay Sadıqzadə yada salırdı.

Öz ömrünü böyük məhəbbətlə sevdiyi vətəni Azərbaycanın tarixini, mədəniyyətini əks etdirən əsərlərinin ömrünə qatan Xalq rəssamı Elmira Şahtaxtinskaya rəssamlıq sənətinin əbədiyyət ünvanının sakinidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Uzun illərdən sonra tammetrajlı uşaq filminin istehsalına başlanılıb

**Mədəniyyət Nazirliyinin sifarişi ilə "Nəriman-film" kinostudiyası tərəfindən uzun illərdən sonra tammetrajlı uşaq filminin istehsalına başlanılıb.**



Nazirlikdən bildirilib ki, "Akinak. İşquz qılıncı" adlı filmin rejissoru Elxan Cəfərovdur. Filmdə dörd yeniyetmənin Akinak qılıncını əldə etmək üçün keçdikləri çətin yoldan söhbət açılır. Vətənpərvərlik mövzusunda olan filmin çəkilişlərinə 2 aydan çox vaxt sərf olunub.

Ekran əsərinin ssenari müəllifi İlqar Safat, quruluşçu operatoru Ruslan Ağazadə, rəssamı Əziz Məmmədovdur. Filmdə Xalq artisti Məmmədsəfa Qasımov, Əməkdar artistlər Füzuli Hüseynov, Həcər Ağayeva, Rövşən Kərimduxt və Elnar Qarayev rol alıblar.

# "Milli opera incilərimiz" layihəsi yenidən təqdim edilib

**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı tərəfindən həyata keçirilən "Milli opera incilərimiz" layihəsi çərçivəsində teatrın opera truppası solistlərin milli operanın ən gözəl vokal əsərlərini ifa etdiyi daha bir konsert keçirib.**



Konsert Bakı Musiqi Akademiyasının Opera Studiyasının konsert zalında baş tutub. Proqrama teatrın simfonik orkestri və xorunun müşayiəti ilə Azərbaycan bəstəkarları Üzeyir bəy Hacıbəyli, Müslüm Maqomayev, Fikrət Əmirov, Niyazi, Şəfiqə Axundova, Ramiz Mustafayev və Firəngiz Əlizadənin şah əsərlərindən parçalar daxil edilib.

Konsertdə Xalq artisti Gülnaz İsmayılova, Əməkdar artistlər İnarə Babayeva, İlahə Əfəndiyeva, Cahangir Qurbanov və Səbinə Vahabzadə, solistlər Adil Axundov, Mahir Tağızadə, Rəvanə Əmiraslanlı, Xəyal Hüseynov, Səma Həmzəyeva, Aytac Şıxəlizadə, Günel Hacıyeva, Fəhmin Əhmədli, Aydan Quliyeva, Orxan Cəlilov iştirak ediblər.

# Korporativ abunəçilərin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, mobil internetə olan ehtiyacın daim artdığı mühitdə müştərilərə təklif olunan tariflərin optimallaşdırılması, abunəçilərə daha əlverişli və rahat istifadə imkanının təmin edilməsi məqsədi ilə 1 dekabr 2025-ci il tarixdən etibarən "GigaMax" və "GigaMax+" internet paketləri üzrə sürət limitləri aradan qaldırılır. Paketlər aşağıdakı şərtlərlə təqdim olunacaq:

| İnternet paketin adı | İstifadə müddəti | Maksimal sürət (mb/s) | Qiymət (AZN ƏDV daxil) | Təqdim edilən həcm |
|---|---|---|---|---|
| "GigaMax" | 30 gün | Limitsiz | 18,9 | 60 GB |
| "GigaMax+" | 30 gün | Limitsiz | 28,9 | 80 GB |

Göstərilən şərtlər müvafiq paketlərin növbəti yenilənməsindən sonra tətbiq ediləcək.

Müvafiq dəyişiklik ilə "GigaMax" və "GigaMax+" internet paketləri çərçivəsində təqdim edilən internetdən istifadə sürəti artırılaraq daha rahat və əlverişli istifadə imkanı yaradılır. Eyni zamanda abunəçilərə həmin paketlər çərçivəsində təqdim edilən həcm bitdikdən sonra istifadə müddətinin sonunadək 256 kb/s sürət həddində limitsiz həcmdə, əlavə ödəniş etmədən yararlanmaq imkanı təqdim edilir. Bundan başqa, istifadə müddəti başa çatmamış "GigaMax" və "GigaMax+" internet paketləri çərçivəsində təqdim edilən həcm bitdikdə abunəçilər həmin paketləri yeniləmək imkanına da malik olacaq.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, "GigaMax" və "GigaMax+" internet paketlərinin digər şərtləri, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (www.azercell.com), həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər. Korporativ abunəçilər xüsusi Müştəri Xidmətlərinə ((012)4904940 - şəhər telefonundan, 6050 - mobil telefondan (1 zəng - 0,1 AZN) bazar ertəsi - cümə, 09:00 - 18:00) müraciət edərək mövcud tariflər, kampaniyalar və xidmətlər haqda məlumat öyrənə, müxtəlif əməliyyatlar həyata keçirə və texniki dəstək ala bilərlər.



# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" qəzetinə abunə yazılışı davam edir!**

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# "AzerGold" QSC məhsul portfelini 1 qramlıq qızıl külçələr hesabına genişləndirib

**"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) yerli bazarda qızıl külçələrə artan investisiya tələbatını nəzərə alaraq məhsul çeşidini genişləndirib.**




Dövlət şirkəti yerli qızıl xammalından hazırlanan yeni 1 qramlıq qızıl külçələri satışa çıxarıb. Bu addım, qızıl investisiyasını daha geniş istehlakçı kütləsi üçün əlçatan və sərfəli etmək məqsədi daşıyır.

Son aylarda qızılın dünya bazarlarında qiymətinin kəskin artması fonunda fiziki qızıl investisiyası sabit və etibarlı sərmayə aləti kimi diqqət mərkəzindədir. "AzerGold" QSC-nin 1 qramlıq külçələri, məhz bu şəraitdə, daha kiçik məbləğlərlə investisiya etmək imkanı yaratmaqla fərqlənir.

Yeni 1 qramlıq külçələr "AzerGold" QSC-nin rəsmi satış nöqtəsi - Satış və mübadilə mərkəzi və onlayn platforması - **www.azergold.gift** vasitəsilə əldə edilə bilər.

# ABŞ Çin ixracına tarifləri azaldıb

**ABŞ Prezidenti Donald Tramp Çinin nadir torpaq metallarının ixracına qoyulan məhdudiyyətlər məsələsinin həll olunduğunu elan edib. Amerika lideri həmçinin gələn ilin aprel ayında Pekinə səfər edəcəyini açıqlayıb.**



Donald Tramp Çin lideri Si Cinpinlə Cənubi Koreyanın Pusan şəhərində təxminən iki saat davam edən görüşdən sonra Vaşinqton və Pekinin bir çox məsələdə razılığa gəldiyini bildirib. O, ABŞ-nin Çinlə tezliklə ticarət müqaviləsi imzalaya biləcəyini qeyd edib.

Çin lideri isə danışıqlar zamanı bildirib ki, "iki ticarət və iqtisadi qrupumuz əsas narahatlıqlarımızın həlli ilə bağlı əsas konsensusa gəlib və ümidverici irəliləyiş əldə ediblər". Çinin Xarici İşlər Nazirliyi dialoqun qarşıdurmadan daha yaxşı olduğunu və iki liderin iqtisadi, ticarət, enerji və digər sahələrdə əməkdaşlığı gücləndirmək və daha aktiv insanlararası mübadiləni təşviq etmək barədə razılığa gəldiyini bildirən bəyanat yayıb. Nazirlik Si Cinpinin nümayəndə heyətlərinin əsas iqtisadi və ticarət məsələləri üzrə dərin fikir mübadiləsi apardıqlarını və müxtəlif problemlərin həlli ilə bağlı konsensusa gəldikləri və növbəti addımları tez bir zamanda hazırlamalı və yekunlaşdırmalı, əldə edilmiş razılaşmaların effektiv həyata keçirilməsini və onlara riayət olunmasını təmin etməli, beləliklə, hər iki ölkədə və qlobal iqtisadiyyatda konkret nəticələr vasitəsilə etimad yaratmalı olduqlarını bildirib.

Çin Xarici İşlər Nazirliyinin açıqlamasında həmçinin bildirilir: "Son zamanlar Çin və ABŞ arasında iqtisadi və ticarət münasibətləri yüksəliş və enişlər yaşayıb və bu da hər iki tərəfə bəzi ibrətamiz dərslər verib. Praktik münasibətlər Çin-ABŞ münasibətlərinin hərəkətverici qüvvəsi kimi xidmət etməyə davam etməlidir. Tərəflər geniş düşünməli və qarşılıqlı tədbirlərin qapalı dövrəsindən çıxaraq əməkdaşlığın uzunmüddətli faydalarını qəbul etməlidir. Hər iki komanda bərabərlik, qarşılıqlı hörmət və qarşılıqlı fayda ruhunda danışıqları davam etdirə, problemli məsələlərin siyahısını daim daralda və əməkdaşlıq sahələrinin siyahısını genişləndirə bilər".

Tramp təyyarədə jurnalistlərə Si Cinpinlə əla görüş keçirdiyi barədə danışıb və onu böyük lider adlandırıb. Amerika liderinin dediyinə görə, razılaşmanın şərtləri hər il nəzərdən keçiriləcək. "Amma düşünürəm ki, bu, uzun müddət qüvvədə qalacaq", - deyə o izah edib. Tramp Çinin nadir torpaq metallarının ixracına qoyduğu məhdudiyyətlər məsələsinin həll olunduğunu bəyan edib: "Bu bütün dünya üçündür... Bu, təkcə ABŞ-də deyil, bütün dünyada mövcud olan bir vəziyyət idi. Artıq Çindən heç bir maneə yoxdur".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Hava əsasən yağmursuz keçəcək

Azərbaycan ərazisində noyabrın 1-nə gözlənilən hava şəraiti açıqlanıb.



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sabah Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin oktyabrın 31-dən noyabrın 1-nə keçən gecə bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Mülayim cənub-qərb küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.

Havanın temperaturu gecə 10-15, gündüz 19-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 762 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 70-80, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 5-9, gündüz 19-24 dərəcə isti, dağlarda gecə 0-4 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti olacaq.

## Şənbə söhbəti



**Ömür sürdüyümüz həyat adlandırılan bu nəsnədə bəzən elə hallarla rastlaşırsan ki, heç əlinə qələm götürüb, qarşısına kağız qoyub, barmaqları alnının böyür tərəfinə söykəyib xəyal aləminə cumub onları yazmaq istəmirsən. Belə anlarda hiss edirik ki, deyəsən, ilham pərisi də mısmırığını sallayıb naz eləyir, küsməyə hazırlaşır.**

# Görəsən yazsaq, düzələrlər?

Çoxlarımızın hər gün gördüyü və şahidi olduğu həmin halları çox böyüdüb hadisə demək də olmaz. Bizcə, onlar uzaqbaşı həyatımızdakı kiçik fraqmentlər silsiləsindən ibarət xırda məsələlərdir. Amma xırda olsalar da, bu olaylarda böyük eyiblərimiz, kiçik kobudluqlarımız açıq-aydın görünür.

Təkcə çörəyi yox, çayı da qələmdən çıxanların daxili və xarici işlərinə qarışmaq fikrindən uzağıq. Şəxsən biz belə neqativ, hələ neqativdən də bir az o tərəfə olan bu cür hadisələri heç vaxt yazmaq istəməmişik. Çünki yazsaq, sandığı açıb pambığı tökəcəyik oxucuların qənşərinə. Külli-aləmdə yaşayan insanlar da yazını oxuduqca eyiblərimizi görəcəklər.

Yazmaq istədiyimiz olayların bəzi detallarını qısa da olsa oxuculara açıqlamaq istəyirik. İstəyirik ki, oxucular ucundan-qulağından da olsa bilsinlər. Onlardan biri etinasızlığımızdır. Etinasızlıq sözünü çoxumuz bilib anladığımıza görə onun özündə nələri ehtiva etdiyini yazmırıq. Çünki həmin sözün ora-burasını çox qurdalasaq gedib biganəlik, özünü qəsdən görməməzliyə, bilməməzliyə və eşitməməzliyə vurmaq ifadələri ilə qohum çıxacaq. Ona görə də istəmirik ki, başqaları ətrafımıza, ətrafımızdakılara qarşı biganə olduğumuzu bilib bizə lağ eləsinlər. Amma sözün düzünü deyək ki, bu fikrin üstünə köklənəndə hərdən ürəyimizdən mülayimcəsinə "yaz, yaz" pıçıltılarını da eşidirik.

Hər gün xidmətindən istifadə etdiyimiz avtobusda, metroda elə hallarla rastlaşırıq ki, əlimiz quruyub üzümüzdə qalır. Bir də görürsən, budur, cırıq, damdar cins şalvarlı gözəl bir qız, yaxud yaraşıqlı bir oğlan, qulaqlarında qulaqcıq, əlində enli bir telefon oturub "iqra" oynayır. Sanki ətrafdan təcrid olunublar, dünyanın orbitindən çıxıblar. Buna görə də başlarının üstündəki ağsaçlı analardan, atalardan, nənə və babalardan, çəliklə gəzən xəstələrdən, hamilə, yaxud qucağı uşaqlı qadınlardan xəbərsiz olurlar. Elə bilərsiniz ki, onlar bunu görmürlər? Vallah, görürlər, amma özlərini görməməzliyə vururlar.

Bəzən də görürsən ki, budur ha bir dəstə cavan oğlan söhbət edə-edə gedir. Yaxınlıqda isə yaşlı birisi əlindəki üç-dörd ağır çantanı güclə dartıb aparır. Cavan oğlanlarsa etinasızcasına onun yanından ötüb keçirlər.

Hərdən bir həkimlərə üz tutmalı oluruq. Görürsən ki, cavanlar növbə gözləmədən dava-dalaş salır, kobudcasına yaşlılara hörmətsizlik edərək irəli keçirlər. İctimai nəqliyyatda da belədir. Avtobus dayanacağa yaxınlaşan kimi cavanlar özlərini atırlar irəli. Tez-tələsik rahat yer tutub oturur və əlinə alır telefonu, olur "başı aşağı" cavan.

Bu cür halların sayını xeyli uzadıb gənclərin etinasızlığından geniş bəhs etmək olar. Amma biz onları ətraflı yazıb sözü urvatdan salmaq istəmirik. Bir də istəmirik ki, gənclər yazımızda özlərini görüb az da olsa utansınlar.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4023**
**Sifariş 2205**

**Qiyməti 60 qəpik**